# BÖYÜK YALAN



**Mündəricat**

Beyni yuyulmuş xalqın aqibəti......................................................4

Yalan 1-İran və Rusiya Azərbaycanı bölüb...................................5

Yalan 2-Şah İsmayıl türk olub......................................................7

Yalan 3-İran geylərin sayına görə dünyada ikinci yerdədir............9

Yalan 4-Fələstin ermənilərə yardım edir.......................................12

Yalan 5-Hicab kişinin qadına qoyduğu məhdudiyyətdir................21

Yalan 6-İslam dini hakimiyyətə gəlsə geridəqalmışlıq hökm sürəcək............................................................................................25

Yalan 7-Mən nə sünnüyəm, nə şiə, əsl müsəlmanam.....................30

Yalan 8-Bütöv və böyük Azərbaycan............................................34

Yalan 9-Yəhudilər dünyanın ən ağıllı millətidir.............................37

Yalan 10-Difai türkçü təşkilat idi..................................................40

Yalan 11-ADR müstəqil dövlət olub..............................................44

Yalan 12-İran heç vaxt kafirlərlə vuruşmayıb................................46

Yalan 13-Hacı Zeynalabdin Tağıyevin Pakistana yardımı.............48

Yalan 14-Şəhriyar millətçi idi.......................................................54

Yalan 15-İranda edam cəzası qeyri-insanidir.................................59

Yalan 16-Amerikanın dünyadan tək tələbi demokratiydır..............64

Yalan 17-Allah var olsaydı Afrikada insanlar aclıqdan ölməzdilər.........................................................................................71

Yalan 18-Elçibəy türk idi...............................................................78

Yalan 19-Türkiyə və Ermənistan sərhəddi bağlıdır.........................82

Yalan 20-İslam dini qadınların hüquqlarını əllərindən alır.............85

Yalan 21-Hacı Qasim erməniləri dəstəkləyib.................................92

Yalan 22-İran həmişə bizə düşmən olub........................................96

Yalan 23-Hicab milli deyil...........................................................104

Yalan 24-Azad media................................................................107

Yalan 25-Şah İsmayıl qardaş qırğını salıb.................................111

Yalan 26-Babək ərəbin dini olan islama qarşı vuruşub.............113

Yalan 27-Tarixdə İran adlı dövlət olmayıb................................115

Yalan 28-Müsəlmanlar terrorçudur............................................120

Yalan 29-İran erməniləri silahlandırır........................................124

Yalan 30-Ruslar bəşəriyyət düşmənidir.....................................135

Yalan 31-İran islam dinini təhrif edib........................................138

Yalan 32-Qarabağ islam torpağı deyil, Azərbaycan torpağıdır.......................................................................141

Yalan 33-Holokost.....................................................................143

Yalan 34-Nato sülhməramlı təşkilatdır......................................148

Yalan 35-İslam pedofiliyanı dəstəkləyir....................................151

Yalan 36-İsrail silahları ancaq bizə satır....................................158

Yalan 37-İranda türk dili qadağandır..........................................162

Yalan 38-Atatürk türk dünyasının lideridir................................166

Yalan 39-İmam zühur edənə qədər İslam dövləti qurmaq haramdır.......................................................................172

Yalan 40-Seçki...........................................................................174

Mehriban və rəhmli Allahın adı ilə...

**Firon xalqın beynini yudu, onlar da ona itaət etdilər. Onlar fasiq xalq idilər... Zuxruf 54**
İnsanları aşağı düşüncə səviyyəsində saxlamaq, fikirlərini boğmaq, müxtəlif vasitələrlə onları axmaq yerinə qoymaq, davamlı olaraq həqiqətlərdən, gerçəklərdən xəbərsiz etmək, yalançı dəyərləri həqiqi dəyərlər adına insanlara sırımaq zalım, despot və cinayətkar hökumətlərin öz diktatura və avtoritarlıqlarını davam etdirmələri üçün həyata keçirdikləri metoddur. Xalqların oyaqlığı, ayıqlığı və azad təfəkkürü diktator hökumətlərin ən böyük düşməni olduğu üçün daim ona qarşı mübarizə aparırlar. Bu fironsayağı üsul, yəni ağılların gülünc vəziyyətə salınması, yüngülləşdirilməsi və yuyulması prosesi müasir dövrümüzdə də cinayətkar dövlətlərin tam qüvvəsi ilə həyata keçirdiyi bir metoddur. Bu məqsədə nail olmaq üçün Fironun əlində olan vasitələr məhdud idi, ancaq dövrümüzün təcavüzkarları, qəsbkarları, avtoritarları, diktatorları millətlərin tamamilə xəbərsiz qalıb müti olmasına nail olmaq üçün kütləvi informasiya vasitələrindən, mətbuat, radio, televiziya və sair vasitələrdən geniş şəkildə istifadə edirlər. Buna görə də peyğəmbərlərin məktəbini davam etdirən, onların fikir xəttində irəliləyən alimlər və din mütəfəkkirləri ağılların gülünc vəziyyətə salınmasına qarşı mübarizədə üzərlərinə ağır vəzifə götürürlər. Diqqət çəkən məqam ayənin “Onlar fasiq xalq idi" cümləsi ilə bitməsidir. Allah-taala bu cümlə ilə başa salmaq istəyir ki, Misir xalqı fasiq idi, Allahın itaətindən, ağlın hökmündən çıxmasaydı, bu cür təbliğatlara uymaz, öz əli ilə özünü azğınlığa məhkum etməzdi. Bu səbəbdən də onlar bu azğınlıqlarına görə üzrlü sayılmırdılar. Düzdür ki, Firon onları aldadaraq özünə müti etmişdi, ancaq onlar da kor-koranə itaətkarlıqları ilə buna zəmin yaratmışdılar. Əslində, bu xalq caniyə tabe olan bir cani idi.

**Məkarim Şirazi-Nümunə təfsiri, c.21, səh.88**

## Yalan 1

## •İran və Rusiya Azərbaycanı bölüb




Bu fikirdə olanlar Türkmənçay və Gülüstan müqaviləsində Azərbaycanın "Şimali Azərbaycan" və "Cənubi Azərbaycan" olmaqla iki hissəyə bölündüyünü iddia edirlər. Şimali və Cənubi Koreya kimi.

Tarixin heç bir dönəmində Şimali Azərbaycan və Cənubi Azərbaycan adlı dövlətin mövcud olmaması bu iddianın köklü yalanlar üzərində qurulduğunu göstərir.

İkinci məsələ budur ki, bu iki müqavilə Rusiya və İran arasında bağlanıb, amma müqavilədə ümumiyyətlə Azərbaycan adı keçməmişdir. Dillərə düşmüş "İran və Rusiya Azərbaycanı bölüb" yalanı bu müqavilədə öz əksini tapmır. Müqaviləyə əsasən İran müharibədə uduzduğu torpaqları Çar Rusiyasına təslim edir.

Həmin dövrdə İranı idarə edənlərin Qacarlar (türklər) olduğunu nəzərə alsaq iddia sahiblərinin bu işdə farsları ittiham etməsi də absurddur.

Həmçinin 20-ci əsrdən əvvəl İran adlı dövlət olmayıb deyənlərin "Azərbaycanı Rusiya və İran bölüb" demələri də paradoksdur.

Rusiya 19-cu əsrin əvvəllərində Qacarlar sülaləsinin İranı zəiflətdiyini görüb İrana hücum edib və Qafqazda İran dövlətinə məxsus 17 iri şəhəri işğal edərək "Türkmənçay və Gülüstan" müqavilələri

vasitəsilə İrandan qoparıb, öz ərazilərinə qatıb. Bu belədir və tarixi həqiqətdir... Eynilə Ermənistanın Qarabağı işğal etdiyi kimi.

Azərbaycan adlı dövlət ilk dəfə 1918-ci ildə İranın işğal olunmuş həmin şimal ərazilərində Çar Rusiyası dağıldıqdan sonra yaranmışdır. Ərazi olaraq isə heç vaxt Arazın şimal hissələri Azərbaycan adlanmayıb. Hal-hazırda Azərbaycanın yerləşdiyi ərazi tarixi sənədlərdə Arran və Şirvan şəklində qeyd edilib. Tarixdə Azərbaycan bölgəsi həmişə Arazın cənub əraziləri üçün işlənilib. Qısacası İran və Rusiya Azərbaycanı bölüb ibarəsi bölgə və ərazi olaraq da həqiqəti əks etdirmir. Çünki İranın Azərbaycan əraziləri işğal edilməyib, Arran və Şirvan əraziləri işğal edilib.



“İran və Rusiya Azərbaycanı bölüb” ibarəsinin yeni ortaya atılmış bir hiylə olduğunu göstərən dəlillərdən biri də budur ki, mərhum xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin ev muzeyində divardan Türkmənçay və Gülüstan müqavilələrini imzalamış İran şahının portreti asılıb.

Əgər Fəthəli şah Azərbaycanı iki yerə bölən biri idisə, niyə görə ölkəsində əksəriyyətin sevimlisi olan bir xeyriyyəçi şəxs, onun şəklini öz otağındakı divardan asırdı? Bu ehtiram və məhəbbət əlaməti deyilsə, bəs nədir? Şəkilin asıldığı zamandan təqribən 60-70 il öncə vəfat etmiş bir şahın və ya şəxsin şəklini öz otağından asan Zeynalabdinin onun “Azərbaycanı iki yerə böldüyünü” bilməməsi mümkündürmü? O qədər pul töküb oxutduğu tələbələrindən biri və ya öz köməkçilərindən heç kim, bunu ona xatırlatmamışdımı?

Təbii ki, o dövrdə belə bir xatırlatma və ya xəbərdarlığa zərrə qədər ehtiyac belə yox idi. Çünki, "İran və Rusiya bizim torpaqları öz arasında böldü"- kimi bir düşüncə hələ uydurulmamışdı...

Populist və pafoslu çıxışlardan çəkinərək həqiqətləri qəbul etməliyik. Öz zərərimizə olsa belə. Necə ki, Allah Quranda buyurur; **“Ey iman gətirənlər! Ziyanınıza olsa belə doğru danışın...”**

**Nisa 135**

## Yalan 2

## •Şah İsmayıl türk olub




Şahımız bizim qürur mənbəyimizdir. Hansı millətə mənsub olur-olsun, biz hal-hazırda onun bizə miras qoyduğu torpaqlarda yaşayırıq. Amma bu o demək deyil ki, Şah İsmayılın adından kimlərsə öz məqsədləri üçün istifadə etməlidirlər. Biz tarixi dəqiq öyrənməli və həqiqətləri olduğu kimi qəbul etməliyik. Şah İsmayıl türk dilli olub, amma türk olmayıb. Şahımızın nəsil şəcərəsi bütün tarixi əsərlərdə mövcuddur. Həmin şəcərəni sizlərə təqdim edirik.

**Şah İsmayılın 7-ci İmam Museyi-Kazimə qədər çatan soyu:**

**ibn Sultan Heydər əl-Hüseyni əl-Musəvi əs-Səfəvi**

**ibn Cüneyd**

**ibn Sultan Şeyx Sadruddin**

**bin İbrahim**

**ibn Sultan Xacə Əli**

**ibn Şeyx Sadruddin Musa**

**ibn Sultan Şeyx Səfiyuddin İshaq**

**ibn Şeyx Əminuddin Cəbrail**

**ibn Seyyid Saleh**

**ibn Seyyid Qutbuddin Əhməd**

**ibn Seyyid Səlahuddin Rəşid**

**ibn Seyyid Seyyid Muhəmməd əl-Hafiz Kəlamullah**

**ibn Seyyid Əud əl-Xavvas**

**ibn Seyyid Firuzşah Dərrin-kulah**

**ibn Muhəmməd Şərəfşah**

**ibn Muhəmməd**

**ibn Əbi Həsən**

**bin Muhəmməd**

**bin İbrahim**

**bin Cəfər**

**bin Muhəmməd**

**bin İsmayıl**

**bin Muhəmməd**

**bin Əhməd əl-İraqi**

**ibn Muhəmməd Qasim**

**bin Əbil-Qasim Həmzə**

**ibn əl-İmam MUSA KAZİM (ə.s) (7-ci imam)**

Mənbə: Seyyid Muhsin əl-Əmin. "Əyanuş-şiə" 3-cü cild, "əş-Şah İsmayıl Səfəvi" maddəsi, səhifə 321.

"Əl-Muhəddis əl-Qummi" (1877-1940) "əl-Kunə vəl-əlqab" əsəri.

Həmçinin, İsgəndər bəy Münşi. "Tarixi aləm arayi Abbasi" (Şahin Fazilin tərcüməsi ilə). "Şərq-Qərb", Bakı, 2010, səhifə 48 və Xacə Zeynulabidin Əli Əbdi bəy əş-Şirazi. "Təkmilətul-əxbar", "Elm", Bakı, 1996, səhifə 21-22.

Gördüyünüz kimi Şah İsmayıl İmam Museyi Kazimin (ə.s) övladıdır ki, İmam Musanın (ə.s) babası İmam Baqir (ə.s) İmam Hüseynin (ə.s) nəvəsidir. Allah Həzrəti Zəhra (s.ə) və İmam Əlinin (ə.s) soyuna elə bir bərəkət verib ki, qiyamət gününə qədər bu soy ilə mübarizə aparanların hamısının kökü kəsiləcək, amma bu soy ayaqda qalacaqdır. Bu barədə Qurani-Kərim buyurur;

**“Həqiqətən ey rəsulum sənə sonsuz deyənlərin öz nəsilləri kəsiləcək...”**

**Kövsər 3.**

## Yalan 3

### •İran geylərin sayına görə dünyada ikinci yerdədir




İran geylərin sayına görə dünyada ikinci yerdədir və İranda geyləri asırlar...

Tez-tez rast gəldiyimiz bu paradoksal ifadəyə bir də diqqət edək;

İranda geylər asılırsa, İran geylərin sayına görə dünyada necə ikinci yerdə ola bilər?!...

Uzun illərdir sosial şəbəkələrdə gəzən bu dezinformasiya əslində məsələnin qərəzli sayt və səhifələrdə yalnış şəkildə qoyulması səbəbindən yaranmışdır.

Bəs əslində həqiqət necədir? Həqiqətənmi İrandakı geylər edam olunacaqlarını bilə-bilə əməliyyat olunurlar və cinsiyyətlərini dəyişdirirlər?

Gəlin əvvəlcə məsələnin izahına bir müqəddimə ilə başlayaq. Dünyada hər kəs kişi və qadın doğulmur. Bəzi insanlar həm qadın vaginası, həm də kişi penisi ilə birlikdə dünyaya gəlirlər. Hər iki orqan ilə doğulan bu insanların tam olaraq qadın, yaxud kişi olduğunu həmin an söyləmək mümkün olmur. Buna yalnız böyüdüyü zaman sahəsini mükəmməl bilən bir psixoloq düzgün qərar verə bilir.

Dünyadakı bütün ölkələrdə belə uşaqlar vəsiqədə kişi qeyd edilir və əsgər aparılır.

**İRANDAN BAŞQA!**

Bu tip problemli insanlar həm kişilərlə, həm də qadınlarla cinsi əlaqəyə girə bilmək potensiyasına sahibdirlər. Hal-hazırda qərb dünyasında bu xəstələrin xəstə kimi yox, “olduğu kimi” tanınması və cəmiyyətdə qəbul edilməsi yönündə işlər aparılır.

Zahirən bəzəkli görünən "onlar da bir insan növüdür" şüarı ilə həmcinsbazlığın çoxalmasına səy göstərilir...

Bəs məsələnin həqiqəti nədir?...

Gəlin biraz da dərinə gedək. İnsanın ana və bacısı ilə də intim əlaqəyə girmək potensiyası var... İnsanın hansısa cinsi potensiyaya sahib olması, həmin potensiyadan mütləq istifadə etməlidir mənasına gəlməməlidir.

Bugün qərb dünyası "ana və övlad", "bacı və qardaş" nigahlarını da qanuniləşdirməyə və insanın mümkün cinsi potensiyasını praktikada tətbiq etməklə ailə institutunu məhv etməyə çalışır.

Əgər biz hormonal problemlər yaşayan insanlar barədə dərin araşdırma aparsaq görərik ki, onların müxtəlif kateqoriyaları var.

Əfsuslar olsun ki, dünya ölkələri bu tip xəstə insanların xəstəliyinin müalicəsinə diqqət ayırmır. Qərbin təlqini ilə "onlar da xüsusi bir insan növüdür" şüarını özlərinə bayraq edərək daha asan yolu tutur və beləcə xəstəliyin müalicəsinə maliyyə ayırmaqdan yaxa qurtarırlar...

Azərbaycan da daxil olmaqla dünyanın heç bir ölkəsi bu xəstələrin birbaşa müalicəsi üçün vəsait ayırmır.

**İRANDAN BAŞQA!**

İran qanunları Allahın yaratdığı iki cinsdən başqa heç bir cinsi qəbul etmir və hormonal problemlərlə doğulan insanların bütün müalicə xərcləri hökümətin büdcəsindən ödənilir.

Bu körpələrin hansı cinsə mənsub olması barədə qərar isə onlar böyüdükdən sonra, hökümətin xüsusi qurumlarının nəzarəti və psixoloq müayinəsi altında verilir.

Qərar məhkəmə tərəfindən təsdiq edildikdən sonra isə müvafiq qurumlar şəxsin bütün xəstəxana xərclərini ödəməklə müalicəsini üstlənirlər. Həmin insan həyatını qadın, yaxud kişi kimliyi ilə davam etdirir.

Bu gey və lezbiyanlığın yayılmaması üçün hökümətin atdığı ən mükəmməl addımdır.

Həmin müalicənin bugünə olan ortalama qiyməti 50 min dollara yaxın olduğu üçün İrandan kənarda yaşayan digər ölkə vətəndaşlarının əksəriyyəti bu bahalı müalicəni edə bilmirlər və əfsus ki, həyatlarına gey, yaxud lezbiyan kimi davam edirlər. Belə əməliyyatların xərcini büdcədən ödəmək heç bir ölkə rəhbərliyinə də sərf etmədiyi üçün, hökümətlər qərbin qoyduğu asan xətti seçir və lgbt adı altında millətlərə fəsad təbliğ edirlər.

İranda hökümətin bu insanlara xüsusi qayğısı nəticəsində gey və lezbiyanlıq sıfıra enmişdir. Büdcədən bu insanlara böyük miqdarda vəsaitin ayrılması isə tibbin bu sahəsini çox inkişaf etdirmişdir. Qiymətlərin digər bütün ölkələrdən ucuz olması da hormonal problem yaşayan hər kəsin müalicə üçün İrana müraciət etməsinə səbəb olmuşdur.

**İRAN CİNSİYYƏT DƏYİŞİLMƏSİNƏ GÖRƏ YOX, HORMONAL XƏSTƏLƏRİN MÜALİCƏSİNƏ GÖRƏ DÜNYADA BİRİNCİ YERDƏDİR!**

Unutmayın ki, yer üzündə Allahın öldürülməsini əmr etdiyi şəxslərdən savayı hər kəsin yaşamaq haqqı var. Yaradılışdan gələn nöqsanlarına görə heç kim nəinki öldürülməz, hətta məzəmmət belə olunmaz.

İslam insan həyatına o qədər böyük dəyər verir ki, tibbdə normal hal kimi baxılan evtanaziyanı belə haram hesab edir...

Yaralı əzanı müalicəsiz kəsib atmağa öyrəşmiş, həyata yalnız ağ-qara baxan faşist ruhiyyəli insanlar İranın bu xəstələr barədə qanunlarını beyinlərindəki "islama" uyğun görməyə bilərlər...

Amma onlar İranı bu işdə ittiham etməzdən əvvəl buyurub hormonal problem yaşayan xəstələr barədə öz ideologiyalarına uyğun konsepsiya təqdim etməlidirlər...

**Allah Qurani-Kərimdə buyurur:**

**Əgər doğru danışırsınızsa, siz də öz dəlillərinizi gətirin...**

**Bəqərə 111**

**Yalan 4**

**•Fələstin ermənilərə yardım edir**




Məqaləyə norveçli bir qadının bu sözləri ilə başlamaq istəyirik;

**“Fələstini dəstəkləmək üçün müsəlman olmaq lazım deyil, insan olmaq kifayətdir...”**




Bəli... İnsanın yalnız vicdanının olması kifayətdir ki, Fələstin məsələsində zalımların yox, məzlumların yanında yer alsın. Fələstin insanlara əsl simalarını göstərən bir aynadır...

İlk növbədə bunu qeyd edək ki, Ermənistan Fələstini dövlət kimi tanımır. Bir-birini tanımayan ölkələr, bir-biriləri ilə əsla dost ola bilməzlər.

İkinci məsələ budur ki, Fələstin hal-hazırda bütün əraziləri işğal altında olan və simvolik olaraq dövlət adını daşıyan bir ölkədir. Xəritələrdə İsrailin daxilində müəyyən yaşıl zolaqlar Fələstin ərazisi kimi göstərilsə də, həmin ərazilər ətrafı zəncirli qaçqın düşərgələrindən başqa bir şey deyildir... Fələstinin yalnız Qəzza adlanan bölgəsi müəyyən qədər öz müstəqilliyini qoruyub saxlaya bilib ki, həmin ərazi də açıq hava altında zindan adlanır. Yəni istəsələr belə, Ermənistanla hansısa dostluq əlaqəsi qura bilməzlər. Ora nə havadan, nə qurudan, nə də dənizdən giriş mümkün deyildir. Yalnız Misirlə kiçik bir sərhəddi var ki, Qəzza səmasında iki güllə atılan kimi o sərhəd də bağlanır və Qəzza əhalisi bombalar altında ölməyə məhkum edilir. Belə bir "ölkənin" Ermənistanla dost ola biləcəyini düşünmək nə qədər absurddur?!...

Bəs necə olur ki, ölkəmizdə xeyli sayda insan Fələstinə qarşı kin bəsləyir?!...

Bəli, media onlara müəyyən qədər təsir göstərib, amma Fələstin kimi məzlum bir ölkəyə nifrət bəsləmək üçün insanın daxilində də müəyyən qədər vicdansızlıq olmalıdır.






Məsələn ermənilər dünyanın bir çox ölkələrində yaşayır, özlərinə məktəb və kilsə açır, ana dillərində təhsil alırlar. Bir insanın bütün ölkələri bir kənara qoyub, bu sadalanan hallara görə yalnız Fələstini söyməsi vicdansızlıqdan savayı nə ilə əlaqələndirilə bilər?!...

Məsələn İsraildə erməni küçəsi var. Buna "İsraildə ermənilər də yaşayır və bu normaldır" deyən şəxsin, fotoşop olub-olmadığı bilinməyən bir şəkilə görə fələstinliləri söyməsi vicdansızlıqdan başqa nədir?!...

Vicdanı olan hər kəs bilir ki, tank önünə daş ilə çıxan qeyrətli Fələstin xalqı tarixin heç bir dövründə ermənilərə hansısa bir yardım etməyibdir. Keçəl çarə qılsa öz başına qılar və əgər Fələstinin ermənilərə göndərəcək silahı olsa, daş ilə tank önünə çıxmaz. Davudun min il əvvəl daş atdığı torpaqlarda fələstinlilər bugün çarəsizlikdən hələ də daş atırlar.

Fikir versəniz görərsiniz ki, İsrailə müxalif olan bütün ölkələri mediamız bizə erməni dostu kimi təqdim edir...



Qeydsiz, şərtsiz hər kəs Fələstinin Qondarma Artsax rejimini müstəqil ölkə kimi tanıdığını düşünür. Əslində isə nəinki Fələstin, dünyanın heç bir ölkəsi, hətta Ermənistanın özü belə Artsaxı müstəqil ölkə kimi tanımır.

Görəsən Fələstinin Ermənistana Qarabağ müharibəsində hərbi yardımlar etdiyini iddia edənlər nə düşünürlər?!... Daşmı göndərib Fələstin ermənilərə?!...

Bəziləri də ASALA erməni terror təşkilatını Fələstinin yaratdığını düşünür. Halbuki 1975-ci ildə ASALA yaranan zaman Fələstin adlı dövlət hələ yaranmamışdı...




Fələstin Azərbaycanda ona görə Ermənistanın dostu kimi göstərilir ki, İsrail öldürdüyü fələstinli müsəlmanlara görə, müsəlman Azərbaycan xalqından nifrət və qəzəb deyil, əhsən alsın və vətənpərvərlik hissi cuşa gələnlər desinlər ki, “onlara nə olursa əccəb olur...”

Bütün bu təbliğatları İsrail Azərbaycanda yaşayan yerli yəhudilərə və saxtakar pantürkçü media qurumlarına etdirir. Allah bu saxtakar tayfanın şərrindən xalqımızı hifz eləsin.

Dünyadakı ən mənfur insanlar öz məqsədlərinə çatmaq üçün şəhidlərin adından istifadə edənlərdir. 30 ildir İsraildən pul alıb, birinci Qarabağ müharibəsində həyatını itirmiş yəhudi Albert Aqarunovun adından istifadə edərək xalqımızda İsrailə qarşı sevgi, Fələstinə qarşı nifrət aşılanır. Halbuki Albertin İsraillə heç bir əlaqəsi yox idi. Albert təmiz azərbaycanlı idi. Azərbaycan ordusunda yəhudi olduğu kimi ruslar da var idi. Həmin rusların içindən milli qəhrəmanlar da çıxdı. Bununla Rusiya bizə qardaşmı olur?

Biz həmçinin unutmamalıyıq ki, Qarabağda həyatını itirmiş fələstinli şəhidimiz də var.



Muhammad Mazen oğlu Eissavi 2002-ci ildə dünyaya gəlmişdir. Bakı şəhəri 76 nömrəli məktəbin məzunudur. Uşaqlığından Cüdo ilə məşğul olmuşdur. 2-ci Qarabağ müharibəsi zamanı Noyabr ayının 9-da şəhadət mərtəbəsinə ucalmışdır. Suraxanı rayonu, Hövsan qəsəbəsi, quşçuluq qəbirstanlığında dəfn edilmişdir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında qarşısına qoyulmuş hərbi tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Muhammad Eissavi ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

İkinci Qarabağ müharibəsi boyunca və müharibədən sonra Qarabağda döyüşən 1 yəhudi əsilli Azərbaycan əsgərinin videolarını pullu reklamlarla tirajlayanlar, bu şəhidin adını belə çəkmədilər. Halbuki bu əsgər müharibənin əvvəl günlərində şəhid olmuşdu. İndi gördünüzmü ki, onlar vətənpərvər yox, sadəcə sionizmə yaltaqlanmaq üçün növbəyə dayananlardır?

Bizimlə onlar arasında fərq bilirsinizmi nədir? Biz Alberti sevirik, onlar isə heç vaxt bu gənci sevməyəcəklər...

İsrail öz işğalını əbədiləşdirmək üçün Qüds məsələsini yalnız Fələstinin problemi kimi təqdim edir və mediadakı bucür şəxslər vasitəsilə dünya müsəlmanlarında fələstinlilərə qarşı düşmənçilik hissi formalaşdırır...

Türkiyədəki millətçilərə “Fələstin ingilislərlə birləşdi və Osmanlıya qarşı vuruşdu” deyir. Beləcə həmin millətçilər “fələstinlilərə nə olursa əccəb olur” deyirlər...

Millətçilər hər vəchlə Osmanlını Əməvi və Abbasilərin davamçısı, türkə aidiyyatı olmayan xilafət və ərəbin işğal maşını adlandırırlar. Amma söydükləri Osmanlıya qarşı bir qrup fələstinli ərəbin azadlıq mübarizəsini əllərində bayraq edərək bugün onlara qarşı edilən zülmə də haqq qazandırırlar...

Bundan daha böyük paradoks isə 500 il boyunca Osmanlıya qarşı döyüşən Səfəvilərin bugünkü varislərinin həmin arqumenti əllərində dəlil tutmalarıdır...

Biz 500 il, fələstinli isə 1 dəfə döyüşüb Osmanlıya qarşı...

Biz necə bir fələstinlinin bugün zülmlə öldürülməsinə “onlar Osmanlıya qarşı döyüşüb, onlara bu da azdır” deyə bilirik?!...

Tutaq ki, fələstinlilər bizim 500 il boyunca etdiyimizi 1 dəfə etməklə səhv ediblər, bəs bunun bugünkü fələstinlilərə nə aidiyyatı var?!...

İnsan 7 arxa dönəninin etdiklərinə görə cavabdehdirmi?!...

Həmin məntiqlə bizi bolşeviklərə satan Atatürkə görə Türkiyə xalqına düşmənmi olmalıyıq?!...

Osmanlı 500 il boyunca bu torpaqlara yürüyüş və işğalçılıq edibsə, bugün bir türk zülmlə öldürüləndə “onlara əccəb olur” deyə bilərikmi?!...

Türkün qulağına “fələstinli sənə qarşı vuruşub” pıçıldayan sionist bizim üçün də başqa havalar çalır...

Asalanı fələstinlilər yaradıb, Fələstin erməniyə silah verir, Prezidentləri erməni keşiş ilə görüşür və s...

Hər gün bir şəkil çıxarır ortaya sionist mediası və deyir ki, bu şəkil Fələstində çəkilib, baxın erməni bayrağı...

Media insanları o qədər yalanlarla aldadıb ki, İsraildə ermənilərə dəstək aksiyalarını görəndə belə "bura İsrail ola bilməz, yüz faiz Fələstindir" deyir camaatımız...

Biz bilirik ki, Fələstin hal-hazırda nə dövlət kimi bir dövlətdir, nə də regionda hansısa söz deyəcək gücə sahibdir. Bir ölkə ki, bütün ərazisi işğal olunub və ölkə başçısı simvolik bir insandır...

Bugün Rusiya daxilində Çeçenistan nədirsə, Fələstin də İsrail daxilində odur! Onların torpağı 70 ildir işğaldadır və çarəsizdirlər. Heç vaxt onlara dəstək olmadıq və indi də sionist təbliğatına uyaraq onlara düşmən deyirik... Yalnız vicdanını itirən insanlar 1 əsrdir əzilən və bombalar altında, qorxu içində yaşayan xalqdan özünə süni düşmən obrazı yaradarlar...

Bir qrup insan söz oyunu oynayaraq ən sonuncu metoda əl atır və deyir ki, 7 min əvvəl yəhudilər həmin torpaqlarda yaşayıblar, ora elə yəhudilərindir, nə edirlərsə düz edirlər...

Həyasızlığa bir bax...

7 min il əvvəl orda yəhudilərin yaşaması bugün fələstinlilərə edilən zülmə haqq qazandırırmı?!...

Ümumiyyətlə bu sözü deyərkən hansı təqvimə və hansı tarixə əsaslanırlar?!...

Bəli biz Qurana iman gətirmişik və Quran dəqiq rəqəm deməsə də həmin əraziləri yəhudilərin gəlib yerli xalqı öldürərək tutduğunu bildirir. Amma bu biz müsəlmanlar üçün mötəbər mənbədir. Siz "tarixçilər" nə zamandan bəri əfsanə adlandırdığınız dini mətnlərdən stat gətirən olmusunuz?!...

Varmı əlinizdə 7 min il əvvəl orda yəhudilərin yaşadığını təsdiq edəcək mötəbər bir tarixi fakt?!...

Ümumiyyətlə 7 min il əvvəl yəhudilik adlı bir dinin olduğuna sübut varmı?!...

Məsələnin bir digər yönü isə bugünün yəhudilərinin həmin 7 min il əvvəl o ərazilərdə yaşayıb dediyiniz yəhudilərlə eyni soydan olmamasıdır. Yəhudilərin öz tarixçiləri də qeyd edirlər ki, hal-hazırda yer üzündə yaşayan yəhudilər İsrailin (Yəqubun) oğlu Yəhudanın soyundan yox, yəhudiliyi sonradan din olaraq qəbul etmiş xəzərlərin soyundandırlar.

Diqqət etsəniz görərsiniz ki, ermənilər də Qarabağ barədə həmin cür iddialar irəli sürür və sübut etməyə çalışırlar ki, biz yox, onlar buranın əsl sahibləridirlər. Biz başımızı öz tarix kitablarımızdan qaldırıb dünyada keçirilən tarix dərsliklərinə nəzər salsaq bu mübarizədə fələstinlilərin sionistlərə uduzduğu kimi "uduzduğumuzu" görərik... Həqiqət nə qədər əksi olsa da ermənilər sionistlər kimi işğal etdikləri torpaqların "qədim sahibləri" olduqlarını dünyaya təlqin edə biliblər.

Unutmayın! Dünyada iki güclü lobbi var-Erməni və Yəhudi lobbisi. Bu lobbilər istədikləri ölkədə xalqın fikrini istədikləri cür manipulyasiya edəcək qədər imkanlara sahibdirlər.

Biz torpağı işğal olunmuş, haqqı tapdalanmış və evindən çıxarılmış sülh göyərçiniyik...

İsrail və Ermənistan isə torpaq işğal edən, haqq tapdalayan və kimsəsizləri evindən çıxaran zülmət yarasalarıdır...

**GÖYƏRÇİN YARASA İLƏ BİR SƏFDƏ UÇARMI?!...**

**Korla görən eynimi?!... Fatir 19**

**Nurla zülmət eynimi?!... Fatir 20**

**Mükafatla cəza eynimi?!... Fatir 21**

**Ölüylə diri eynimi?!... Fatir 22**

Ömer Liman adlı türkiyəli bir vətəndaş bu məsələni sadə cümlələrlə necə də gözəl bəyan edir;

"Filistin davası, maddi hiç getirisi olmayan, ama maddi manada çok kayıp verdiren bir dava. Kan lazım, can lazım. Her şey lazım. Filistin davasına sahip çıkmak için çok fedakar olmak lazım. Hiç bir maddi karşılık beklememek lazım. Çünki, yalnız bir halk, fakir bir halk... Onları desteklemek, destekleyen ülkeye maddi anlamda külfetten, zorluktan, ambargodan başka bir şey getirmez. Filistini desteklemek hiç bir ülkenin maddi çıkarına uygun bir şey değildir. Hatta Filistini desteklemek sadece hiç bir çıkara ulaşamamayı değil, beraberinde maddi anlamda büyük kayıplar vermeyi de gerektirmektedir. Sadece bu davayı desteklerken harcanan maddiyat değil, bu davayı desteklemekten dolayı Amerikan-İsrail emperyalizminin yaptırımlarına maruz kalmak demek, düşmanlıklara, zararlara muhatap olmak demektir. Hal böyle iken hangi ülke Filistin davasını ve Filistin halkını destekler ki? Filistin hem Arap, hem de Sünni bir ülke, Sünni bir halk. Buna rağmen 24 Arap ülkesi, 50-den fazla Sünni İslam ülkesi Amerikanın, İsrail'in korkusundan Filistine destek olmamaktadır. Bazıları da halklarını kandırmak için sözlü destek gösterisi yapan bir kaç riyakar sadece... Ama Şii İran Sünni Filistini 41 yıldır desteklemektedir. 41 kere maşallah. Cephede savaşan Filistinlinin silahı İran'dan, okulda okuyan Filistinli öğrencinin bursu İran'dan, hasta Filistinlinin tedavisi İran'dan, yoksul Filistinin yaşatılması İran'dan. 41 yıldır her türlü küfr ve nifak saldırılarına karşı İslami İran bu halkı ve bu davayı desteklemekten bir an geri kalmadı. Ona göre bir milyarı aşan Sünni Müslümanın İslami İran'a bir vefa borcu yok mudur?..."

Peyğəmbərimiz öz hədislərində müsəlmanları bir bədənə bənzədir. Necə ola bilər ki, bədənin bir əzası kəsilsin, amma insanın canı ağrımasın?!...

Fələstinlilər müsəlman deyilmi?!... Bizdən bir parça deyilmi?!...

"Şimr 1400 il əvvəl öldü, sən bugünün Şimrini tanı. Bugünün Şimri İsraildir! Fələstinə yardım etmək vacibdir, namaz, oruc kimi vacibdir. Allaha and olsun vacibdir!..." Bu sözlər Şəhid Mütəhhərinin sözləridir və o bu sözlərinə görə zindana belə salınmışdı...

Müsəlman olan hər bir kəs Fələstin-İsrail münaqişəsində məsuliyyət daşıyır. Allah məgər hər bir müsəlman üçün xüsusi bir ayə göndərib "Fələstinə kömək et" deməlidir?!... Peyğəmbərin əmrləri bəs etmirmi?!... **Peyğəmbər demirdimi ki, "əgər bir müsəlman digər müsəlmanın -ey müsəlmanlar yardım edin! fəryadını eşitsə və yardım etməsə müsəlman deyil?!...** Peyğəmbərin sözü Allahın sözü deyilmi?!...

**Artıq Rəbbinizdən sizə açıq-aşkar bir dəlil gəlmişdir. Bu "əgər bizə də ayə nazil olsaydı, onlardan daha artıq doğru yolda olardıq" deməməyiniz üçündür...**

**Ənam 15**

**Yalan 5**

**•Hicab kişinin qadına qoyduğu məhdudiyyətdir**




Gəlin əvvəlcə bu sualların üzərində düşünək;

Ümumiyyətlə məhdudiyyət özü nədir?!...

Hicab qadın üçün məhdudiyyətdirsə, hicabsızlıq sərbəstlikmi sayılır?!...

Sərbəstlik özü necə, məhduddur ya qeyri-məhdud?!...

Sərbəstlik özü də məhduddursa, insanlar hicabsızlığı niyə məhdudiyyətsizlik hesab edir?!...

Ümumiyyətlə yer üzündə tam olaraq sərbəstlik mövcuddurmu?!...

***

Məhdud-hüdud, sərhəd, müəyyən çərçivə, qaydalar deməkdir. Əksi isə məhdudiyyətsizlik, sərhədsizlik, çərçivəsizlik, qaydasızlıqdır.

Bu məhdudun lüğəvi mənasıdır. Məhdudiyyət hicab barəsində adətən "qadağa" mənasında işlədilir.

Əksər Azərbaycan ailələrində kişi əsas söz sahibi olduğu üçün hicabın kişilər tərəfindən qadınlara qoyulan məhdudiyyət olduğu düşünülür.

Dünyada isə dini çatdıran ilk şəxsin-yəni peyğəmbərimizin kişi olması nəzərə alınaraq hicabın kişi tərəfindən qadınlara qoyulmuş məhdudiyyət olduğu düşünülür və yaxud bucür təbliğ olunur. İstənilən halda bu təbliğata müştəri olan şəxslər bucür düşünürlər...

Biz hicaba islami bir qayda olaraq baxmasaq belə bu düşüncə sahiblərinə başqa aspektlərdən verəcək cavabımız var.

## GİZLƏDİLƏN İSTƏNİLƏN BİR ŞEY GİZLƏDƏN ŞƏXSİN DİGƏRLƏRİNƏ QOYDUĞU MƏHDUDİYYƏTDİR.

Bu məntiqi bir qaydadır və bədihi anlayışdır. Sübuta ehtiyacı olmayan aksiomdur. Bu qaydaya əsasən hicab kişinin qadına qoyduğu məhdudiyyət yox, qadının kişilərə qoyduğu məhdudiyyət sayılır. Çünki hicab vasitəsilə qadın öz bədənini gizlədir.

***

Ümumiyyətlə yer üzündə qeydsiz-şərtsiz hər kəs örtünür və bədəninin müəyyən bir hissəsini gizlədir. Diqqət etsəniz görərsiniz ki, dünyadakı müzakirə mövzusu örtünüb-örtünməmək deyil, hansı həddə örtünüb-örtünməməkdir.

Burda biri irad edə bilər ki, məsələn soyuqdan qorunmaq üçün də insanlar örtünə bilər...-Əgər insanın örtünməkdə məqsədi soyuqdan qorunmaq olsaydı yay fəslində hər kəs tamamilə lüt gəzməli idi...

Demək ki, örtünmək insanda fitri bir ehtiyacdır.

Örtünmək fitri bir ehtiyacdırsa, miqdarı necə müəyyən olunmalıdır? Hansı həddə örtünməliyik?

İnsan şüuru özü üçün örtünmənin hüdudunu müəyyən etməyə qabildirmi?!...

Əgər biz yer üzünün müxtəlif hissələrində sorğu keçirsək ki, "insan hansı hissələrini örtməlidir?!..." aldığımız cavablar çox fərqli olacaq.

Hətta cəmiyyət üzvlərinin yalnız cinsiyyət üzvlərini örtməklə birlikdə yaşaya biləcəyini düşünən insanlara rast gələcəyik. Bu fərqlilik insan şüurunun örtünməyə hədd təyin edə bilmək bacarığına sahib olmadığını göstərir.

Ümumiyyətlə birdəfəlik bunu başa düşməliyik ki, insan şüuru ümumbəşəri qanun qəbul etməyə qabil yaradılmayıb. Əgər şüur məhsulu yazılan dövlət konstitusiyaları və beynəlxalq qanunlar ümumbəşəri mükəmməlliyə sahib olsaydılar hər sessiyada dəyişikliyə məruz qalmazdılar...

Deməli insan övladı üçün ümumbəşəri bir qanun qoya biləcək yeganə varlıq Allahdır və örtünmənin həddini də Uca Allah müəyyən etməlidir.

***

İndi isə gəlin düşünək ki, insan ümumiyyətlə hansı miqdarda sərbəstdir ki, hicabı məhdudiyyət, hicabsızlığı isə sərbəstlik və azadlıq hesab edir?!...

İnsanın azadlığı, azadlıq məfhumunun özü bir başqa mövzunun müzakirəsidir. Amma qısa olaraq mövzumuza aid olan qədəri budur ki, insan özünü ən sərbəst, çərçivəsiz, azad hiss etdiyi zamanda belə müəyyən çərçivə, qayda və məhdudiyyət içindədir.

Yer üzündə yaşayan və İlahi qanunlar, çərçivələr daxilində hərəkət etməyən, bununla özlərini sərbəst hiss edən insanlar ən azından yaşadıqları dövlətin qanunları çərçivəsində hərəkət etməyə məhkumdurlar.

Sadə bir misal; Malından Allahın təyin etdiyi vacib vergini (kasıblara məxsus xums, zəkat və sədəqə) verməyən və bununla da özünü İlahi vergidən yayınaraq sərbəst hiss edən şəxs dövlətin təyin etdiyi vergini verməyə məcburdur...

Yəni insan İlahi qaydalardan boyun qaçırsa belə, bəşəri qanunlara əməl etməlidir...

Yəni bu və yaxud başqa bir şəkildə yer üzündə tam mənada sərbəstlik mövcud deyil...

Ümumiyyətlə insanın həyatında tam şəkildə azad olduğu bircə saniyəsi belə yoxdur...

Hər kəs məhdudiyyət, qanun və müəyyən qaydalar çərçivəsində yaşamağa məhkumdursa, özü kimi bir qrup insanın yazıb hər sessiyada dəyişdiyi qanunlara hərfiyyən əməl edən insanın özünü azad, onu yaradan Allahın təyin etdiyi qanunlar çərçivəsində yaşayan insanları isə məhkum, qeyri-azad hesab etməsi necə də paradoksaldır...

***

Əziz hicabsız müsəlman bacım! Sən hicabsızlığınla özünü azad, hicab geyinənləri isə məhkum görmə...

Sən əgər azadam deyib tam olaraq çılpaq şəkildə küçəyə çıxsan, hökümətin qanunlarını pozduğun üçün cavab verməli olacaqsan... Çünki əksər ölkələrdə tam çılpaq dolaşmaq ictimai əsayişi pozmaq kimi qəbul edilir...

Sən örtünməyini İlahi meyarlara əsasən təyin etməsən də, sekulyar qaydalara əsasən təyin etməlisən...

Yəni Allah deyən şəkildə örtünməsən, yaşadığın dövlətin parlamentində oturan “X Müəllimin” təyin etdiyi şəkildə örtünməlisən...

Hicablı insanlar isə özləri kimi insanların onlar üçün qoyduğu qaydalara əsasən yox, uca Allahın təyin etdiyi qaydalara əsasən örtünürlər...

İndi yaxşı düşün... Kim daha azaddır?!...

Allahın təyin etdiyi şəkildə örtünənlər, yoxsa özü kimi bir insanın təyin etdiyi şəkildə örtünənlər?!...

***

Səni yaradan və hər bir ehtiyacından xəbərdar olan Allahın qoyduğu qaydalar çərçivəsində yaşamaq daha yaxşıdır, yoxsa özünün dünyaya nə üçün gəldiyini belə dərk etməyən və heç bir İlahi səlahiyyəti olmadığı halda sənin üçün qaydalar yazan bir qrup insanın?!...

**“İnsanların içərisində Allahdan qeyrilərini Allaha şərik qoşan və onlara Allah kimi məhəbbət göstərənlər vardır... Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir. Əgər özlərinə zülm edənlərin görəcəkləri əzabdan xəbərləri olsaydı, bütün qüdrətin Allaha məxsus olduğunu qəbul edərdilər...”**

**Bəqərə 165**

**Yalan 6**

**•İslam dini hakimiyyətə gəlsə geridəqalmışlıq hökm sürəcək**




Biz həyatın əksər sahələrində peşələrin ixtisaslara uyğun şəkildə paylandığını müşahidə etməkdəyik;

Baytarlıq təhsili olanlar heyvanları müalicə edir, rejissorlar film çəkir, müğənnilər mahnı oxuyur, hərbiçilər səngərdə durur və s...

İndi gəlin əksini fərz edək;

Baytarlar film çəkir, rejissorlar səngərdə durur, hərbiçilər mahnı oxuyur və müğənnilər heyvanları müalicə edirlər...

Xəyalımızdan belə keçirə bilmədiyimiz bu hal cəmiyyəti nə hala salar?!...

Bəs görəsən cəmiyyəti idarə etmək məsələsi bugün dünyada ixtisasa uyğun paylanıbmı?!...

Bu iş üçün seçilməli olan adamın kritetiyaları hansılardır?!...

Ümumiyyətlə cəmiyyətə rəhbərlik etmək ixtisası varmı?!...

Hər bir peşə ixtisas əsasında paylanılırsa bu işdə niyə ixtisas olmur?!...

Bugün dünyada 35 yaşını tamam etmiş istənilən ali təhsilli şəxsin cəmiyyəti idarə etmək üçün namizəd ola biləcəyini görməkdəyik.

Görəsən necə olur ki, 20 nəfər uşağa müəllimlik etmək üçün bir insan 11 il məktəb, 4 il bu ixtisas üzrə institut bitirməli və bundan sonra hələ müəllimlik imtahanından da keçməlidir, amma milyonlarla insanı idarə etmək peşəsinə, ixtisası idarəçilik olmayan, 35 yaşını bitirmiş hər kəs gəlib namizəd ola bilir?!...

Yaxud 50 il əvvəl atalarımıza rəhbərlik etmiş bir şəxsin oğlu, sırf onun oğlu olduğu üçün niyə bizə də rəhbərlik etməlidir?!...

Tutaq ki, 50 il əvvəl onun atasını bizim atalarımız seçib. Bu onun oğlunu da bizim üzərimizdə hakim edirmi?!

Necə olur ki, Amerika kimi demokratiyadan dəm vuran ölkələrdə ata və oğul, ər və arvad növbə ilə xalqa rəhbərlik edirlər?!...

Gördüyünüz kimi müasir dünyada heç bir quruluş, ideologiya və məktəb verdiyimiz bu sualları cavablayacaq məntiqə sahib deyil. Biz şüur və məntiqimizlə onların yüz illər boyunca ortaya qoya bildiyi bütün ideologiyasını palçıq edərək divara çırpırıq...

İndi isə gəlin məsələyə islami yöndən baxaq. Biz müsəlmanıq və inancımızın gərəyi olaraq idarəçilikdə yalnız Allahın nazil etdiyi qanunları əsas götürməliyik. Çünki Allah Qurani-Kərimdə **Onun nazil etdiyi ilə hökm etməyənləri zalım və kafir adlandırır. (Maidə 44)**

Bəs görəsən islama görə bu işi ən mükəmməl şəkildə kim yerinə yetirə bilər?!...

**Nisa surəsinin 59-cu ayəsində** Allah idarəçilik edəcək olan şəxsin kriteriyalarını açıqlayır;

**"Ey iman gətirənlər! Allaha, peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!"**

Bu ayə xüsusi şəxslər barədə və xüsusi şəraitdə nazil olsa da, hökmü ümumidir və biz ayədən bütün islam məzhəblərinin qəbul etdiyi ümumi 3 qayda çıxaracağıq. Bu qaydalar Allahın əmr etdiyi şəkildə rəhbərlik edəcək olan şəxsin göstəriciləri və kriteriyalarıdır;

1-"Aranızdan olan" ibarəsi islama iman gətirmiş bir topluma rəhbərlik edəcək olan şəxsin yalnız müsəlman ola biləcəyini əmr edir. Qıraqdan gələn heç bir müstəmləkəçi, missioner aramıza daxil olaraq biz müsəlmanlara rəhbərlik edə bilməz. Buna baş əyməyi və işğal altında yaşamağı Allah qadağan edib. Yəni Allah zülm və işğalı qadağan etdiyi kimi, zülm və işğala razı olmağı da

qadağan edib. Allah üçün zülm edənlə zülmə razı olan şəxs tərəzidə eynidir. Bu birinci məna; Müsəlmanlara qeyri-müsəlman biri rəhbərlik edə bilməz!

2-Ayədə 3 qrupa itaət eyni dərəcədə vacib edilmişdir: Allah, peyğəmbər və amir (bizdən olan əmr sahibi). Amma ortada bir sıralama var və bu sıralamada ilk növbədə Allah gəlir. Yəni amir Allahın Qurani-Kərimdə qoyduğu qaydalarla hökm etdiyi müddətcə ona itaət olunmalıdır. Demək ayədən əldə etdiyimiz ikinci məna müsəlmanların yalnız Allahın kitabı əsasında hökm etmələri və qurduqları hökümətə rəhbərlik edəcək olan şəxsin ilk növbədə Qurani-Kərim əsasında hakimlik etməli olduğudur. Yəni ki, islam heç bir sekulyar sistemi və həmin sistemin başındakı şəxsin hakimiyyətini qanuni hesab etmir.

3-Ayədə Allahdan sonra peyğəmbərin adı gəlir. Bu isə amirin Allahın kitabı ilə yanaşı peyğəmbərin sünnəsinə də uyğun şəkildə rəhbərlik etməli olduğunu göstərir. Çünki Allahın nəzəri əmr və qadağalarının keyfiyyəti, yəni necəliyi praktikada Həzrəti Rəsulun hakimiyyəti zamanında özünü göstərmişdir.

Bizim bu ayədən aldığımız 3 məna bütün islami məzhəblərin fiqhinə uyğundur və biz bu mənaları müxtəlif məzhəblərin təfsirlərinə müraciət edərək əldə etdiyimiz üçün deyə bilərik ki, istənilən bir müsəlmanın əqidəsi və dünyaya baxışı bu ayəyə uyğun şəkildə formalaşmalıdır...

İndi isə məsələnin praktikada icraatı barədə danışaq. Allahın kitabı və peyğəmbərin sünnəsini idarəçilikdə tətbiq edəcək olan şəxs ilk növbədə Allahın kitabı və peyğəmbər sünnəsini cəmiyyətdə hər kəsdən daha yaxşı bilən biri olmalıdır. İslamda bu şəxsə fəqih deyilir. Yəni dünyada mövcud olmayan və yalnız islamda mövcud olan idarəçilik ixtisasına ən peşəkar olan şəxs fəqihdir.

Biz məqalənin əvvəlində də qeyd etdik ki, sekulyar cəmiyyətlərdə 35 yaşını tamamlamış istənilən ixtisas sahibi idarəçiliyə namizəd ola bilər. İndi isə sizə sual veririk; Siz dalağınızı bir kinorejissorun əməliyyat etməsinə razı olarsınızmı?!..

Əlbəttə ki, xeyr...

Balaca bir orqanınızı həvalə etmədiyiniz bu şəxsə bütün ölkəni necə həvalə edirsiniz?!...

Fəqih kimi idarəçilik ixtisası olmayan şəxslərin idarəçiliyə namizəd olması nə qədər "məntiqlidir"?!...

Bu məsələnin namizəd tərəfi.

Bir də məsələnin seçici tərəfi var.

İstənilən bir sahənin rəhbərliyini yalnız həmin sahənin mütəxəssisləri seçə bilərlər. Bu sadə bir aksiomdur...

Siz yol ilə gedirsiniz və bir müxbir əlində mikrofon sizə yaxınlaşaraq ölkənizdəki ən güclü astronomiya üzrə ixtisaslı 20 nəfərin adını sayır, sonra isə hansının daha peşəkar olduğunu soruşur. Nə cavab verərsiniz?!...

Burda veriləsi heç bir cavab yoxdur. Sən bu elm sahəsindən xəbərsiz, sadə bir insansan. Həmin 10 astronomdan hansının daha güclü kadr olduğunu necə bilə bilərsən?!...

Kiçik bir sahə üzrə mütəxəssisi seçə bilməyən sənə, 18 yaşına çatanda milyonlarla insanın idarəçiliyinə ən güclü kadrın seçilməsi hüququ verilir... Bəs bu nə qədər məntiqlidir?!... Necə olur

ki, hər sahə üzrə ən güclü kadrın seçilməsi həmin sahənin mütəxəssislərinə həvalə edilir, amma bütün bir topluma rəhbərlik üçün seçiləcək olan şəxsi burun-boğaz həkimi olan biri gəlib seçir?!...

Deməк ki, hansı fəqihin idarəçiliyə seçilməsinə də fiqhdə ixtisası olan mütəxəssislər, yəni fəqihlər qərar verməlidir.

Biz bütün mühazirəmizi əvvəlcə məntiq və sonra bütün məzhəblərin qəbul etdiyi Qurani-Kərim ayələri əsasında qurduq. Bu məqalə həmçinin bütün müsəlmanlara rəhbərlik edəcək olan şəxsin Xibrəqan fəqihləri tərəfindən necə təyin edilə biləcəyi sualına da cavab idi.

İndi isə yenidən mövzunun əvvəlinə qayıdıb "islam gəlsə geridəqalmış mollalar xalqı idarə edəcəklər" düşüncəsində olanlar üçün bir neçə qeydlər edəcəyik ki, geridəqalmış kəlməsini bir də dillərinə gətirməsinlər;

ABŞ-ın Times jurnalı İslam hökümətinin lideri barədə yazır;

Dünyanın harasında görülüb ki, 79 yaşlı lider təkbaşına dağa çıxa?!...

İran lideri döyüş meydanında qalma müddəti ilə rekord qırmışdır (8 il).

İranın 79 yaşlı lideri cəmiyyətin az təminatlı üzvü kimi həyat sürür. Ən maraqlısı isə öz övladlarını dövlət işlərindən kənarda tutur.

İranın 79 yaşlı lideri 29 ildir tufanlara məruz qalan bir ölkəni elə idarə edir ki, Orta Asiyada ən təhlükəsiz regiona çevrilib.

İranın 79 yaşlı lideri təkrara yol verməmək şərti ilə xalqı üçün 3 saat söhbət edir, hətta bir qurtum su içmədən!

İranın 79 yaşlı lideri bir ultimatı ilə başqa bir ölkənin kralını təşvişə salır.

İranın 79 yaşlı lideri belnəlxalq məsələləri və dünyanın gələcək siyasətini proqnozlaşdırır.

***

Ayətullah Xamenei həmçinin 1000-dən çox bədii roman oxumuş yeganə liderdir.

-İranın sabiq mədəniyyət və islami irşad naziri, hazırda Londonda yaşayan Ətaullah Mohacerani yazır ki, Livanın sabiq mədəniyyət naziri ilə dostluğum var idi. O, mənə bildirmişdi ki, vaxtıyla Livanda birinci dəfə Baş Nazir postuna gələndə Səid Həririnin başçılığı ilə İrana səfər etmişdik. Səid Həriri demişdi ki, Ayətullah Xamenei ilə görüşdə İranın Livan siyasətini tənqid edəcəm. Görüş başlayan kimi, Ayətullah Xamenei Səid Həririni bağrına basıb, ürəkdən salamlaşdı. Sözə başlayan Ayətullah Xamenei Livanın gözəlliyindən danışıb Səid Həriridən soruşdu ki, siz "Rotterdamlı Qozbel" (The Hunchback Of Notredame) romanını oxumusunuz? Səid Həriri də başını yellədi ki, bilinməsin oxuyub yoxsa oxumayıb! Ayətullah Xamenei tez əlavə elədi ki, o kitabda təsvir olunan gözəl xanım ki, hamı ona sahib olmaq istəyir məhz Livandır və siz gərək Livanı qoruyasınız. Səid Həriri də təsdiqlədi. Görüş qurtarandan sonra Həriridən soruşdum ki, bəs nəyə Ayətullah Xameneini tənqid etmədin? Dedi: Görmədin görüşü necə idarə etdi? Heç tənqidə yer qaldı ki?!...

***

-Tehran Universitetinin Siyasət və Hüquq Elmləri Fakultəsinin müəllimi yazır: Dostlarımın biri ilə əziz rəhbərim Ayətullah Xameneinin görüşünə getmişdim. Ayətullah Xamenei söhbət əsnasında soruşdu ki, "Bütün sülhləri bada verən sülh" (Osmanlı dövlətinin yıxılmasına aid kitabdır) kitabının fars dilində tərcüməsini oxumusunuz? Təəccübləndim ki, bu kitab hələ yenicə Fars dilinə tərcümə olunub. Necə olub ki, Ayətullah Xamenei bu kitabı belə tezliklə oxuyub?!...

***

-İSNA Agentliyinin Tehranın kitab sərgisində verdiyi reportajında belə bir qeyd var; Ayətullah Xamenei Nilufər nəşriyyatının kitablarına baxanda, məşhur tərcüməçi Əbülhəsən Nəcəfinin tərcümə etdiyi 4 cildlik "Tibu Ailəsi" adlı romanı çox təriflədi və Nəcəfiyə Allahdan rəhmət diləyib, dedi: "Vaxtıyla mərhum Nəcəfi və ədəbiyyat aləminin bəzi fəalları mənimlə görüşə gəlmişdilər. Ağayi Nəcəfi ilə "Tibu Ailəsi" kitabından danışanda təəccübləndi ki, mən də o kitabın adını bilirəm. Təəccüblə soruşdu ki, kitabın hər dörd cildini həqiqətən oxumuşam?...

***

Bugün islam ölkəsi;

-Minlərlə km məsafəyə uçan raketlər istehsal edir.

-Kosmosa peyk göndərir.

-Uran zənginləşdirilməsinin tam dövriyyəsini əldə edib.

-Dünyada şəxsi avtomobilini istehsal edən az saylı ölkələrdəndir.

-Ölkədəki avtomobil ehtiyacının 95%-i daxili istehsalat hesabına ödənilir.

-Nano texnologiyalar üzrə dünyada 4-cü pillədədir.

-Ölkənin Nobel alan fizikləri var.

-Yazıb-oxuma göstəricisi 99%-dir.

-Təhsil tamamilə pulsuzdur və s...

***

Nəinki avtomobil, heç kibrit çöpü belə istehsal edə bilməyənlər kimə geridəqalmış deyirlər görəsən?!...

**De! Bizim qarşımıza çıxara biləcək bir elminiz varmı?!...**

**Ənam 148**

## Yalan 7

**•Mən nə sünnüyəm, nə şiə, əsl müsəlmanam...**




Sosial şəbəkələrdə tez-tez rastlaşdığımız, xüsusən partiya rəhbərlərinin, elm xadimlərinin, məmur və digər tanınmış, yaxud tanınmaq fikrinə düşmüş insanların istifadə etdiyi bu ibarə əslində məna etibarı ilə "mən nə sünnü əqidəsindəyəm, nə də şiə, bəli müsəlmanam, amma əqidəsiz müsəlmanam" deməkdir...

Çünki islam dinində iki ənənəvi əqidə mövcuddur-Şiə və Sünnü əqidəsi. Müsəlman isə Allaha və əmrlərinə təslim olan deməkdir. İlahi əmrlərə itaət, dini ritualların icrası bu iki məzhəbdən birindən kənar deyil və ikisindən birinə uyğun şəkildə həyata keçirilir.

Bunlardan heç birinə uyğun şəkildə edilməyən dini ritual üçüncü bir məzhəb ortaya çıxarır ki, bu da "mən nə sünnüyəm, nə də şiə, islamı parçalamayın" deyən adamın 2 yerə bölünmüş islamı 3-cü yerə bölərək daha da parçaladığını göstərir.

Yəni ki, təqdim olunan iki variantdan birini seçməyib, 3-cü variant axtaran şəxs əslində daha çox bölünmənin əsasını qoymuş olur.

Gedilən yol sağa və sola olmaqla iki yerə ayrılıb və sən bölünməyə etiraz olaraq nə sağa, nə də sola dönmədiyini deyib, hərəkəti davam etdirdiyini iddia edirsənsə bu sənin üçüncü bir yola qədəm qoyduğunu göstərir. Getdiyin üçüncü yol bölünməyə etdiyin etirazla paradoks təşkil edir.

Həmçinin "Mən nə qadınam, nə kişi, mən insanam..." demək nə qədər mənasız bir sözdürsə, müsəlman olduğunu iddia edib, əməllərinin heç bir əqidəyə uyğun olmadığını bildirmək də o cür mənasız bir sözdür.

İnsanlar əqli yollarla sahib olduqları əqidələrinə uyğun şəkildə yaşayaraq, təbliğ etməkdə azaddırlar. Bu islami nəzərdir.

Sekulyar quruluşlarda isə insanlar əqli şəkildə yiyələnmədikləri əqidələrini belə təbliğ etməkdə azaddırlar. Məsələn bir nəfər inəkpərəst olduğunu izhar edə, buna uyğun olaraq inək əti yeməyə və öz ideologiyasını təbliğ edə bilər.

Amma bir insan sünnü, yaxud şiə olduğunu dilinə gətirdikdə, əqidəsinə uyğun dini rituallarını icra etdikdə və ən əsası ideologiyasını təbliğ etdikdə olur məzhəbçi və "islamı bölmə", "məzhəbçilik etmə" kimi sözlər eşidir.

Bugün istər dini camiədə, istərsə də ümumi cəmiyyət içində sahib olduğu sünnü, yaxud şiə əqidəsinin tələblərinə uyğun şəkildə davranan, geyinən, ayinlər icra edən və ən əsası öz əqidəsini izhar edərək təbliğ edən heç bir kəsə "islamı bölmə", "sünnü-şiə söhbəti salma" və s. demək ixtiyarımız yoxdur.

Əqidəsinin tələblərinə uyğun olaraq davranış sərgiləyən insan "islamı bölmüş", "məzhəbçilik etmiş" hesab olunmur. Bu onun insani və dini hüququdur.

Yaradılışımızda qadın və kişi olaraq iki cinsə bölündüyümüz kimi, dində də iki hissəyə bölünmə baş verib. Bu bölgünü biz aparmamışıq ki, hansısa birini seçməklə də islamı parçalamış, yaxud da məzhəbçilik etmiş olaq...

Bir insanın kişi yaxud qadın olduğunu dilinə gətirməsi digər cinsi təhqir etməsi, yaxud aşağılaması mənasına gəlmədiyi kimi, islamdakı iki ənənəvi əqidədən birinə sahib olduğunu dilinə gətirməklə də kimsə məzhəbçilik etmiş olmur.

**Bəs məzhəbçilik nədir?**

Biz məzhəbçilik barədə danışarkən ilk növbədə bunu bilməliyik ki, tarixdə bizlərə sünnü-şiə müharibəsi şəklində təqdim olunan bütün müharibələr tərəflərdən ən azı birinin mal-dövlət hərisliyi üstündə baş verib. Sanki zorla sünnülər və şiələr bineyi-qədimdən düşmən imiş düşüncəsi formalaşdırılmağa çalışılıb daim.

Hər iki məzhəb islamın ən qədim və köklü məzhəbidir və yaşı min ildən çoxdur. Bütün digər sonradan yaranan məzhəblər özlərini bu iki məzhəbdən birinə aid etməklə ayaqda saxlamağa çalışır.

Bu iki məzhəbin ana xəttində sonradan yaranma məzhəblərdəki kimi təkfirçi ruhiyyə yoxdur ki, nümayəndələri arasında da xaos, münaqişə yaşansın.

Bəs xəbərlərdə göstərilən məzhəbçiliyi edənlər kimlərdir?

-Qərb, imperialistlər, sionistlər və onların aramıza saldıqları nökərləri və yuxarıda qeyd etdiyimiz “islamı bölməyin” deyərək həqiqətdə islamı bölənlər.

Qibləmiz, kitabımız, Allahımız bir olduğu halda hansı sünnü şiəyə qarşı və şiə sünnüyə qarşı düşmənçilik edər?!...

Amerika İraqda vurduğu bütün sivil şiə bölgələrini sünnülər bombaladı deyirdi. Sünnüləri öldürəndə isə şiələr etdi deyirdi. Sünnülər şiələrə və şiələr sünnülərə düşmən idisə, bu hadisələr Amerika İraqa gəlməmişdən əvvəl niyə baş vermirdi?!...

Niyə Amerikanın namübarək qədəmləri İraqa dəyməzdən öncə sünnülər şiələri və şiələr sünnüləri toplu şəkildə qanına qəltan etmirdilər?!...

Ümumiyyətlə terror anlayışı qərbin ayağı şərqə dəyməmişdən əvvəl niyə yox idi?!...

Gəlin bir-bir analiz edərək düşünək, görək həqiqətənmi bu xaos, münaqişələrin kökündə şiə-sünnü məsələsi dayanır, yoxsa məsələ bizlərə o cür təqdim olunur?!...

Həqiqətənmi Səudiyyə sünnü təəssübünə görə şiə Yəməni bombalayır?!...

Bəs Səudiyyə sünnü Fələstin, sünnü Bəşər Əsədə niyə düşməndir?!...

Həqiqətənmi İraq və digər ərəb dövlətləri 1979-cu ildə sünnü olduqları üçün şiə İrana hücum etmişdilər?!...

Bəs 79-dan əvvəl niyə İran şahının əlini öpürdülər?!... İran 79-cu ilə qədər şiə deyildimi?!...

Həqiqətənmi Şah İsmayıl sünnü olduğu üçün Yavuz Səlimlə döyüşürdü?!..

Bəs Yavuz Səlimin sünnü ailə üzvlərinə niyə sarayında yer vermişdi və pənahında saxlayırdı?!... Yaxud Şahımız Astarada min ildir yaşayan və hələ də sünnü təriqətində olan talışlara niyə toxunmamışdı?!...

Bizlərə sünnü-şiə davası kimi göstərilən bütün münaqişələrin kökündə siyasi, maddi və s. amillər dayanır.

Dünyanın bütün müstəqil araşdırmaçı və tarixçiləri Osmanlı-Səfəvi müharibələrinə iki imperiya arasındakı qüdrət savaşı kimi baxır, amma hansısa qruplar zorla bu müharibəni bizə sünnü-şiə müharibəsi kimi təqdim etməyə çalışırlar...

Amerikanın Mərkəzi Kəşfiyyat İdarəsinin (CIA) keçmiş zabiti Michael Scheuer müsahibələrinin birində belə deyir; “Bizə lazım olan şey odur ki, sünnülər şiələri öldürsünlər...”

Mərhum İmam necə də gözəl demişdi; “Siz əli açıq, yaxud əli bağlı namaz qılmaq müzakirəsi apararkən, düşmənlər o əlləri necə kəsməyin planını cızırlar...

Baxın əziz müsəlmanlar, Allah insanları rəngli yaradaraq fərqləndirib, cinslərini müxtəlif xəlq edib. Sonradan millətlərə bölüb. Daha sonra dinlər nazil edib. Bizi zəif və güclü, batil və haqq, kafir və müsəlman olaraq dəstələrə ayırıb. Bu İlahi yaradılışdan gələn bölgülərdir. Bəli, Allah yəhudilik, xristianlıq və islam adlı 3 din yox, bütün peyğəmbərlərə haqq olan bir din nazil edib-

Tövhid. Amma artıq bölünmə baş verib və bu bölünmədən sonra Allah Özü də bizi bölünməni birləşdirməyə yox, haqq olanı seçməyə çağırır. İnsanlar nəfslərinə uyaraq Allahın kəlamını təhrif ediblərsə, biz bunu dəyişə bilmərik. Yeganə vəzifəmiz haqqın cərgəsində dayanmaqdır.

Bugün artıq niyə sünnü var, niyə şiə var sualı niyə insanlar ağ və qaradır, niyə biz qadın və kişi olaraq iki cinsdə yaranmışıq və s. suallarına bənzəyir.

Kərbəlanın ortasında, Aşura günü dünyaya göz açan insanın yeganə vəzifəsi səfini, mövqeyini bəlli etməkdir. Ya Yezidin qoşunundasan, ya da Hüseynin. Orta yol yoxdur. Vəziyyət necə oldu ki, gəldi bura çıxdı, zamanı geri qaytaraq, Üməyyə və Haşimin problemin həll edək, biraz da geriyə qayıdıb Habil ilə Qabili barışdıraq və s. bunlar mənasız söhbətlərdir... Allahın bizdən yeganə tələbi əqidəmizi əqlani dəlillər əsasında təyin etməyimizdir. Quran buyurur;

**O kəslər ki, sözlərə qulaq asıb onların ən yaxşısına tabe olarlar... Allahın hidayət etdiyi kəslər onlardır. Ağıl sahibləri də məhz onlardır...**

**Zümər 18**

## Yalan 8

## •Bütöv və böyük Azərbaycan

**Biz "Bütöv Azərbaycan" deyəndə Səfəvi imperiyasının sahib olduğu əraziləri nəzərdə tuturuqsa, xəritədə qeyd edilən bütün ölkələrə ərazi iddiası etməliyik...**




1-Rusiya
2-Gürcüstan
3-Azərbaycan
4-Ermənistan
5-Türkiyə

6-Suriya
7-İraq
8-Küveyt
9-Özbəkistan

10-Tacikistan
11-Türkmənistan
12-İran
13-Əfqanıstan
14-Pakistan

**Bütöv Azərbaycan yoxsa həqiqi islamla düşmənçilik?!...**

Mövzuya keçməmişdən əvvəl bunu qeyd edək ki, biz Səfəvi imperiyasına daxil olan bu siyahıdakı ölkələrdən biriyik, bugün Səfəvi kimi digər imperiyaların hamısı dağılıb, ölkələr öz beynəlxalq sərhədlərini müəyyən edib, bu sərhədlərin qorunması üçün müəyyən öhdəliklər götürüb və kimsə başqa ölkənin sərhədlərini poza bilməz! Yəni 16-cı əsrdə yaşamırıq...

İndi isə gəlin "Qərib cinlər diyarında" filmindəki cinlərin yaşadığı diyara səfər edək və onların düşüncələri ilə tanış olaraq, nə istədiklərini anlamağa çalışaq...

Əvvəlcə bu aləmin bəzi qaydaları ilə tanış olaq;

1-Bu aləmdə heç bir təhsil və savada malik olmamaq ilk şərtdir…

2-Özünü mağarada imişsən kimi aparmalısan...

3-Sənin kimi düşünməyən hər kəs ermənidir...

4-Burda zibil atmağa getdiyin yol belə Təbrizdən keçir...

5-Nəinki özünü, hətta yazılarını belə Türkiyəyə buraxmayan Atatürk burda Rəsulzadə ilə bütün şəkillərdə birlikdədir...

6-Burda türk olub olmamaq mühüm deyil, əsas türkəm deməkdir. Çünki bu aləmin şüarının özü belə "nə mutlu türk olana" deyil, "nə mutlu türkəm deyənə"-dir!

7-Burda bütün söhbətlər "canavar yeganə heyvandır ki..." cümləsi ilə başlayır...

8-Bu aləmdə ariyan farslarla hay ermənilər eyni irqdən hesab olunur...

9-Burda vətənpərvərliyin ilk şərti həyatın boyu görmədiyin farsları söyməkdir...

10-Bu aləmdə istənilən bir adamın şəkilini "həbs edilən güneyli soydaşımız" kimi paylaşa bilərsən.

11-Burda ümumbəşəri islam, ərəbin dinidir, monqollara xas olan şamanizm və tenqrizm isə milli din hesab olunur.

12-Soyadın nə formada olursa olsun sonuna "soy" hissəciyi artırmalısan.

13-Kiməsə xitab edərkən bəy, son qəbul edilən qaydalara əsasən "paşa" demək vacibdir...

14-Ordumuzun istifadə etdiyi "aypara əməliyyatına"-"hilal taktiği" deməsən fars tulası sayıla bilərsən.

15-Bayramlarda əsla kiməsə mübarək sözündən istifadə edərək təbrik yaza bilməzsən, "qutlu olsun" deməlisən.

16-Mənasını başa düşmədiyin hərfləri yazaraq bu bizim "əsgi əlifbamızdır" deməlisən. Əsgi əvəzinə qədim sözünü işlətmək qadağandır, baxmayaraq ki, əsgi Azərbaycan dilində "tryapka" və digər daha murdal mənalar verir.

17-İran barədə istənilən paylaşımın altına "40 milyon soydaşımız ana dilində təhsildən məhrumdur" yazmalısan. Amma öz ölkəndə ana dilində təhsil tələb edən hər kəs sənin üçün vətən xaini sayılmalıdır.

18-Bu aləmdə bütün kürdlərə "PKK terrorçusu" yaxud "Barzani çocuğu" deməlisən.

19-İranda asılan, həbs edilən istənilən bir kəs sənin "güneyli soydaşın", sərhəddən narkotika keçirərkən həbs olunanlar isə "iranlı"-DIR!

20-İranda verilən türkcə təhsili latın hərfləri ilə tədris etmədikləri üçün "ana dilində təhsil" hesab etməməlisən. Latın hərfləri ilə türk dilinin heç bir əlaqəsi olmasa belə...

İndi isə bu cinlər diyarında yaşayan ultra patriotların istəkləri ilə tanış olaq. Bu dırnaqarası vətənpərvərlər Böyük Azərbaycan desələr də İrandan savayı heç bir ölkəyə ərazi iddiası etmirlər. Məsələn hər birimiz bilirik ki, Qars, Iğıdır, Diyarbəkir vaxtilə Səfəvilərin olub və Osmanlı tərəfindən işğal olunub, amma bu patriotcuqlar həmin ərazilərin adını çəkənlərə belə xain gözü ilə baxırlar. Əlbəttə ki, bunların kiməsə olan baxışı heç bir əhəmiyyət kəsb eləmir. Bu zavallı tayfanın nümayəndələri dünya şöhrətli porno ulduzları belə güneyli soydaşımız adı ilə paylaşıb, onlara bacı gözü ilə baxırlar. Biz sadəcə onların manqurtlaşdırılaraq nə hala salındıqlarını izah etməyə çalışırıq.

Onların yalnız İrana ərazi iddia etməsi onu göstərir ki, əsas dərdləri Azərbaycan, vətən yox İrandır...

İndi maraqlı bir sual ortaya çıxır. Bəs İranda İslam İnqilabı olmamışdan əvvəl niyə o ərazilərə torpaq iddiası edən və "Bütöv Azərbaycan" quran yox idi?!...

Deməк ki, problem İranla da deyil. İranın adının kənarındakı İslam kəlməsi ilədir.

Bir sual daha ortaya çıxır: Hansı İslam?!...

Axı Pakistan da İslam ölkəsidir və bu super-ultra patriotların "Böyük Azərbaycan" xəritəsinə əsasən torpaqlarımızın bir hissəsi də onlardadır. Niyə Pakistana ərazi iddiası edən yoxdur bəs?!... Əksinə hər tərəfi bu meqa-super-ultra patriotlar Pakistan bayrağı ilə bəzəyiblər...

Deməli düşmənçilik sadə islamla da yox, həqiqi və kamil islamladır...

Bunu biz demirik, peyğəmbərimiz vilayət barədə xəbəri çatdırdıqdan sonra Allah ona buyurdu;

**"Bugün dininizi kamil etdim və sizə olan nemətimi tamamladım..." Maidə 3**

Yəni islam vilayət olmadan kamil yox, naqisdir və bugün Vilayət əqidəsində olan tək ölkə İrandır! İranla düşmənçiliyin əsl səbəbi də onların həqiqi islam xəttində olmalarıdır...

## Yalan 9

### •Yəhudilər dünyanın ən ağıllı millətidir



# Həqiqətənmi yəhudilərin dünyadakı ən ağıllı millət olduqlarını düşünürsünüz?!...

Əvvəlcə bunu qeyd edək ki, yəhudi adlı bir millət yoxdur, yəhudi dini var. Belə bir millət necə ola bilər ki, bir yapon iudaizm dinini qəbul etdikdə yəhudi hesab olunur?!...

Məgər həmin yapon dinini dəyişməklə millətini də dəyişmiş olur?!... Əsla. O elə yapon olaraq qalır.

Demək ki, yəhudi dini var və bu dinin ardıcıllarına yəhudi deyilir. Yəni yəhudi milləti adlı bir millət yer üzündə mövcud deyil. Çünki millət gen və soy ilə ötürülür, din qəbul etməklə yox.

İndi isə gəlin düşünək; Yer üzündə hər hansı bir millət digər millətlərdən daha ağıllı hesab oluna bilərmi?

Cavab: Bəli. Əksəriyyəti eyni rəng alan topluma ümumilikdə həmin rəngi şamil etmək olar və istisnalar da ümuma xələ gətirməz. Məsələn əfqan və çeçenlər döyüşkən, farslar şeirə meylli, çinlilər zəhmətkeş, ingilislər isə hiyləgərdir...

Amma ağıl məsələsi bu sadalananlar qədər səthi məsələ deyil və biz bu barədə biraz dərindən araşdırma aparmalıyıq.

Əvvəlcə qeyd edək ki, ağıl və savad fərqli anlayışlardır. Savadlı, lakin ağılsız insanlar var və ağıllı, lakin savadsız insanlar da var. Ağıla qısa tərif vermək istəsək Quranın dili ilə "haqqı batildən ayıran nur", "yaxşı və pisi ayırd edə bilən furqan" və s. deyə bilərik. Savada sahib olmaqla ağıla sahib olmaq yolları da fərqlidir. Savad çalışıb elmə yiyələnməklə, ağıl isə günahlardan uzaqlaşmaqla əldə edilir.

Allahın etdikləri günahların çoxluğu və ağırlığı səbəbindən lənət oxuduğu bir firqə barəsində isə bu kəlmə əsla işlənə bilməz.

**Allah Maidə surəsinin 64-cü ayəsində buyurur; "Yəhudilər Allaha iftira atdılar və lənətə gəldilər. Quran onların bir çoxunun küfrünü və azğınlığını artırır. Onlar yer üzündə fitnə-fəsad törətməyə çalışarlar. Allah isə fitnə-fəsad törədənləri sevməz..."**

Burda bəzi insanları bir sual maraqlandırır. "Allah niyə görə öz yaratdığı bəndələrini lənətləyir?"

Ayədən göründüyü kimi, Allah yəhudiləri yəhudi olduqları üçün lənətləmir, digər bütün insanlara nisbətdə daha azğın olduqları üçün lənətləyir... Allah yəhudiləri çox iftira atdıqları üçün lənətləyir.... Allah yəhudiləri yer üzündə fitnə-fəsad törətdikləri üçün lənətləyir...

Tarixə nəzər salan hər kəs yəhudilərin tarix boyu dünyanın bütün məntəqələrindən yerli xalqlar tərəfindən qovulduqlarını açıq-aydın görər. Maraqlısı isə budur ki, yəhudilər tarix boyu müsəlmanlar tərəfindən yox, daha çox müsəlman olmayan xalqlar tərəfindən olduqları yerlərdən qovulublar. Müsəlmanlar isə daim bu millətə rəhm edib və qucaq açıb. Əziyyət, zülm verməyiblər. Çünki digər millətlərdən fərqli olaraq müsəlman millətlər islamın buyurduğu tərzdə yəhudilərlə rəftar ediblər. **Allah həmin ayənin ardınca buyurur; "Əgər iman gətirsələr və pis əməllərdən çəkinsələr, Allah onların günahlarının üstünü örtər və cənnətə daxil edər" (Maidə 65)**

İslamın göstərişləri və islamın özü həqiqətən bütün ideologiyaların fövqündədir. Görün necə mərhəmətli şəkildə Allah bu azğın firqə ilə rəftar edir və onları yer üzündə alçaq işlərdən uzaq durmağa səsləyir...

Beləliklə "Yəhudilər dünyanın ən ağıllı millətidir..." ibarəsindəki millət məsələsinə, sonra isə ağıl məsələsinə izah verdik və müəyyən etdik ki, yəhudi adlı bir millət yoxdur və ağıl günahlardan paklanan insanlara xas bir sifətdir. Yəhudilər barədə işlənə bilməz...

Biz bu ibarəni dilə gətirənlərin əslində "İsrail ən irəli getmiş ölkədir" demək istədiklərini də yaxşı bilirik.

Müqəddimə olaraq onların ifadə tərzindəki yalnışlıqları bəyan etməklə fikirlərini ifadə edəcək qədər savada belə malik olmayan bir toplum olduqlarını üzlərinə vurmaq istədik.

İndi isə nəzərdə tutduqları fikirlərinə cavab verəcəyik;

1.İsrail dünyanın ən irəli getmiş ölkəsi deyil.

2.İsrail ümumiyyətlə bir ölkə deyil, aparteid və sionist rejimdir.

3.İsrail yəhudi dinini təmsil edən idarəçiliyə sahib deyil.

4.İsrail bütünlükdə yəhudi xalqını da təmsil etmir və ortodoks yəhudilər bu rejimi məşru hesab etmirlər.

5.İsrail BMT tərəfindən rəsmi olaraq işğalçı kimi tanınıb və işğalçılıq heç bir halda dəstəklənə bilməz.

Bu məqamda hər kəsin beynində yaranmış bir sual da var; Bəs Quranda adı keçən "Bəni İsrail" adlı millət haradadır?!...

Bugün İsraildə yaşayan və özünə yəhudi deyən sionistlərin neçə min il əvvəl orda yaşadığı iddia olunan Bəni-İsrail ilə heç bir əlaqəsi yoxdur. Bu haqda Şəhid Mütəhhərinin məşhur xütbəsi də var.

Yəhudilər irsi atadan yox, anadan alırlar. Onların "məntiqi" ilə əksər Osmanlı sultanları da yəhudidir. Çünki anaları yəhudi olub. Yəni bugün özünə yəhudi deyib Yəqubun oğlu Yahudanın nəslindən gəldiyini iddia edənlərin özləri belə irsi atadan aldıqlarını iddia etmirlər. Soy və genin atadan yox, anadan ötürülməsi isə yalnız və yalnız yəhudilər üçün məqbuldur.

Həmçinin istənilən millətə mənsub olan bir qadının yəhudiliyi qəbulundan sonra doğduğu uşaq da yəhudi sayıldığı üçün bugünün yəhudilərinin Bəni-İsrail ilə heç bir əlaqəsi qalmır. Bu barədə məşhur britaniyalı yazıçı, tədqiqatçı, jurnalist Artur Köstner (milliyyətcə yəhudidir) öz məşhur əsəri olan "13-cü şəcərə: Xəzər imperiyasının süqutu və onun varisləri" kitabında yazır:

**"On iki yəhudi şəcərisinə daha biri əlavə olundu. Bu xəzərlər idi, hansı ki, etnik olaraq onların yəhudilərlə heç bir əlaqəsi yox idi."**

Daha sonra o, qeyd edir: **"Bu gün yəhudilərin demək olar ki, hamısı xəzər mənşəlidirlər, onların əcdadları heç də İordan, Xanaandan deyil, Volqa sahillərindən və Qafqazdandırlar."**

Bu barədə L.Qumilyovun, Mixail Artamonovun (o, SSRİ-də xəzərşünaslığın əsasını qoyub, eləcə də dünyanın ən məşhur xəzərlər haqqında araşdırma aparan tədqiqatçılarından biridir), Piter Qoldenin, Svetlana Pletnovanın xəzərlərin tarixi ilə bağlı yazdıqları sanballı əsərlərə də göz ata bilərsiniz.

Kiçik bir qeyd; Kimlərsə tarixdəki hansısa, fizik, ixtiraçı, kimyagər, yazıçı və alimin etnik mənsubiyyətini önə çəkərək "bax belə adamlar ancaq yəhudilərdən çıxır" deyə bilər. Amma yəhudi deyiləm alimlərin hər biri barədə ayrıca araşdırma aparsaq onların yəhudi inancına sahib olmadığını və yalnız etnik cəhətdən yəhudi hesab olunduqlarını görərik. Yəhudi bildiyimiz alimlərin demək olar ki, hamısı ateist, ən yaxşı halda deist olublar. Biz məqalənin əvvəlində isə yəhudiliyin etnik mənsubiyyətlə ötürülmədiyini izah etmişdik. Qısa şəkildə fikrimizi cəmləşdirərək bunu deyə bilərik ki, yəhudilər anası yəhudi olan ixtiraçı, fizik, alim və digər tanınmış şəxslərə yəhudidir deməklə özlərini üstün irq kimi göstərməyə çalışırlar.

Bu (bütün millətləri "Qoi"-heyvan, özlərini isə onların sahibi bilmələri) sionist inancının əsasını təşkil edir.

Allah isə bu axmaq inanca sahib olanların özlərini heyvan adlandıraraq buyurur;

**Tövrat gəzdirənlərin misalı, kitab yüklənmiş eşşəyin misalıdır. Allah zalım qövmü əsla doğru yola yönəltməz...**

**Cümə 5**

**Yalan 10**

**• Difai türkçü təşkilat idi**



Bir erməni millətçisi ikinci Qarabağ müharibəsi zamanı öz müsahibəsində tez-tez təkrar edirdi ki, Azərbaycan ordusunda İran əsgərləri döyüşür. Eyni sözü Azərbaycandakı millətçilər Ermənistan barədə daim təkrarlayır və deyirlər ki, Ermənistan ordusunda iranlılar döyüşür...

Hər iki ölkənin millətçilərinin eyni sözü təkrarlaması onu göstərir ki, dünyadakı, ən azı Qafqazdakı millətçilər eyni döşdən "süt əmirlər"...

Biz millətçilərin media vasitəsilə idarə olunduğunu, medianın İsrailin əlində olduğunu və həmçinin İsrailin ən böyük düşməninin də İran olduğunu bilirik. Deməli bu böhtanlar İsrail tərəfindən yayılır...

Azərbaycanda yaşayan pantürkçülər bugün olduğu kimi tariximizin bütün dövrlərində də xarici ölkələr üçün maşalıq funksiyasını yerinə yetirmiş və xalqın ən çətin günlərində belə öz mənfur əməllərindən əl çəkməmişlər. Asayiş zamanı vətən-vətən deyən bu ultra patriotlar müharibə zamanı həmişə yoxa çıxmış, ən "yaxşı" halda qarışıqlıqdan istifadə edərək soyğunçuluqla məşğul olmuşlar. Birinci Qarabağ savaşında bozqurdçu İsgəndər Həmidovun öz quldur dəstəsi ilə regionlarda törətdiyi oğurluqları yaşlı nəsil görüb və bilir.

Özlərinə vətənpərvər deyən bu tayfanın lideri Elçibəy, Ağdamın müdafiəsində dayanan batalyonları Gəncədə Sürət Hüseynovun üstünə göndərdikdən sonra, məğlubiyyətini görüb, Kələkiyə qaçması ilə davamçılarına öz maraq və mənfəətləri üçün hər bir yola əl ata biləcəkləri xəttini "əmanət" qoydu... Əslində xalqı çətin vəziyyətdə qoyaraq qaçmaq yolunu Elçibəyin özü üçün ilk hamarlayan şəxsin özü də pis örnəkdir.

Azərbaycan tarixinin bütün dövrlərində xainliklə adlarını tarixə yazdıran pantürkçülər xəyanətlərinin yaratdığı kompleks ilə özlərini ağa çıxarmaq üçün bir tarix axtarmış və nəhayət "DİFAİ" tarixini tapmışlar. Onlar xalqın Difai barədə bilgisizliyindən istifadə edərək Difaini millətçi bir təşkilat kimi təbliğ edir və Azərbaycan tarixində millətçilərin də fəxrlə yad etdikləri bir tarixlərinin olması ilə özlərinə təsəlli verirlər...

Əsas siması başı əmmaməli bir molla olan və adı ərəbcə yazılan bir təşkilatı xalqa türkçü bir təşkilat kimi təqdim etmək necə də axmaqcadır. Amma əfsus ki, xalq da buna aldanıbdır...

İnsanlara aldandıqlarını başa salmaq çox çətin bir işdir, aldatmaq isə çox asan...

Biz çətin və müqəddəs olanı seçərək həqiqətləri yazırıq. Gerisi isə Allaha təvəkkül;

Zaqafqaziya şeyxülislamı Məhəmməd Əli oğlu Pişnamazzadə 15 may 1853-cü ildə dünyaya gəlmişdir.

O "Məktəbül-Xeyriyyə"(1900-cü il), yeni tipli "Üsuli-Cədid" (1909-cu il) məktəblərinin təssisçisi, "DİFAİ" hərəkatının rəhbəri olub. 1932-ci ildə vəfat edib.

Ruhani ailəsində dünyaya göz açan Axund Məhəmməd Pişnamazzadə ilk təhsilini Gəncə mədrəsəsində aldıqdan sonra ali ruhani təhsil almaq üçün Təbrizə göndərilmişdir. Təbrizdə Ali Ruhani təhsili aldıqdan sonra 1883-cü ildə təhsilini başa vuraraq Tiflisə gəlmişdir.

80-ci illərin sonunda Məhəmməd Pişnamazzadə aktiv təhsil fəaliyyəti ilə məşğul idi. Ətrafında ziyalıları, elm adamlarını və dindarları toplamışdı. Bütün bu əməllər çar məmurlarının diqqətindən yayınmırdı, Pişnamazzadənin fəaliyyəti onları narahat edirdi. 1892-ci ildə Gəncə Cümə məscidinə baş molla təyin olunan Məhəmməd Pişnamazzadə qısa müddət ərzində savadlı və bacarıqlı ruhani kimi böyük hörmət qazanmış, bir il sonra Tiflis Vilayət Ruhani Məclisinin üzvü seçilmişdir. O, Tiflisdə ruhani xadim kimi tanındıqdan sonra 1895-ci ildə Gəncə Vilayət Ruhani Məclisinin sədri təyin olunmuşdur.

1900-cü ilin Dekabrında tərəqqipərvər əməlinə və maarifçilik fəaliyyətinə görə təqib olunan Axund Molla Məhəmməd Pişnamazzadənin evində polis tərəfindən axtarış aparılır. Bəhanə olaraq səbəb gətirilir ki, guya Türkiyə və İran hökumətləri ilə əlaqə saxlayan axund Qafqazda Rusiyaya qarşı təxribat hazırlayır və hökumətə qarşı əks-təbliğat aparır. Bu yersiz ittihamlar əsasında Axund Məhəmməd Pişnamazzadə və onunla birlikdə 37 nəfər azərbaycanlı ziyalı "qiyama hazırlıq" bəhanəsilə həbs edilir. (1.1.1909-ci il, Şura jurnalı 534 )

Axund Molla Məhəmməd Pişnamazzadə əzilən müsəlmanların, haqqları tapdalanan insanların ədalət mübarizəsinin önündə gedirdi. Hər gün Azərbaycanın müxtəlif məkanlarında vəhşiləşmiş ermənilər azərbaycanlılara qarşı insanlığa zidd əməllər icra edirdilər. Bir tərəfdən Çar məmurları buna göz yumur, digər tərəfdən onlara yardımçı olurdular. Axund Molla Məhəmməd Pişnamazzadə kimi din xadimlərimiz bunlara göz yuma bilməzdilər. Din qeyrətləri onları sərt addımlar atmağa vadar edirdi.

1905-1906–ci illərdə ermənilərin simasızlığı qarşısında güc göstərə biləcək əsas şəhərlərdən biri Gəncə idi. Gəncədə bu işlərə Ələkbər bəy Rəfibəyli ilə Axund Molla Məhəmməd Pişnamazzadə rəhbərlik edirdi. Həmin dövrdə Gəncədə gizli formada Difai adlı partiya təsis etmişdilər. Partiyanin rəhbərliyində Axund Molla Məhəmməd Pişnamazzadə, Ələkbər bəy Rəfibəyli, Ələsgər və Ələkbər bəy Xasməmmədovlar qardaşları (hər ikisi hüquqşunas), Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, Mirzə Məhəmməd Axundov, Nağı Şeyxzamanlı və s. var idi. Bu partiyanin Gəncə şöbəsinin (o vaxt Yelizavetpol şöbəsi gedirdi) rəhbəri rəsmi sənədlərdə bəzən Ələkbər bəy Rəfibəyli, bəzən də Axund Molla Məhəmməd Pişnamazzadə qeyd olunur. Bunun səbəbi partiyanın gizli formada fəaliyyət göstərməsi ilə bağlıdır.

Difai partiyası müsəlmanların, azərbaycanlıların, çar məmurları tərəfindən əzilən məzlum insanların qisasını alan intiqamçı bir təşkilat idi.

Axund Molla Məhəmməd Pişnamazzadə Difai partiyasının qətlləri həyata keçirən bölməsinin əsas siması idi. Çunki bütün qətllər Şəriətə uyğun olaraq, özlərinin dini baxışlarına görə həyata keçirilirdi.

Gəncə Qubernatorunun müşaviri Kreçiniskinin, Qarabağda diviziya komandiri olmuş və sonradan Tiflisdə Bilal adlı Difai fədaisi tərəfidən qətlə yetirilən Kalasçapovun, Molla Hadı kimi Difai haqqında Çar məmurlarına casusluq edən şəxslərin öldürülməsi İslama uyğun olaraq əsaslandırılmalı idi.

Axund Molla Məhəmməd Pişnamazzadə ilə birlikdə bu işlərdə Mirzə Məhəmməd Axundzadə (Difainin sənəd işlərinə baxan şəxs. Difainin möhürü də onda idi, qətllərdən sonra üzərində Difainin möhürü olan braşuralar yayılırdı), Həmid bəy Yusifbəyli, Ələsgər bəy Xasməmmədov əsas şəxslər saylırdı. Çar polis məmurları bu 4 şəxsin evində axtarış aparıb, idealoji ədəbiyyat və müxtəlif sənədlər aşkar edirlər. Hamısını sürgünə göndərirlər, Axund Molla Məhəmməd Pişnamazzadə ikinci dəfə sürgün həyatı yaşamağa məcbur olur.

Difainin fəal və aktiv nümayyəndələri həbs olunub, sürgünə göndərildikdən sonra onun fəaliyyəti zəifləyir, qətllər dayanır. 1908-ci ilin sonunda Difainin rəhbər şəxslərinin həbsi, müxtəlif yerlərə sürgünə göndərilməsi cəmiyyətə qorxu salır, amma Difai yarımçıq da olsa öz məqsədinə çatır. Ermənilərin və onlara dəstək olan Çar məmurlarının həddini aşmaması üçün müəyyən işlərə imza atılır.

Bütün bu işlərdə Ələkbər bəy Rəfibəyli, Mirzə Məhəmməd Axundzadə, Kərim bəy Mehmandarov, Əhməd bəy Ağaoğlu, Həmid bəy Yusifbəyli, Nəsib bəy Yusifbəyli, Ələkbər və Ələsgər Xasməmmədov qardaşları, Həsən bəy Ağayev, Bala Məşədi, Sarı Ələkbər, Tatoğlu Qara, Dəli Alı, Qarabağlı Bilal kimi şəxslərin böyük zəhmətləri olmuşdur.

Axund Molla Məhəmməd Pişnamazzadə evində aşkarlanan sənədlərə, kitablara və bütünlükdə fəaliyyətinə görə Kazana sürgün olunur. Sürgündə olduğu müddətdə yenə də faəliyyətindən qalmır. Həştərxanda nəşr olunan "Həmiyyət", "Günəş", "Burhani-tərəqqi" kimi qəzetlərdə məqalələrlə çıxış edir, müsəlmanların təhsilə yiyələnmələrinin vacibliyindən xüsusi söhbətlər açır.

1909-cu ilə kimi Axund Molla Məhəmməd Pişnamazzadə sürgündə olur və həmin ili Tiflisə gəlir, yaxın qohumu şəkili Fərəculla Pişnamazzadə Zaqafqaziya Şiə Ruhani idarəsində işləyirdi, onun köməkliyi ilə 1909-cu il İyun ayının 20-də Qafqaz Müsəlmanları Şiə Ruhani İdarəsinin üzvü seçilir. Bu vaxt Şeyxülislam Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvi vəzifəsindən istefa verir. Həmin vəzifəyə Qafqazda və Rusiya müsəlmanları arasında yüksək hörmətə sahib Axund Molla Məhəmməd Pişnamazzadə müvvəqəti olaraq təyin edilir. O 1909-cu ildən 1915-ci ilə kimi müvəqqəti olaraq həmin vəzifəni icra edir.

1914-cü ildə Tiflisə gələn Çar II Nikolay həm şiə müsəlmanlarının lideri Şeyxülislam vəzifəsini icra edən Axund Molla Məhəmməd Pişnamazzadə ilə, həm də sünni müsəlmanlarının lideri Müfti Hüseyn Əfəndi Qayıbovla görüşmüş, onların çıxışlarını dinləmiş və onların simasında bütün müsəlmanları salamlamışdı. Bir il sonra, yəni 1915-ci ilin yanvarın 14-də Daxili İşlər İdarəsinin təqdimatına əsasən İmperator II Nikolay tərəfindən Axund Molla Məhəmməd Pişnamazzadə Zaqafqaziya Şiə Ruhani İdarəsinin sədri və Zaqafqaziya şeyxülislamı vəzifəsinə rəsmən təsdiqlənir.

Həmin gündən artıq O rəsmən Qafqazın Şeyxülislamı statusunu alır. Həmin zamanlarda Osmanlı Dövləti dünya müharibəsinə qoşulur, bu hadisə Şüyxülislam olaraq Axund Molla Məhəmməd Pişnamazzadəni narahat edir. 1915-ci ildə Türkiyənin Ərdəhan və Qars mahallarında gedən döyüşlər nəticəsində hər iki valideynini itirmiş kimsəsiz uşaqların qayğısına qalmaq məqsədi ilə Qafqaz Şeyxülislamı Axund Məhəmməd Pişnamazzadənin "Son xəbər" qəzetinin 1915-ci il 7-ci nömrəsində bir elanı dərc olunur. Şeyxülislam müsəlmanlardan xahiş edirdi ki, bu il orucluq bayramında Qafqaz müsəlmanları fitrə-sədəqələrini başqa yerə verməyib ruhani və qazılar vasitəsilə Tiflisə göndərsinlər. Toplanacaq bu fitrə-sədəqələr hesabına Tiflisdə "Yetimlər evi" açılacaq, orada Ərdəhan və Qars döyüşləri nəticəsində hər iki valideynini itirən uşaqlar saxlanılacaq, onlara təlim-tərbiyə veriləcəkdir. Şeyxülislamın təklifi müsəlmanlar tərəfindən razılıqla qarşılanır. Hətta Axund Molla Məhəmməd Pişnamazzadə Əhməd Cavadla birlikdə qapı-qapı gəzərək onlara varlıların evində yer edirdilər (Ə. İsayev "Gəncə və Gəncəlilər" səh.377). (Bu hadisə bu gün də Gəncədə bir çox insanların xatirəsində yaşayır.)

Şeyx Sovet dönəmində yenidən həbs edilmiş, sonra azad edilərək ömrünün son gününə qədər nəzarət altında saxlanılmışdır.

Bu Difai tarixi idi. Gördüyünüz kimi burada millətçilik, pantürkçülük, irqçiliklə bağlı heç nə yoxdur... Amma əfsus ki, cəmiyyətə Difai kəlməsi türkçülüklə bir təbliğ olunub...

**Allah Qurani-Kərimdə buyurur;**

**Haqqa batil donu geydirməyin!...**

**Bəqərə 42**

## Yalan 11

**• ADR müstəqil dövlət olub**




Bakıya səfəri zamanı İran

şahını ingilis hərbçiləri qarşılayır...

ADR hökuməti 16 Noyabrda General Thomsona “ingilis ordu birliklərini qəbul etmək və Bakıda yerləşdirmək üçün bütün addımların atıldığını” məruzə etdikdən sonra 17 Noyabr günü ingilis qüvvələrinin Azərbaycana girməsinə heç bir problem qalmadı.

Hökümət bu qərarı gizli iclasda qəbul etmişdi və 17 Noyabr səhəri bütün vətəndaşlarımızı ingilis ordusunu “dostanə” bir şəkildə qəbul etməyə çağırdı...

Amma General Thomson vəziyyətin əleylərinə dəyişəcəyi ehtimalını nəzərə alaraq İngiltərənin İranda işğal edilən ərazilərə polis nəzarəti rəisi Col Cockerell’i də Bakıya dəvət etdi.

Col Cockerell ingilis müstəmləkə maşınının aparıcı “sürücülərindən” və müstəmləkə edilmiş ərazilərə təyin edilən xüsusi nəzarətçilərindən idi...

Bakı limanına daxil olan ordunun tərkibində 800 nəfəri hind olmaqla 1800 ingilis əsgəri, həmçinin fransız və amerikan nümayəndələri də var idi. Ordunu ADR hökümət rəsmiləri qəbul etdi.

Mərasimdə çıxış edən Xarici İşlər Nazirinin birinci müavini Adil Xan Ziyadxanov Azərbaycan xalqı adından belə dedi;

"Qədim mədəniyyətə sahib Avropa millətlərinin uca və müqəddəs hədəflər naminə xalqımızı da öz aralarına qəbul edəcəklərinə sarsılmaz şəkildə ümid bəsləyirik..."

Cavabında isə ingilis generalı belə cavab verdi;

**"İngilis, fransız və amerikan müttəfiq qüvvələrinin nümayəndəsi və komandanı olaraq sizi təbrik edirəm. Osmanlı ilə bağlanan müqaviləyə əsasən türk ordusundan nəzarəti təhvil aldığımızı bildirirəm..."**

İngiltərə höküməti ilk gündən etibarən Abşeron petrol yataqlarının ingilis əsgərləri nəzarətində olacağını açıqladı. Bütün Azərbaycan vətəndaşlarına petrol rezervlərinə 16 km radiusdan yaxınlaşmaq qadağan idi.

Həmçinin yalnız ingilislər kimisə siyasi məhbus kimi həbs edə və hər hansı bir qəzetin nəşrini dayandıra bilərdilər.

İngilislər Bakıya ayaq basdıqdan 3 ay sonra, 27 Fevral 1919-cu ildə fahişəxanaların açılması və fahişəliyin leqallaşdırılması barədə qanun da qəbul etdilər...

Uca Allah Qurani-Kərimdə buyurur;

**Sən yəhudi və xristianlara tabe olmayınca, onlar heç vaxt səndən razı qalmayacaqlar. De: «Həqiqətən, hidayət yalnız Allahın hidayətidir». Əgər sənə gələn bu xəbərdarlıqdan sonra, onların nəfsi istəklərinə tabe olsan, Allah tərəfindən sənə əsla bir yardımçı və başçı olmayacaqdır...**

**Bəqərə 120**

## Yalan 12

**• İran heç vaxt kafirlərlə vuruşmayıb yalanı**



**Ayətullah Cənnəti 400 nəfərlik əsgər heyəti və silah-sursatla Bosniyada**

Sosial şəbəkələrdə illərdir türkçülərin ortaya atdığı bir məsələ var; “İran həmişə müsəlmanlara qarşı vuruşub, heç vaxt kafirlərə qarşı vuruşmayıb”...

Türkçülərin bu sözləri deməkdə məqsədi “Osmanlı həmişə kafirlərə qarşı vuruşub, islamı yayıb, İran isə daim müsəlmanlarla müharibə aparıb” fikrini təbliğ etməkdir.

Əslində bunu türkçülərin deməsi çox absurddur. Çünki islam dini Türkiyəyə elə İrandan yayılıb. Bunu Türk tarixçisi İlber Ortaylı öz müsahibəsində bəyan edir...

İkinci bir məsələ bundan ibarətdir ki, İranın tarix boyu ətrafındakı ölkələrin əksəri müsəlman dövlətlər olmuşdur. İran kafir ölkələrə birbaşa hücum etmək üçün birinci növbədə həmin müsəlman ölkələrini işğal etməli idi...

İran heç vaxt kafirlərlə müharibə aparmayıb deyənlər, Türkmənçay-Gülüstan müqaviləsində Rusiya və İranın Azərbaycanı aralarında bölərək ikiyə ayırdığını iddia edən həmin tarixdən bixəbər insanlardır ki, onlar Qacarların 30 il Rusiyaya qarşı döyüşdüyünü və məğlub olaraq Arazdan yuxarı ərazilərini itirdiyini də bilmirlər. Bəlkə də bilirlər...

İran həmişə müsəlmanlarla vuruşub deyənlərin dillərində əzbərə çevrilmiş iki müharibə adı var; "Çaldıran" və "İran-İraq müharibəsi". Onlar tez-tez bu müharibələri misal göstərərək İranın müsəlmanları qırdığını iddia edirlər. Tarix oxuyanlar isə bilir ki, İran hər iki müharibədə hücum edən yox, müdafiə olunan tərəf olmuşdur...

İslam inqilabından sonra İranın birbaşa və dolayı yollarla kafirlərə qarşı apardığı mübarizələr isə göz qabağındadır.

Bosniyada serblərə qarşı Ayətullah Cənnətinin başçılığı altında döyüşən yüzlərlə iranlı buna misaldır. Hər il İranın Bosniyadakı səfirliyi Bosniya dövlət rəsmiləri ilə birlikdə iranlı şəhidlərin qəbrlərini ziyarət edirlər...

Qarabağda General Mənsur Həqiqətpur, General Rəhim Nuyi Əqdəm və General İsmayıl Qaani rəhbərliyi altında Azərbaycan ordusuna ermənilərə qarşı hərbi təlimlər keçmiş iranlı əsgərlərin video görüntüləri də başqa bir misaldır...

Amerikanın Türkiyədəki İncirlik hərbi bazasından istifadə edərək İraqı işğal edib, 1 milyon müsəlmanı qətlə yetirdiyi zaman İran yeganə ölkə idi ki, Muktəda Sədrin Mehdi ordusuna hər cür yardımlar edirdi. Sədrin Amerika ordusuna qarşı döyüşdüyü Vadiüs-Səlam qəbristanında bugün də Kərbəla zəvvarlarına həmin döyüş zamanı uçurulan qəbir və məscidlər nümayiş olunur. Kandaliza Rays həmin illərdə bu barədə çıxış etmiş və Mehdi ordusunun İran tərəfindən təşkilatlandığını da aşkar şəkildə bildirmişdi...

İranın Suriyada müxtəlif müqavimət qrupları yaradaraq Amerikaya qarşı mübarizə apardığının hər birimiz şahidiyik.

Həmçinin bugün İslam dünyasının parlaq günəşi olan Hizbullah kafir və sionist rejim olan İsrailə qarşı döyüşür və apardığı bütün əməliyyatlardan qalib ayrılır. Hizbullahın baş katibi Seyyid Həsən Nəsrullah isə açıq-aşkar bildirir ki, bu təşkilatın rəhbəri İRANDIR və SEYYİD ƏLİ XAMENEİDİR!

Bütün bunları görmək üçün insanda sadəcə vicdan olmalıdır. Amma əfsus ki, insanların əksəri qazandıqları günahlar səbəbindən həqiqətləri görmək qabiliyyətlərini itiriblər. Bu barədə Allah buyurur;

**"Biz insanların əksərini cəhənnəm üçün yaratdıq. Çünki onların qəlbi olsa da, anlamazlar. Gözləri olsa da görməzlər. Qulaqları olsa da eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də daha aşağı..."**

**Əraf 179**

## Yalan 13

### • Hacı Zeynalabdin Tağıyevin Pakistana yardımı




SSRİ-nin dağılma səbəblərindən biri bu quruluşun insanlardakı din ehtiyacını ödəyə bilməməsi olmuşdur. Bu ehtiyac təbiidir və hər kəs bu ehtiyacla doğulur, yaşayır və ölür.

Din amili cəmiyyətin idarəçiliyində çox mühüm bir məsələdir və bu amili göz ardı edən bütün ideoloji sistemlər məhvə məhkumdur.

Əhalisinin mütləq əksəriyyəti müsəlman olan Azərbaycan xalqının dini rituallara, müqəddas ziyarətgahlara və islami kimliyə sahib olan digər müsəlman xalqlara meyli də təbiidir. Bu meyli maksimum dərəcədə İrandan kənarlaşdırmaq üçün sionizmin oynadığı oyunlardan biri də İrana alternativ bir islam ölkəsini Azərbaycanda təbliğ etməkdir.

Əvvəlcədən bunu qeyd edək ki, pakistanlılar, yəni urdu-zəban millətlər farslar ilə eyni soy-kökə malik millətdirlər. Amma biz pakistanlıları Allahın “müsəlmanlar qardaşdır” ayəsinə əsasən özümüzə qardaş bilirik. Lakin bizi farspərəst, farsları isə özlərinə düşmən görən türkçülərin bizi pakistanlılara düşmən, özlərini isə dost görmələri də həyatın bir başqa paradoksudur.

Bizim Pakistan xalqına qarşı heç bir mənfi düşüncəmiz yoxdur. Amma bugün bütün sionist medialarının Pakistanı müxtəlif yalan və dezinformasiyalarla təbliğ etməsi bizə bunun arxasında bir hiylə olduğunu deməyə əsas verir.

Gəlin bu hiylələri bir-bir aşkar edək.

Birinci məsələ Xocalı faciəsidir. Pantürkist, Turançı, İslamafob, Sionist və hətta idman səhifələrinin belə durmadan tirajladığı bir mövzudur bu; PAKİSTAN XOCALINI SOYQIRIM KİMİ TANIYIR, AMMA İRAN TANIMIR.

Dünya ölkələrinin soyqırım tanıma mexanizmi bu yöndə qurulub ki, məsələ əvvəlcə ölkə KİV-ləri tərəfindən cəmiyyətdə müzakirəyə çıxarılır, xalqın fikri öyrənilir, parlamentdə qaldırılır, səsvermə keçirilir, təsdiq olunur yaxud olunmur. Bəzən bu proses on illər çəkir. Bəs Pakistan Xocalı Soyqırımını necə və nə vaxt tanıyıb?!... 2012-ci ildə. Parlamentdə bir qərar çıxarılıb, vəssəlam. Maraqlıdır, bu ölkə 1992-ci ildə baş verən hadisəyə 20 il boyunca niyə 1 dəfə reaksiya verməyib?!... Ümumiyyətlə necə olur ki, Xocalını soyqırım kimi tanıyan ölkələrin hamısı 2012-2014 illəri aralığında tanıyıb? Bu suala cavab verməyi sizin öhdənizə buraxırıq...

Əlavə olaraq bunu da qeyd edək ki, Xocalını Türkiyə başda olmaqla heç bir türk ölkəsi də tanımayıb...

İkinci məsələ Pakistanın Ermənistanı ölkə kimi tanımaması məsələsidir.

**PAKİSTAN ƏSL İSLAM ÖLKƏSİDİR, ÇÜNKİ ERMƏNİSTANI ÖLKƏ KİMİ TANIMIR, AMMA İRAN TANIYIR...**

Əvvəla islami kimlik hansısa ölkələri tanıyıb, tanımamaqla təyin olunmur... Pakistan bizim ölkə kimi tanıdığımız Ermənistanı bizə görəmi ölkə kimi tanımır?!... Bu nə absurd düşüncədir?!...

Ermənistan və Azərbaycan arasında münaqişə Dağlıq Qarabağ üstündədir. Ermənistan da Pakistanın özü kimi bir ölkədir. Ermənistanı tanımamaq nə deməkdir?!...

Tibbdə yaralı əzanı kəsib atmaq ən asan yol, müalicə etmək isə uzun və çətin məsələ sayılır. Azərbaycan və Ermənistan arasındakı müharibə və münaqişələrdə Azərbaycana nə hərbi, nə maddi, nə də başqa cür dəstək verməyib, Ermənistanı ümumiyyətlə tanımamaq tibbdəki yaralı əzanı kəsməkdir. Sən tanısan da, tanımasan da bu ölkə var və bizim torpağımızın bir hissəsini işğal edib. İşğal və işğalçı ilə mübarizə aparmaq əvəzinə tanımıram deyib kənarda durmaq bizə dəstək deyil.

İnsan bəzən düşünür ki, bəlkə də Pakistan Ermənistanı sözün əsl mənasında tanımır, heç bilmir ki, belə bir ölkə var və müsəlman Azərbaycan xalqının torpaqlarını işğal edərək, xalqına zülm edib... Yoxsa necə ola bilər ki, 90-larda 4 il boyunca gedən bir müharibəyə Pakistan heç bir reaksiya verməyə?!...

Yoxsa necə ola bilər ki, 20 il sonra deyə ki, Xocalı soyqırımı olub və biz bunun olduğunu qəbul edirik...

“BƏLİ OLUB...” deməkdən qeyri nə məna daşıyır soyqırımı tanımaq? Niyə tələsiblər görəsən? Bir 20 il də keçərdi və biz “ermənilərlə yenidən bir süfrə arxasında şərab içəndə” tanıyardılar gərək...

Məsələnin əsli bilirsinizmi nədən ibarətdir? Ermənistan Kəşmiri Pakistanın yox, Hindistanın ərazisi kimi tanıdığı üçün Pakistan ümumiyyətlə Ermənistanın özünü tanımır. Yəni bunun bizə heç bir aidiyyatı yoxdur... Necə ki, sənin Binə Hava Limanından şəhərə gələn asfaltdan istifadə etməyin və o yolun sənin üçün çəkildiyini düşünməyin, həmin asfaltın ölkəmizə gələn turistlər üçün çəkildiyi həqiqətini dəyişdirmir...

Üçüncü məsələ Pakistanda 100 MİN “əli tüfəngli” insanın Qarabağda döyüşmək üçün hazır gözləməsi və Pakistan ordusunun ordumuzla HƏRBİ TƏLİM keçməsi məsələsidir.

Əvvəla bu 100 min “əli tüfəngli” insanın içindən bir nəfər niyə görə bizə çətin gündə dəstək olmayıb? Qarabağda əfqanlar döyüşəndə bu 100 min “əli tüfəngli” insan nə edirdi? Əlləri tüfəng tutmurdumu?!...

Həmçinin ordumuzla təlim keçən Pakistan Rusiya və “tanımadığı” Ermənistanla da hərbi təlimlər keçir...

Dördüncü məsələ Pakistanın bayrağında Türkiyə-Azərbaycan bayrağında olduğu kimi AY-ULDUZ olması və bununla da bizləri tarixi köklərin bağlaması məsələsidir. ...

Görəsən bunu iddia edənlər həmin ay-ulduzdan Tunis, Malayziya, Əlcəzair və Sinqapurun da bayrağında olduğunu bilirlərmi?!...

Pakistan barədə sionist mediasının əl atdığı bu çürük metodlar əfsus ki, ruhən çürümüş insanlar üzərində böyük təsirə malikdir... Ruhən tənəzzül etmiş və günahlar içində çabalayan insanların haqq ilə batili ayıra bilməsi qeyri-mümkündür.

Haqqı görə bilməyin yeganə yolu insanın təqvalı olmasında, yəni günahlardan çəkinməsindədir. Allah Quranda buyurur;

**Təqvalı olun ki, Allah sizə Furqan (haqqı batildən ayırmaq bacarığı) versin...**

**Ənfal 29**

Bütün bu fırıldaqların paralelində bir fırıldaq və hiylə də var ki, bu ən çox təbliğ olunanı və insanların inandığıdır.

Bu fırıldaq rəhmətlik Hacı Zeynalabdin Tağıyevin Pakistana yardım etməsi və buna görə Pakistan xalqının özlərini bizə borclu hiss etməsi məsələsidir. Hətta iddia olunur ki, onlar bunu orta məktəb dərsliyinə də salıblar və Azərbaycana gələn Pakistanlılar birinci Hacının qəbrini ziyarət edirlər...




İllərlə Pakistanı bizə borclu bilən insanlara Hacı Zeynalabdinin yaşadığı dövrdə Pakistan adlı bir dövlətin olmadığını izah etmək çox çətindir. Hacı Zeynalabdin Tağıyev 1823-cü ildə dünyaya gəlib. 101 il həyat yaşayıb. 1924-cü ildə isə dünyadan köçüb. Pakistan adlı dövlət isə 1947-ci ildə yaranıb və 1956-cı ildə özünü "islam respublikası" elan edib. Yəni nə Pakistan Tağıyevi görməyib, nə də Tağıyev Pakistanı...İnsanlar bu mifə o qədər səmimi qəlbdən "iman" gətiriblər ki, həqiqəti eşidən kimi hər vəchlə həmin dövrdə Pakistan adlı bir dövlət olmasa da Hacının gələcəkdə Pakistan olacaq həmin bölgəyə yardım göndərdiyi fikrini müdafiə edirlər. Dövlət olaraq olmasa da bölgə olaraq həmin ərazilərin Pakistan adlandığını iddia edirlər. Nəzərinizə çatdıraq ki, hazırkı Pakistan ərazisi tarixin heç bir dönəmində Pakistan adlanmayıb, Hindistan adlanıb və Hacının vaxtında Hindistanın özü də İngiltərənin müstəmləkəsi olub... Nə onların məktəb kitablarında belə bir yazı var, nə bu məsələnin tarixi bir mənbəsi var, nə də xalqımızın 99 faizinin qəbrinin yerini belə bilmədiyi Hacı Zeynalabdini pakistanlılar təyyarədən düşən kimi ziyarət etmirlər... Bu bir yalandır və sizə xoş gəldiyi üçün həqiqətləri görmək istəmirsiniz...

Tağıyev Britaniya müstəmləkəsi olan Hindistana necə yardım edə bilərdi ki, həmin vaxt qonşusunda milyonlarla soydaşımız Britaniyanın yaydığı xəstəlikdən dünyasını dəyişirdi.

İran 20-ci əsrin əvvəlində əhalisinin yarısını (9 milyon) ingilislərin yaydığı xəstəliklərdən itirib. Tağıyevin Təbriz, Ərdəbil və Zəncanda ölən milyonlarla soydaşımızı qoyub Britaniyanın Hindistan koloniyasına yardım etməsi necə mümkündür?

Həmçinin Hacı Zeynalabdin Tağıyev ölümündən 2 il sonra kəşf olunacaq olan vaksini necə göndərib Pakistana?!...

Dünyada taunun 3 güclü pandemiyası olmuşdur.

Taunun üçüncü və sonuncu pandemiyası 1894-cü ildə Honkonqda başlamış, bir milyondan çox insanın təlafatına səbəb olmuş, sonrakı 10 ildə isə dünyanın bütün kontinentlərinin 87 liman şəhərlərinə yayılmış, 12 milyondan artıq adamın həyatını əlindən almışdır. Taunun üçüncü pandemiyası zamanı böyük kəşflər edilmişdir: törədici mikrob ayrılmış (Q.İ. Minx, 1878, A. İersen, S. Kitazato 1894), xəstəliyin yayılmasında siçovulların, çöl gəmiricilərinin və birələrin rolu müəyyənləşdirilmiş, taunun təbii ocaqlılığı aşkar edilmişdir. (D.K. Zabolotnı, 1912)

Effektiv vaksina isə 1926-cı ildə V.A. Xavkin tərəfindən işlənib hazırlanmışdır...

Hacı Zeynalabdin 1924-cü ildə dünyasını dəyişib və vaksin 1926-cı ildə kəşf olunubsa, burda Hacının pakistanlılara hansı vaksin yardımından söhbət gedir?



Bu adamın adı Vladimir Aronoviç Xavkindir. O taunun dünyadakı 3-cü güclü pandemiyası zamanı effektiv vaksinin kəşfi ilə adını tarixə yazdırmış və bəşəriyyəti taun girdabından xilas etmişdir.

1926-cı ildə...

Rəhmətlik Hacı Zeynalabdin dünyasını dəyişdikdən 2 il sonra...

Yəni uydurduğunuz "Pakistana Hacı vaksin göndərib və pakistanlılar sağaldıqdan sonra Hacıya minnətdar olublar, Bakıya hər gələndə Hacının qəbrini ziyarət edirlər, bunu dərsliklərinə də salıblar, bizə 64 milyonluq ordu göndərəcəklər, Pakistan çörək itirən deyil, özüm pakistanlılardan eşitmişəm və s..." söhbətlərinizin bir daha yalan və dezinformasiya olduğu beləcə ortaya çıxır!

Allah Qurani-Kərimdə necə də gözəl buyurur;

**Uydurduqları yalanlarla birlikdə boşla onları...**

**Ənam 112**

**Yalan 14**

**• Şəhriyar millətçi idi**




İgidlərin İran üçün şəhid olub, əvəzində.

Dərd almısan, qəm almısan sən İrandan, Azərbaycan.

Qalx ayağa ya azad ol, ya tamam yan Azərbaycan!

Şəhriyara istinad edilən bu şeir əslində Fikrət Sadıqındır (Orxan Fikrətoğlunun atası). Şəhriyarın fars dilində qələmə aldığı Azərbaycan şeiri var. Amma bizlərə təqdim olunan bu şeir, Şəhriyarın yazdığından tamamilə fərqlənir. Şəhriyarın qələmə aldığı Azərbaycan şeirində İran haqqında çox gözəl misralar deyilir:

Azadiye İran ze to! Abadiye İran ze to!

Azad baş ey xetteye abade Azərbaycan.

(İranın azadlığı sənə bağlı! İranın abadlığı da!

Azad ol, ey abad məmləkət, Azərbaycan!)

Şəhriyar 1941-ci ildə Sovet qoşunlarının İrana, məxsusən azərbaycanlılar yaşayan bölgələrə təcavüzünü qınayır. Müqavimət göstərən xalqa həmin dövrün şahının etinasızlığını pisləyir. O misranın əsri belədir:

Can dade Azərbaycan əmdad İran ra vənist

İranmədaran ra sər əmdad Azərbaycan.

(Azərbaycan canından keçib İran üçün, ancaq

İran hakimləri Azərbaycanın dadına yetmir.)

Sanki Fikrət Sadıq İran haqqında xoş misraları gizlədib, şeiri təhrif etməklə iki ölkə arasına nifrət salmaq istəyir. 13 il Şəhriyarın tələbəsi olmuş Əsğər Fərdi də bu şeirin təhrif olunduğunu və yazılan şeirin Şəhriyara aid olmadığını təsdiq edir.

20 ilə yaxındır dərsliklərimizdə Şəhriyarın adı ilə təqdim olunan bu şeiri oxuyan hər kəsin qəlbində mövcud İran İslam Respublikasına qarşı qəzəb və kin yaranır. Halbuki bütün ömrünü fəqirlik içində yaşamış Şəhriyara yalnız İslam İnqilabı qələbə çaldıqdan sonra maaş ayrılmış və dövlət başçısı xüsusi rəğbət göstərmişdir.

Şəhriyarın bütün həyatını tədqiq etmiş Əsğər Fərdi də Azərbaycana səfəri zamanı bu və daha neçə şeirin azərbaycanlı tərcüməçilər tərəfindən təhrif edildiyini diqqətə çatdırmışdır.

Maraqlı bir hadisəni nəzərinizə çatdırırıq: Əsğər Fərdi Səhər kanalında "Kompas" proqramının yaradıcısı idi. Bu proqramın ilk 30-40 buraxılışını da özü apardı. Buraxılışların birində Ustad Şəhriyarın sözü gedən şeirini müzakirəyə çıxardı. Azərbaycandan proqrama fars dili tərcüməçisini və şeiri azərbaycancaya tərcümə edən şair Fikrət Sadıqı canlı bağlamışdılar. Əsğər Fərdi şeiri misra-mirsa farsca oxudu, azərbaycanlı tərcüməçi Azərbaycan dilinə tərcümə etdi və Fikrət Sadıqa sübut etdilər ki, şeiri səhv tərcümə edib və xalqı aldadıb. Fikrət Sadıq isə üzr istəmək əvəzinə, dedi ki, "mən Şəhriyardan bu cür eşitmək istəyirdim və elə də tərcümə etdim"...



Şəhriyar adına uydurulan ən əsas yalanlardan biri də budur ki, guya Şəhriyar daim İranın şimal ərazilərinin (Ərdəbil, Təbriz) İrandan ayrılaraq Azərbaycana birləşməsinin tərəfdarı olub.

Bunu iddia etmək üçün insan tarixdən bixəbər olmalıdır. Şəhriyarın yaşadığı dövrdə Azərbaycanın özü SSRİ tərkibində idi. Şəhriyar Təbriz və Ərdəbilin İrandan ayrılaraq SSRİ-ə birləşməsinimi istəyirdi?!...

İndi isə sizlərə Şəhriyarın başqa bir şeirini təqdim edirik. Şeirin misralarına diqqət etsəniz Şəhriyarın tam əksinə olaraq SSRİ tərkibindəki ərazilərin yenidən İrana birləşməsini tələb etdiyini aşkar görə bilərsiniz.

Aman Allah, yenə şeytan gəlib iman apara,

Qoruyun, qoymuyun imanuzu şeytan apara.

Mənim insanlığım gör nə hasan yavadır,

Ki günüz quli-biyaban gəlir insan apara

Çörək almış əlinə, ac necə taqət gətisin?

Elə bil yaz gecəsi qız gəlib oğlan apara.

Qanlı dırnaqlarılan ingilis əl qatdı bizə,

Baxısan rus da Arazdan keçir İran apara

Qəm aşıb-daşdı daha, xəlq ilə şuxluq eləməz,

Sel gərək el dağıda, ev yıxa, eyvan apara.

Xərməni saqqıza verdik, nə yaman çərçidi bu?

Hey gəlir kəndə, bizə dərd verə, dərman apara.

Bu qaranlıq gecələrdə qapımız pis döyülür,

Nə bilim, bəlkə əcəldir, dayanıb can apara.

Anama söyləyin: oğlu yıxılıb səngərdə,

“Tellərin bas yarama, qoyma məni qan apara”.

**ARADAN BİR DƏ BİZİ BÖLSƏLƏR ƏRBABLARIMIZ**

**QORXURAM QOYMAYALAR TƏBRİZİ TEHRAN APARA...**

Qara tufan ki, dəxi xəlqə şuluxluq eləməz,

Sel gərək el dağıda, ev yıxa, eyvan apara.

Səlqəli oğru vilayətdə çoxalmış olsa,

Şəhriyardan da gərək bir dolu divan apara.

Şəhriyar iki misrada açıq-aşkar Azərbaycanın İrandan ayrılmaz bir parça olduğunu vurğulayır. Ərz edir ki, aradan bir də bizi böyük ölkələr bölsə, bu dəfə qorxuram ki, Təbriz də Tehrandan ayrıla. Həmçinin ingilislərin İranda at oynatdığı dövrlərdə qələmə aldığı bu şeirdə xüsusi olaraq qeyd edir ki, ruslar bir zaman Arazdan şimalı işğal etdilər, indi də işğal üçün gəliblər yenidən. Bu dəfə Arazdan cənubu da almaq istəyirlər. Şəhriyarı anti-İran düşüncəli biri kimi xalqa təqdim edənlər, barəsində çox böyük təhrifata yol verirlər.

Ümumiyyətlə bugün Azərbaycanın bütün rəsmiləri 1918-ci ildə tanınmış beynəlxalq sərhədlərimizdən əlavə hansısa ərazilərə iddiaçı deyillər. Çünki bu iddia bizə ancaq düşmən qazandıra bilər.

İranı separatçılıq yolu ilə bölməyə çalışan millətçilər də bilsinlər ki, bunu bacarsaydı Amerika edərdi.

Müsəlman ölkələrində separatçılıq fəaliyyətinin özü şeytana xidmətdir. Allah Qurani-Kərimdə buyurur;

**Allahın ipindən möhkəm yapışın və parçalanmayın. Allahın sizin barənizdə bir-birinizlə düşmən ikən qəlbləriniz arasında ülfət yaratdığı zamandakı nemətini xatırlayın... Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz.**

**Ali-İmran 103**

## Yalan 15

## • İranda edam cəzası qeyri-insanidir



1999-cu il. Amerikanın Florida ştatı. Cinayət işləmiş Allen Lee Davis ölənə qədər bədəninə elektrik enerjisi verilərək edam edilir. Halbuki, Amerika digər ölkələri məhkumlarla qeyri-humanist davranışda ittiham edir və insan haqlarının tapdandığını iddia edərək həmin ölkələrə hərbi müdaxilə edirdi. Bütün bunlarla yanaşı ölüm cəzası olan ölkələrə sanksiyalar tətbiq edərək, həmin ölkələrin bank hesablarına da əl qoyurdu.

Allen Lee Davis (July 20, 1944-July 8, 1999)



Elektrikli masada ilk edam edilmiş qadın 1899-cu ildə Martha Place adlı psixi bir xəstə olmuşdur. O sona qədər cinayəti boynuna almasa da, psixoloji vəziyyəti nəzərə alınmadan Nyu-York məhkəməsi onu edam etmişdir.

Martha Place-Sing Sing Prison, Ossining, New York, U.S.A 1899



Fransızlar 1792-ci ildən 1977-ci ilə qədər insanların başını "Gilyotin"adlı bu aparat ilə bədənindən ayırıb edam edirdilər



Şəkil 1908-ci ildə Konqoda çəkilmişdir. Belçikalılar işğal etdikləri ölkədə 7 yaşlı bir qaradərili uşağı tarladan qarğıdalı götürdüyü üçün edam edirlər.

Belgium soldiers hangs a 7 years old child of the Congo in 190

Əvvəlcə biz bunu müəyyənləşdirməliyik ki, edam cəzası hər yerdə qeyri-insanidir yoxsa yalnız İranda?

Burda iki nəzər meydana gələcək;

1-Edam bütün dünyada qeyri-insanidir.

2-Edam yalnız İranda qeyri-insanidir.

Edam yalnız İranda qeyri-insanidir deyənlər şübhəsiz ki, ədalətsiz insanlardırlar.

Amma maraqlısı budur ki, edamı bütün dünyada qeyri-insani hesab edənlər də əksərən yalnız İranı hədəf alırlar... Yəni, edam bütün dünyada qeyri-humanist yoldur deyənlər də həqiqətdə obyektiv görünməyə çalışır və onların da məqsədi nəticə etibarı ilə yenə də İran və islamdır.

Edamı hər yerdə qeyri-insani hesab edənlər görəsən günahsız sivillərə qarşı edilən toplu ağır cinayətlərin icraçılarına qarşı hansı formada alternativ cəza tələb edirlər?

Bugün dünyada edama müqabil təklif olunan yeganə alternativ-“ömürlük həbsdir”. Nəzərə alsaq ki, cəzaçəkmə müəssisələrinin digər adı da islah olma mərkəzidir, o zaman bu sualımıza həmin humanist cənablar hansı formada cavab verəcəklər: Ömürlük həbsə salınmış birinin yenidən cəmiyyətə buraxılmayacağı təqdirdə hansı məqsədlə islah edildiyinə məntiqli bir izah varmı?!...

Yox əgər gələcəkdə hansısa amnisiyalarla beynəlxalq terrorçuları ömürlük həbsdən azad etmək məqsədini güdürlərsə, təklif etdikləri alternativ-yəni ömürlük həbs yalandan başqa bir şey deyilmi?!... Bugün dırnaqarası humanistlərin dünya ölkələri qarşısında ikimərhələli tələblər qoyduğunu görməkdəyik;

Birinci mərhələdə bütün ölkələrdən edam cəzasını ləğv edib, ömürlük həbslə əvəz etmələrini, ikinci mərhələdə isə ömürlük həbsi də ləğv edərək maksimal cəzanın 20 ilə endirilməsini tələb edirlər.

Bu humanist görünən tələbkarların-yəni qərb ölkələrinin praktikada daim müxalifətlə işlədiyini nəzərə alsaq, onlar üçün üçüncü dünya ölkələrində edama və yaxud ömürlük həbsə məhkum edilmiş şəxslər bir növ yem və 5-ci kolon olmağa ən böyük namizədlərdir deyə bilərik. Yəni ki, bu canfəşanlıq və tələbkarlıqlarının arxasında insani düşüncə və humanizm deyil, hiylə və məkr yatmaqdadır.

Bu tələbkar və qalstuklu cənablar nədənsə heç vaxt Amerikada bədəninə yüksək cərəyan verilərək, qaz kameralarında boğularaq və zəhərli iynə ilə öldürülərək edam edilənləri görmürlər.

**Amerikada 3 qeyri-insani edam üsulu**



**ABŞ zəhərli iynə ilə edam üsulunu qanuniləşdirən və tətbiq edən ilk ölkədir.**



**Alfred P. Southwick adlı diş həkiminin 1881-ci ildə hazırladığı elektrikli masada edam üsulu Amerikanın Nebraska ştatının 8 Fevral 2008-ci ildə qəbul etdiyi "bu cür edamın qeyri-insani olması" haqqında qərarla ləğv edilmişdir. Elektrikli masada edama məhkum edilmiş şəxslərin ayaqları və başı qırxılır, bir neçə mərhələdə bədəninə elektrik verilməklə qanun tətbiq olunurdu. Amerikada hətta qadınlar da bu cür edama məhkum edilirdi.**

Electric chair execution-United States of America



**8 Fevral 1924-cü il. Amerikanın Nevada ştatı. İnsanlar kiçik kameralara salınır və zəhərli qazlarla edam edilirdi.**

The first execution by lethal gas in American history was done in Carson city, Nevada

Amma etdiyi bir terror əməli ilə bağçada yüzlərlə körpənin öldürülməsinə səbəb olan şəxslərə qarşı humanizm tələb edirlər. Yəni deyirlər ki, bu cinayətkarı həbsə salın, həmin körpələrin valideynlərindən aldığınız vergilərlə 20 il bu insanı yedirin, içirin, sonra isə azadlığa buraxın... Məsələnin mahiyyəti tam olaraq bundan ibarətdir. Bu humanist cənablar unudublar ki, bir canavara rəhm eləmək, bir sürü qoyuna zülm eləməkdir. Bir cinayətkara rəhm eləmək də, böyük bir topluma zülmdür. Bəlkə də unutmayıblar və elə üçüncü dünya ölkələri toplumlarına rəhm etmədikləri üçün, daha doğrusu onları dünyada artıq, yəni maddi resursları tükətən lazımsız ət parçaları hesab etdikləri üçün həmin canavarların belə toplumlarda daim var olmasına çalışıblar. Bunu praktikada bir zamanlar özləri də tətbiq etmiş və çox ağır nəticələr almışdılar. Bu tətbiqetmə öz toplumlarındakı canavarlara qarşı humanist olduqları səbəbindən deyil, göz boyamaq və dünyanın qarşısına qoyduqları tələbi ilk növbədə öz ölkələrində icra etdiklərini göstərmək üçün idi. Ağır nəticələr aldıqdan sonra isə, indilərdə başqa yollara əl atır və həmin canavarları ya yerində zərərsizləşdirir, ya həbsxanada aradan aparır, yaxud da həbs müddətini müxtəlif başqa maddələrlə tamam olduqdan sonra uzadırlar. İngiltərədə baş vermiş maraqlı bir hadisəni nəzərinizə çatdırmaq istəyirik;




Robert Thompson və Jon Venables adlı iki 10 yaşlı uşaq bir körpəni qaçırır və işgəncə verir, sonra isə həmin körpəni vəhşicəsinə öldürürlər. İngiltərə hökuməti bu uşaqları həbs edir və tərbiyələndirilərək topluma yenidən qazandırılmasının mümkünlüyünü göstərmək üçün onları 8 ildən sonra yenidən azadlığa buraxır. Bir neçə il sonra həmin iki uşaqdan biri-Jon Venables başqa körpə bir uşaq ilə porno video çəkdiyi üçün yenidən həbs edilir.

Bu kiçik misalda çatdırmaq istədiyimiz mətləb bundan ibarətdir ki, bir qrup insan topluma əsla buraxılmamalıdır, bir qrup insan isə mütləq edam edilməlidir. İngiltərədə baş vermiş bu hadisədə həmin uşaqların cinayəti işləyən vaxt buluğ həddinə çatmamaları səbəbindən islamda onlara edam düşməsə də, belələri əsla toplum içinə buraxılmaz. Təbii ki, bizi yaradan uca Allah hansı situasiyada necə cəza verilməsini də ən mükəmməl formada əmr edib. İran da bu ilahi konsepsiyaları praktikada ən mükəmməl formada tətbiq edən yeganə ölkə olduğu üçün bugün bütün dırnaqarası humanistlər İrana hücum edirlər. Bu humancıqlar bir dəfə Amerikadan tələb etmədilər ki, insanları zəhərli iynə ilə edam etməyi dayandırsınlar. Bu humancıqlar bir dəfə

Amerikadan tələb etmədilər ki, insanların başına elektrik cərəyanı verərək edam edam etməyi dayandırsınlar. Bu humancıqlar bir dəfə Amerikadan tələb etmədilər ki, insanları qaz kameralarına salaraq edam etməyi dayandırsınlar.

Elə düşünürsünüz ki, bu edam üsulları keçmişdə qalıb və daha Amerikada tətbiq olunmur? Səhv düşünürsünüz. Dünyadan edamı ləğv etməyi tələb edən Amerikanın çox sayda ştatında hələ də edam cəzası qalmaqdadır. Amma bununla bitmir. Dünya şöhrətli Quantanamo həbsxanasında və İraqda yerli xalqın həbs edilərək salındığı zindanlarda Amerikanın məhkumlara qarşı tətbiq etdiyi işgəncələr edamdan daha ağırdır. Həmin görüntülər insana “kaş bu adamlar edam oluna, amma belə zülm görməyə” dedirdir...




Türklərin gözəl bir məsəli var, “dinimə küfr edən, müslüman olsa bari”... İranda, islamda edam cəzasına etiraz edənlər öz ölkələrində məhkumları itə yedirtməyi, orqanlarını satmağı, cinsiyyət orqanlarına elektrik verməyi saxlasınlar əvvəlcə. Daha sonra isə anlasınlar ki, edama məhkum etdikləri şəxslərin belə başlarına elektrik verib, qaz kameralarında boğub, bədəninə zəhər verib

öldürmək edam yox, zülmdür. Onlar ən ibtidai insani keyfiyyətlərdən məhrum toplumlar olduqları halda hansı haqla uca Allahın ağır cinayətlər törədən canilərə qarşı əmr etdiyi edam hökmünə etiraz edirlər?!...

Allah nə gözəl buyurmuşdur;

**Qisasda sizin üçün həyat vardır. Bəlkə bu yol ilə pis əməldən çəkinəsiniz...**

**Bəqərə 179**

## Yalan 16

## • Amerikanın dünyadan tək tələbi demokratiydır




Amerikanın dünya qarşısında qoyduğu tələbləri sadalamazdan əvvəl Birinci Qarabağ müharibəsində Azərbaycan qarşısında qoyduğu tələbi nəzərinizə çatdırmaq istərdik;

**"Azərbaycan Qarabağın işğalını dayandırmalıdır..."**

Bu Amerika Konqresinin Azərbaycana qarşı qəbul etdiyi qətnamədir. Amerikanın 68-ci dövlət katibi Con Kerrinin Konqresdə irəli sürdüyü bu qətnamə "907-ci düzəliş" adlanır. Azərbaycan bu düzəlişdə Qarabağın "işğalını" dayandırmadığı müddətcə humanitar yardımdan məhrum edilir...

Necə də qəribə səslənir... AZƏRBAYCAN QARABAĞIN İŞĞALINI DAYANDIRMALIDIR...

Amma yox, qəribə səslənmir, qəribə səslənib, səslənməməsi bir kənara, ümumiyyətlə səslənmir...

Biz Xocalıda öldürüləndə Amerika bizdən Qarabağın işğalını dayandırmağımızı tələb edir və bu xəbər on illər boyunca heç bir kanal, sayt və digər KİV-lərdə səslənmir...




Dünyada heç bir ölkənin dövlət kimi tanımadığı Qondarma Artsaxa gəlib “Mən burdayam, Çünki Artsax müstəqil bir dövlətdir” demək də yalnız Amerikan həyasızlığına “yaraşar”... Bu sözü deyən adi bir amerikalı yox, Amerika Ticarət Komitəsinin Sədri Frank Pallonedir...

Görəsən 2017-ci ildə İranda rəsm sərgisi qadağan edildiyi üçün etiraz edən rəssamın aksiyada çəkilmiş şəkilini 2020-ci ildə “ordumuza dəstək verən türk soydaşımız fars rejimi tərəfindən həbs edildi” başlığı ilə tirajlayan mediamız Frank Pallonenin qanunsuz şəkildə Qarabağa gəlişini və dediyi bu sözlərini niyə dərc etmir?!...




Əziz oxucu Amerika yalnız bizim kimi müsəlman xalqların deyil, həm də bütün bəşəriyyətin düşmənidir. Bunun əsas səbəbi Amerikanın bütün dünyanı özünə tabe etmək və yer üzündə hegemonluq etmək istəyidir.

Amerika atom bombasından istifadə etmiş yeganə ölkə olmasına baxmayaraq, dünya ölkələrinə atom bombasına sahib olmağı qadağan edir...



Atdığı 2 bomba ilə 200 min insanı bir anın içində buxara çevirən Amerika hökuməti bugün dünyaya nüvə silahının təhlükələri barədə dərs keçir. Bu silahın yalnız onlarda və onların icazə verdiyi bir neçə ölkədə olmasının zərurəti barədə fikirlər səsləndirir. Nəzərə alın ki, bu bomba 1945-ci ilin 6 Avqust günü Xirosimaya və 9 Avqust günü Naqasakiyə atılan zaman artıq müharibə bitmişdi. Yəni ki, bu bombanın atılmasına heç bir lüzum yox idi. Qəddar Amerika hökuməti rəhbərləri deyəsən boş adalarda sınaqdan keçirdikləri bu silahın insanlar üzərində də hansı nəticələr verəcəyini görmək istəmişdilər...

Amerika bir nömrəli işğalçı olmasına baxmayaraq bizim kimi işğala məruz qalan, öz beynəlxalq sərhədlərini müdafiə etməyə çalışan ölkələrə nota verir, “işğalı” dayandırmağı tələb edir və yeri gələndə hərbi müdaxiləyə də baş vurur...




Amerikanın son 100 ildə hərbi müdaxilə etdiyi ölkələrə nəzər salsaq bu ölkənin yalnız müsəlmanlara deyil, bütün bəşəriyyətə düşmən olduğunu görərik;

Filippin (1899-1913)

Yaponiya (1945)

Şimali Koreya (1950-1953)

Vyetnam (1955-1975)

Çin (1959)

Konqo (1960-1965)

Qvatemala (1960-1996)

Kuba (1961)

Kamboca (1970)

Dominikan Respublikası (1916-1924; 1965)

Anqola (1975-2002)

Çili (1973)

Salvador (1979-1992)

Qrenada (1983)

Liviya (1986)

İran (1988)

Panama (1989)

Sudan (1998)

Əfqanıstan (2001-2014)

İraq (2013)

Amerikanın özünü yer üzünün sahibi kimi aparması yalnız əzələ nümayişidir...

Amerikadan daha qüvvətli olan Firon da bir zamanlar “Mən sizin uca Rəbbinizəm” deyirdi... Amma nə oldu?!... **“Allah onu axirətin və dünyanın ibrətamiz əzabına giriftar etdi. Həqiqətən bunda Allahdan qorxanlar üçün bir ibrət vardır...”**

**Naziat 24-25-26**

**Yalan 17**

**• Allah var olsaydı Afrikada insanlar aclıqdan ölməzdilər**




Okeanın ən dərin nöqtələrində mütləq qaranlıq mövcuddur və alimlər həmin dərinliklərdə canlıların yaşadığını bildirirlər. Mütləq qaranlıqda yaşayan həmin canlıların ruzisini verən və onları aclıqdan ölməyə qoymayan uca Allah Afrika qitəsinə də lazımi miqdarda, hətta bəlkə daha da artıq ruzi vermişdir. Yəni bugün qərb ölkələri Afrikanı istismar etməsələr və qara qitənin nemətlərini talamasalar, orda olan yeraltı və yerüstü sərvətlər bütün Afrika xalqlarına bəs edər, hətta artıq da qalar.

İnsanlarda belə bir təəssürat yaranıb ki, Afrikadakı insanlar ötən yüzilliklərdə istismar olunub, amma sonra işğal prosesi dayanıb və afrikalılar sadəcə olaraq digər ölkələrlə ayaqlaşa bilməyərək geridə qalıblar. Bu düşüncəni beyinlərdə formalaşdıranlar qaradərililərə aşağı növ insan kimi baxan amerikalı conlar və ceklərdir. Onlar hər vəchlə qaradərililəri vəhşi, ən yaxşı halda isə yarımvəhşi göstərməyə çalışır və bununla da Amerikada onlara qarşı etdikləri zülm və

haqsızlıqlara don geyindirirlər. Əslində isə həqiqət bundan ibarətdir ki, amerikalı conlar hələ də qaradərililərin insan olduğunu qəbul etmir və onları kölə etdikləri dövrün zehniyyətindən qurtula bilmirlər.




**Amerikanın Şimali Karolina ştatının Durham şəhəri, 1940-cı il. Stansiyalarda qaradərili insanlar yalnız onlar üçün ayrılmış xüsusi gözləmə nöqtəsində dayana bilərdilər.**

A bus station in Durham. North Carolina, in 1940.
Jack Delano/PhotoQuest, via Getty Images




**Rosa Parks-avtobusda əyləşdiyi yerdən qalxıb ağdərili sərnişinə yer vermədiyi üçün həbs edilmiş amerikalı qaradərili qadın. Hadisə 1 Dekabr 1955-ci ildə Amerikanın Alabama ştatının Montgomery şəhərində baş vermişdir.**

Rosa Parks Mug Shot 1955 Universal History Archive-UIG via Getty Images




**ABŞ, Şimali Karolina ştatı. 1950-ci il. Qaradərili insanlar üçün ayrılmış su kranı. Foto Elliott Erwitt tərəfindən çəkilmişdir.**

Elliott Erwitt. North Carolina, USA. 1950




**Amerika Birləşmiş Ştatları-Alabama. 1956-cı il. Onların dərisi qara olduğu üçün univermağa başqa qapıdan girməlidirlər.**

Department Store, Mobile, U.S.A-Alabama, 1956

Afrikanın istismarı keçmişə aid bir məsələ deyil, bugün də davam edir. Məsələn dünyadakı insanların əksər hissəsi bilmir ki, Fransa hələ də 14 Afrika ölkəsindən müstəmləkə vergisi alır.







Proses bu şəkildə icra edilir; Fransa həmin ölkələrin illik büdcəsinin 85 faizini alır və 15 faizi onlar üçün saxlayır. Ölkələr həmin 15 faizi ilin birinci rübündə bitirir və kredit arayışına çıxırlar. Bu zaman Fransa yenidən meydana daxil olur və onlara kredit təklif edir. Beləcə gələn ilin 85 faiz büdcəsinin kənarında 15 faiz büdcəsini də verdiyi kreditinin faizi şəklində geri alır və ölkə buna etiraz edən zaman, həmin ölkədə çevriliş edərək öz 5-ci kolonunu hakimiyyətə gətirir. Bütün bu sadalanan proseslərə də yenidən periodik şəkildə start verir... Həmin ölkələrin xalqları demək olar ki, yalnız ianə və yardımlar hesabına yaşayırlar. İanə və yardımlar da təbii ki, təmənnasız şəkildə verilmir. Kilsə missionerləri Afrikada ucuz bazar açaraq xristianlaşma prosesini aparır, Ümumdünya Səhiyyə Təşkilatı isə yardım adı altında Afrikadan laboratoriya kimi istifadə edir... Yəni yeni dərmanlarını yardım adı altında Afrika xalqları üzərində sınaqdan keçirirlər...

Kimsə düşünə bilər ki, axı Afrika bu 14 ölkədən ibarət deyil, digər ölkələrin geridəqalmışlığı özlərinin tənbəlliklərindən qaynaqlanır. Bunu düşünənlər bilməlidirlər ki, Avropa da ancaq Fransadan ibarət deyil. Dişlərini qıcamış digər yırtıcı Avropa ölkələri hələ də Afrikada istismar və müstəmləkə siyasətini yürütməyə davam edirlər. Amma bunu ölkələrinin adı ilə deyil, şirkətləri vasitəsilə həyata keçirirlər.



**Şokolad istehsalında kölə kimi işlədilib, şokoladın dadını bilməyən 120 min afrikalı uşaqdan sadəcə biri...**

# Afrika-Fil Dişi Sahili

Qərbin bu qitədə hansı soyğunçuluq və vəhşiliklər törətdiyini görmək üçün Afrikanın tarixinə qısa şəkildə nəzər salmaq kifayətdir. Afrika 1914-cü ilə qədər xəritədə gördüyünüz ölkələrin işğalı altında olmuşdur.




Afrikanı viran qoymuş bu ölkələrin törətdiyi vəhşiliklər saymaqla bitməz. Amma qısa tanışlıq üçün hər ölkənin vəhşiliyinə bir misal göstərəcəyik;



Fransalı əsgərlər öldürməmişdən əvvəl zorladıqları uşaq ilə xatirə fotosu çəkdirirlər. Şəkil 1961-ci ildə Əlcəzairdə çəkilmişdir.

French soldiers raped a little girl.
Algerian massacre 1954-1962



16 İyun 1976-cı il. Cənubi Afrika Respublikası. Soweto qətliamı. Bir qrup ağdərili ingilisin aparteid və irqçi idarəçiliyini qəbul etməyən tələbələr aksiya təşkil edirlər. Aksiya odlu silahla yatırılır, rəsmi 176, qeyri-rəsmi 700 qaradərili tələbə öldürülür.

Soweto uprising. South Africa. 16 June 1976



İtalyanların Efiopiyada törətdiyi qətliamdan bir foto. Efiopiya digər adı ilə desək Həbəşistan (mənası qullar ölkəsi deməkdir) qərbin müstəmləkə boyunduruğunu qəbul etməyən iki Afrika ölkəsindən biridir. Digəri isə Liberiyadır. Efiopiya ilk müstəqil olmuş Afrika ölkəsidir. İtalyanların 19-cu əsrin sonlarında Efiopiyaya hücumu xalqın güclü müqaviməti qarşısında nəticəsiz qalsa da, 1935-1936-cı illərdə efiopiyalılar məğlub olmuş və ölkələri işğal edilmişdir.

Photograph of an Italian soldier next to a hanging corpse during the fall of Abussinia. Dated 20th Century



Portuqaliyanın Anqoladakı müstəmləkə siyasətindən bezmiş yerli xalq üsyanı silah gücünə yatırılır. Portuqaliya 1975-ci ilə qədər Anqolanı istismar etmiş və baş qaldıran xalq üsyanlarını bu formada yatırmışdır.

A group of captured rebels in Angola during national resistance to Portuguese government. (Photo by Weber/Getty Images)



**Belçika Kralı 2-ci Leopoldun 1885-1908-ci illərdə Konqonda həyata keçirdiyi soyqırımda milyonlarla insan həyatını itirmiş və şikəst qalmışdır. Konqonu şəxsi mülkü elan etmiş Belçika kralı tarlada işləməyən yerlilərin öldürülməsi üçün əsgələrə yalnız 1 güllə icazəsi vermişdir. Əsgərlər düz nişan almadıqda töhmət almamaq üçün əllərindən qaçırdıqları yerlilərin əvəzində günahsız insanları tutaraq əl, ayaq yaxud cinsiyyət orqanını kəsib yüksək rütbəlilərə təqdim edirdilər.**

King Leopold ll of Belgium over 10 million Congolese died 1885-1908



Almaniyanın 1904-1908-ci illər arasında Namibiyada törətdiyi soyqırım 20-ci əsrin ilk soyqırımı hesab edilir. Bu soyqırımda 100 minə yaxın yerli məhv edilmişdir.

The German Empire committed the 20th century's first genocide. Herero and Namaqua genocide (1904-1908)

Avropalıların Afrikada törətdiyi cinayətlərdən daha ağır olanı isə budur ki, onlar bunu din pərdəsinə bürünərək ediblər. Keniyanın Baş Naziri Como Keniata bu barədə belə deyir;

"Qərblilər gəldiklərində əllərində İncil, bizim əlimizdə isə torpaqlarımız var idi. Onlar bizə gözlərimizi yumaraq dua etməyi öyrətdilər. Gözümüzü açdığımız zaman isə bizim əlimizdə İncil, onların əlində torpaqlarımız var idi..."

Gördüyünüz kimi Afrikadakı insanların hazırkı səfalətinin səbəbi avropalılardır. Bunu vicdanı olan hər kəs qəbul edir. Həmçinin Afrika qitəsinin maddi resurslarla necə zəngin olduğunu da hər kəs yaxşı bilir. Yəni ki, Allah olsaydı afrikalılar aclıqdan ölməzdi kimi sərsəm fikirlərin heç bir əqli əsası yoxdur. Bunu həmin iddianı edənlər də çox yaxşı bilirlər. Fikir versəniz görərsiniz ki, onlar heç vaxt "Allah olsaydı Azərbaycanda insanlar bu qədər kasıbçılıq və fəqirlik içində yaşamazdılar" iddiasını dillərinə gətirmirlər. Çünki bilirlər ki, bucür iddiaların kökü Allahın var olmamasına deyil, insanların bir-birinə qarşı etinaslığına, zülmünə və haqqını qəsb etməsinə qayıdır.

Yəni, necə ki, harınlamış məmurlar olmasaydı Azərbaycan xalqı fəqirlik içində çabalamazdı, həmin məsələnin makro versiyası da Afrikaya şamildir. Harınlamış dövlət başçıları

olmasaydılar, Afrika xalqı da aclıqdan əziyyət çəkməzdilər. İnsanların bir-birinə etdiyi zülmləri uca Allaha nisbət verməyə çalışması necə də rəzil bir davranışdır.

**Həqiqətən, Allah insanlara zərrə qədər zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər...**

**Yunus 44**

## Yalan 18

### • Elçibəy türk idi



Əbülfəz Elçibəyin seyyidlik şəcərəsi

* 1) Əbülfəz (Elçibəy)

* 2) Qədirqulu (Elçibəyin atası)

* 3) Məşədi Mərdan (Elçibəyin babası)

* 4) Mir Alli Xoca

* 5) Mir Məhəmməd

* 6) Mir Yusif

* 7) Mir Məhəmməd

* 8) Mir Sadıq Ağa

* 9) Mir Məhəmməd

* 10) Seyid Mir Mustafa

* 11) Seyid Hüseyn

* 12) Seyid Saleh.

* 13) Seyid Nurəddin Ağa.

* 14) Seyid Şəmsəddin.

* 15) Seyid.

* 16) Seyid İsmayıl

* 17) Seyid Əli.

* 18) Seyid Abbas.

* 19) Seyid Fəxrəddin.

* 20) Seyid Haşım.

* 21) Seyid Mir Əli Xoca.

* 22) Seyid Fəxrəddin.

* 23) Seyid Şərəfeddin.

* 24) Seyid Şəmsəddin

Cəmiyyət arasında Elçibəy barədə yayılmış əsas yalanların başında Elçibəyin türk olması məsələsi dayanır. Əlbəttə ki, bir insan etnik kimliyi vasitəsilə nə ucaldılmalı, nə də aşağılanmalıdır. Amma millətini danıb, özünü başqa bir millətə calayanların fırıldağını ifşa etmək lazımdır ki, bu fırıldaq vasitəsilə qurduğu plan alt-üst olsun. Bu həm də islamda nəhy olunmuş bir əməldir. Hədislərdə buyurulur ki, kökünü ancaq haramzadələr danar... Yəni islamda etnik kimliklə fəxr etmək haram buyurulduğu kimi, bunu danmaq da haramdır və hətta haramzadəlik hesab olunur...

Burcu Özdemir **“TARİHÇİ VE AYDIN KİMLİĞİ İLE EBULFEZ ELÇİBEY”** kitabının 8-ci səhifəsində Elçibəyin Şah İsmayıl ilə eyni soydan gəldiyini yazır. Təbii ki, yazıçı bununla Elçibəyi əsl türk göstərmək və tərif etmək istəyir. Amma hər kəs bilir ki, Seyyidlər peyğəmbər nəslindəndir və türk yox, ərəbdirlər.

# BİRİNCİ BÖLÜM
# ELÇİBEY'İN HAYATI

## 1.1. Ailesi

Babası, Aliyev Kadirkulu Merdanoğlu'dur.[38] Elçibey'in baba tarafı, Güney Azerbaycan'dandır. Bu ailenin, Şah İsmail Hatayi'nin seleflerinden Şeyh Sadrettin Musa'nın (1305-1392) oğlu Şeyh Hoca Ali'nin (öl.1433) neslinden olduğu bilinmektedir.[39] Ve bu aile, Safeviler zamanında önemli görevlerde bulunmuştur.[40] Ailenin kökeni, Tebriz yakınlarında bulunan Kükemer köyüne dayanmaktadır. Seyitlerle yakınlıkları olan bu ailenin bir kısmı önce Zunuz'a, ardından Karabağ'a göç etmiştir. Ermeniler ile Azerbaycan Türkleri arasında çatışmaların yaşandığı XX. yüzyılda ise, Ordubad'a gelmiştir.[41] Ebulfez Bey, bu konu ile ilgili olarak şunları anlatmaktadır:

> "…Soy ağacına göre, bizim kökenimiz Tebriz yakınlarında bulunan Kükemer köyüne dayanmaktadır. Orada, seyidler bulunmaktaydı (hala da öyledir). Seyidler, önce Zunuz'a ardından Karabağ'a geldiler. İki-üç nesil Karabağ'da yaşadılar. Asrın başlarında yaşanan Ermeni-Müslüman çatışmaları sırasında ise, Ordubad'a göç ettiler. Bir rivayete göre, bizim büyük dedemiz Mir Ali (Emir Ali), Safevilerden Şeyh Sadreddin'in kardeşidir. Bir kol halinde oradan ayrıldılar. Bunların içinde sufiler ve seyidler de vardı…"[42]

Annesi, Aliyeva Mehrinisa Caferkızı'dır[43] Ebulfez Bey'in anne tarafı Azerbaycan'a Türkiye'den göç etmişti ve kendilerine "Kasımlılar" denilirdi. Elçibey'in annesi Mehrinisa Hanım, Piravdan'da dünyaya gelmiş ancak, Ermeni saldırılarından kaçarak Nahçıvan'ın Keleki köyüne göç etmek zorunda kalmıştır.[44] Bu göç süreci kış aylarına rastlamış, pek çok insan açlık ve soğuktan hayatını kaybetmiştir. Ölenler arasında, Ebulfez Bey'in annesi Mehrinisa Hanım'ın yakınları da bulunmakta idi. Hatta Mehrinisa Hanım'ın da soğuktan ayak parmakları donmuş, tüm vücudunun kangren olma tehlikesini engellemek için, bir balta ile kendi parmaklarını kesmek durumunda

---

38 Ebulfez Elçibey, *Deyirdim ki Bu Kuruluş Dağılacak*, Kençlik, Bakı 1992, s.179.
39 Mircelal Yusifli, *Elçibey*, Adiloğlu Neşriyat, Bakı 2008, s.11.
40 Uğur Güler, *Elçibey*, Ötüken Yayınları, İstanbul 2006, s.16.
41 Fazil Gezenferoğlu, *Ebülfez Elçibey: Tarihten Geleceğe*, Prestij Yayınları, İstanbul 1995,s.17.
42 Elçibey, *a.g.e.*,s.91.
43 "Azerbaycan Cumhurbaşkanı Ebulfez Elçibey'in Hal Tercümesi", *Azerbaycan*, Y:41, S:285, Mayıs-Haziran Ankara 1992, s.7.
44 Güler, *a.g.e.*,s.16.

Həmçinin bu barədə Əbülfəz Elçibəyin özünün də çıxışı var. Həmin çıxışda seyyidlik şəcərəsinin olduğunu, amma özünü türk hiss etdiyini bildirir. Təbii ki, həyatda nə hiss etdiyin deyil, nə olduğun mühümdür.

**Ey Peyğəmbər! Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən gələcək nəsillərini çıxardıb onların özlərini bir-birilərinə şahid tutmuşdu...**

**Əraf 172**

## Yalan 19

### • Türkiyə və Ermənistan sərhəddi bağlıdır




İkinci Qarabağ müharibəsi vaxtı İrandan Ermənistana daşınan yük kamazlarını hərbi texnika adı altında cəmiyyətə təqdim etdilər. İran dövlət televiziyasının əməkdaşları gömrük keçid məntəqəsinə yollandı və kamazları lentə alaraq, onların hərbi yük olmadığını göstərdi. Ümumiyyətlə kamazın hərbi texnika kimi qəbul edilməsi və həmişə açıq olan İran-Ermənistan sərhəddindən keçirilməsi cəmiyyətdə niyə belə bir ajiotaj yaratdı, bu sirr olaraq qalır. Axı İran Türkiyə kimi heç vaxt “sizə görə ermənilərlə sərhəddimizi bağlamışıq” kimi bir iddiada olmayıb. Bəs bu kamazların sirri nədədir belə?




Görəsən daim açıq olan sərhəddən keçən kamazlar daha sirlidir, yoxsa “bağlı” sərhəddən keçən bu karqo və turlar?!...

1) "Fast Expres"

2) "İstanbul Kargo"

3) "Gökay Transport"

4) "PLURESAİR"

5) "EKSPRES KARGO"

6) "Sekiz Lojistik ve Uluslararası Taşımacılık"

7) ORUÇ LOJİSTİK

8 ) "LKW WALTER"

9) "HOP TRANS"

10) "YURTDIŞI KARGO"

11) "GÜRCİSTAN KARGO" (şirkətin adı Gürcüstandır, amma Ermənistana da yük daşıyır)

12) "NumunemKolay"

13) "Acil Kargo"

14) "KargomKolay"

15) "PREMİER GROUP CARGO"

16) "Azat Cargo"

17) "Hamarat" uluslararası taşımacılık

18) "Hazar Lojistik"

19) "Koca Trans"

20) "KADİRAĞA"

Allahın Qurani-Kərimdə verdiyi sualı Türkiyədəki həmin bu tur və karqo şirkətlərinə vermək istəyirik;

**Hara gedirsiniz?!...**

**Təkvir 26**

## Yalan 20

### • İslam dini qadınların hüquqlarını əllərindən alır




Tarixin hər bir dövründə qadınlara azadlıq tələb edənlərin əsasən qadınlar yox, qadın üzərindən kapitalını inkişaf etdirən qadın istismarçıları olduqları görülməkdədir...

Tülkünün "məhv olsun hinlər, yaşasın toyuq azadlığı şüarı" toyuqlara xoş gəldiyi kimi bunların da pafoslu "qadın haqları" çığırtıları bəzi qadınlara xoş gəlir.

Dünya şöhrətli porno ulduzların həyatına nəzər salsanız əksəriyyətinin "məhv olsun hinlər" şüarı ilə ailəsindən ayrılmış, tülkünün "sənə meşədə film çəkəcəm və məşhur olacaqsan" sözünə aldanaraq meşəyə yollanmış və meşədə həmin tülkü tərəfindən "zorlanmış toyuqlar" olduğunu görəcəksiniz...

Tarixin bütün dövrlərində qadını öz maraq və mənfəətləri üçün istismar edən qərbin islama "qadın haqları" barədə danışması nə qədər gülməlidir.

Qərbin hansı bir kirli tarixi, onlara qadın haqlarından danışmağa imkan verir?!..

Görəsən ağzı köpüklənə-köpüklənə qadın haqlarından danışarkən qərb dünyası və liderləri bu həyasızlıqlarına görə utanırlarmı?!...

Unudublarmı;

Avtobusda ağdərili birinə durub yer vermədiyi üçün həbs etdikləri Rosa Parks'ı?!... (1955)




**Rosa Parks-avtobusda əyləşdiyi yerdən qalxıb ağdərili sərnişinə yer vermədiyi üçün həbs edilmiş amerikalı qaradərili qadın. Hadisə 1 Dekabr 1955-ci ildə Amerikanın Alabama ştatının Montgomery şəhərində baş vermişdir.**

Rosa Parks Mug Shot 1955 Universal History Archive-UIG via Getty Images

"Holokost adlı bir soyqırım olmayıb" dediyi üçün 87 yaşında 2 il zindanda saxladıqları yazıçı Ursula Haverbeck'i?!... (2015)



**Hania adlı bu qadın fransız əsgərləri tərəfindən kütləvi şəkildə təcavüzə uğradıqdan sonra edam edilmişdir. Şəkil 1957-ci ildə Əlcəzairin Aures bölgəsində çəkilmişdir.**

**In the region of Aurès in 1957. This woman, named Hania. She was raped, tortured and finally executed.**

Toplu şəkildə təcavüz etdikdən sonra soyundurub xatirə fotosunu çəkərək öldürdükləri əlcəzairli Hania'nı?!... (1957)

"İnsanların evini qanunsuz sökməyin" dediyi üçün buldozerlə üstündən keçdikləri Rachel Corrie'ni?!... (2003)



**16 Mart 2003-cü il. Amerikalı fəal Rachel Corrie İsrailin işğalçı siyasətinə etiraz edir. İsrailli əsgərlər isə buldozerlə 2 dəfə qadının üstündən keçərək onu öldürülər.**

Rachel Aliene Corrie (April 10, 1979 – March 16, 2003)

Onlar hansı üzlə islama qadın haqlarından danışırlar ki, dünyada ilk dəfə bir qadın onların dövlət rəsmiləri tərəfindən bədəninə tok verilərək öldürülüb... Bu işi birbaşa rəsmi şəkildə Amerika hökuməti özü icra edib (Martha Place-1899)



**Elektrikli masada ilk edam edilmiş qadın 1899-cu ildə Martha Place adlı psixi bir xəstə olmuşdur. O sona qədər cinayəti boynuna almasa da, psixoloji vəziyyəti nəzərə alınmadan Nyu-York məhkəməsi onu edam etmişdir.**

Martha Place-Sing Sing Prison, Ossining, New York, U.S.A 1899

Bunlar tarixdə adları bilinən bir neçə qadının faciəsidir. Bəs bilmədiklərimiz?!...

Alice Seeley Harris tərəfindən 1904-cü ildə çəkilmiş məşhur bir foto var; Nsala isimli bir konqolu qul 5 yaşlı qızının kəsilmiş əl-ayağına baxır.



**Nsala isimli konqolu kəndlinin önündəki ayaq və əl 5 yaşlı qızının belçikalılar tərəfindən kəsilmiş əzalarıdır. Foto Alice Seeley Harris tərəfindən 1904-cü ildə çəkilib. Əzaları kəsildikdən sonra anası ilə birlikdə öldürülən həmin qızın "günahı" ona tapşırılan işi vaxtında bitirə bilməməsidir.**

Father stares at the hand and foot of his five-year-old, severed as a punishment for failing to make the daily rubber quota. Congo, 1904

Onun ağlı kəsməyən 5 yaşlı körpəsi və həyat yoldaşı tarlada az işlədikləri üçün belçikalılar tərəfindən əzaları kəsilərək öldürülüb. Biz həmin körpə qızın və anasının adlarını bilməsək də, Konqoda bu formada milyonlarla qadının öldürüldüyünü bilirik.

Avropa birliyində yaşayan 450 milyon insanı təmsil edən Avropa Parlamenti bugün həmin Belçikada yerləşir və hər gün dünyaya qadın haqları barədə məruzələr edir...

Daim qadın haqlarından danışan qərb qadına çılpaqlıq “hürriyyətindən” savayı nə verib axı?!...

Ümumiyyətlə çılpaqlıq özü hürriyyətdirmi?!...

Çılpaqlıq hürriyyətdirsə ən hürr varlıqlar da heyvanlar və lüt gəzən Afrika qəbilələri deyilmi?!... Onlar ki, ümumiyyətlə geyinmirlər...

İslamın diri-diri basdırılan qadına verdiyi yaşam haqqı ortadadır və dünyadakı heç bir ideologiya qiyamət gününə qədər qadına bundan daha artığını verə bilməyəcək.

Bugün islam düşmənlərinin “islam qadınların azadlıqlarını əllərindən alır...” və s. iftiralarının hamısını qəbul etsək belə, yenə də islamın qadına verdiyi yeganə yaşam haqqı, bütün “aldıqlarının” fövqündədir.

Çünki məntiqdə var olmaq istənilən halda yoxluqdan üstündür...

Allah islam dinini nazil edərkən qız uşaqlarını diri-diri basdırmağın nə qədər çirkin bir əməl olduğunu başa salmaq üçün bu işi edənə deyil, öldürülən qıza xitabən;

**“Səni hansı günahına görə öldürdülər?!...” dedi. (Təkvir 9)**

Bu bilirsinizmi nə deməkdir?

Yəni Uca Allah bu işi görənləri özünə muxatəb belə görmür...

Yəni hər günahı edən dəstəyə “bu işdən çəkinin” deyə xitab edən Allah, bu alçaq dəstəyə xitab belə etmək istəmir..

Yəni bir qız uşağını diri-diri basdırmaqdan daha ağır bir günah ola bilməz...

Allahın rəsulu “Övladlarınız arasında ayrı-seçkilik salmayın, əgər ayrı-seçkilik salası olsam, mən qız uşaqlarını üstün tutaram...” deyən zaman peyğəmbərimizə cəmiyyət “dəli” deməyə başlamışdı...

Peyğəmbər bucür məsələlərə görə o qədər təkləndi və təzyiqlərə məruz qaldı ki, nəhayət Uca Allah öz Peyğəmbərinin müdafiəsinə qalxaraq buyurdu;

**Peyğəmbəriniz dəli olmayıb. Bu dedikləri yalnız aləmlər üçün bir öyüd-nəsihətdir...**

**Təkvir 22-27**

**Yalan 21**

**• Hacı Qasim ermənilərі dəstəkləyib**




Hacı Qasim şəhid olduqdan sonra bir şəkil ortaya çıxdı. Xocalıda xalqımıza divan tutmuş erməni terrorçu Monte Melkonyan və iranlı general Qasim Süleymani...

Öz düşmənini tanımayan sadəlövh insanlar da sionist İsrailin tapşırığı ilə bu şəkili tirajlayan saytlara inandı. Google-da Monte Melkonyan yazmaq zəhmətini belə çəkmək istəməyən insanların buna inanması əslində normaldır. Amma Melkonyan yazanların qarşısına tamam başqa mənzərələr çıxdı. Homoseksual Monte Melkonyan



Türkiyədə adına abidə qoyulan Monte Melkonyan və s.



Türkiyənin Tunceli bölgəsində Monte Melkonyanın xatirəsinə qoyulmuş abidə

Bu hadisənin üstündən aylar keçdi və Melkonyan məsələsi Livanda partlayışla bərabər yenidən gündəmə gəldi. Xalqımıza qarşı terror törətmiş Melkonyan sən demə livanlı imiş... Hər fürsətdə İsrailə qarşı olan ölkələri (İran, Livan, Suriya, Fələstin) erməninin dostu göstərmək bizim mediamızın köhnə adətidir. Monte Melkonyan bu dezinformasiyaları yayanların demokratiya beşiyi adlandırdıqları ABŞ-ın Kaliforniya ştatında dünyaya gəlib, Livanda yox... Kişi sevgilisi olub. Bu barədə ermənilərin Armenian LGBT xəbər portalı məlumat yayıb. Əsas fəaliyyəti Parisdə olub. Müxtəlif terrorlar həyata keçirib və Fransa hökuməti Melkonyana bir şey edə bilməyib. Sonra Qarabağa gəlib və 1993-cü ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən əbədi qalacağı məkana-cəhənnəmə vasil edilib.

Hacı ilə birgə şəkili paylaşılan şəxs isə Suriyada Hz.Zeynəbin məzarını vəhhabilərdən qoruyarkən şəhadətə çatan Muhəmmədhuseyn Muhəmmədxanidir. İranın Yəzd şəhərindəndir. Hacı Qasim ona Suriyanın İbrahim Himməti deyirdi. Himmət kimi əxlaqı və şücaəti var idi. Hərəm müdafiəçisi olmamışdan əvvəl inşaat mühəndisliyini oxumuşdu və ailəsi onun şirkət qurması üçün lazım olan bütün sərmayəni hazır etmişdi. O isə müqəddəs müdafiəni seçdi və şəhadətə çatdı...

Hacı Qasim İsrailə işləyən mediamızın tirajladığı “Azərbaycan düşməni, erməni dostu” yalanlarının əksinə olaraq bizləri sevən biri olmuşdur.

1918-ci ildə Osmanlının diktəsi ilə İrəvanı rəsmi şəkildə ermənilərə verən “Türkçülər” 1990-cı illərdə də Qarabağı Türkiyənin diktəsi ilə birdəfəlik ermənilərə vermək istəyirdilər. İrəvanın ermənilərə verilməsi xəyanətinə “Azərbaycanın mövcudluğu sual altında idi, Azərbaycan buna məcbur idi” və s. cümlələrlə haqq qazandırmağa çalışanlar, 90-cı illərdə Qarabağın ermənilərə rəsmi şəkildə verilmək istənməsinə heç cür haqq qazandıra bilmirlər. Çünki həmin xain ünsürlər Qarabağı sadəcə olaraq Zəngəzurdan keçən bir asfalt ilə barter etmək istəyirdilər. Bu asfalt bizi Türkiyə ilə birləşdirəcəkdi... Əgər bu müqavilə imzalansaydı nə baş verəcəkdi?

Biz İrəvanı rəsmi şəkildə itirdiyimiz kimi, Qarabağı da birdəfəlik rəsmi şəkildə itirəcəkdik və indi ən yaxşı halda İrəvan üçün işlətdiyimiz bu ifadəni Qarabağ üçün işlədə biləcəkdik “ora da bizim tarixi torpağımız olub...”

Dünyada “ora da bizim tarixi torpağımız olub...” cümləsinə isə heç nə vermirlər. Biz buna 44 günlük müharibədə Ermənistandan Gəncəyə raket atılanda cavab verə bilmədiyimiz zaman şahid olduq. “Ora da bizim tarixi torpağımız...” olsa da 1918-ci ildə rəsmi olaraq ermənilərə verdiyimizə görə artıq orada bir dövlət qurulmuş və bu dövləti dünya bir ölkə kimi tanımışdır. Əgər Qarabağ işğal olunmasaydı və İrəvan kimi ermənilərə rəsmi sənədlə verilsəydi, biz bugün Qarabağdan atılan raketlərə də cavab verə bilməyəcəkdik. Onlar da rəsmi dövlət olaraq Ermənistan kimi KTMT adlı bir təhlükəsizlik təşkilatına qoşulacaq və dünyaya özünü suverən bir dövlət kimi göstərəcəkdilər...

Müharibə vaxtı fikir verdinizsə, dünyada bizə dəstək verir kimi təqdim edilən bütün ölkələrin dəstəyi “Azərbaycan BMT qətnamələrinə uyğun olaraq öz işğal olunmuş torpaqlarını azad edir” şəklində oldu. Biz əgər 1990-cı ildə Qarabağı rəsmi olaraq Zəngəzurdakı bir asfalt ilə barter edib ermənilərə versəydik, BMT o qətnamələri də qəbul etməyəcəkdi və əksinə bugün oranı azad etdiyimiz üçün bizə qarşı həmin qətnamələri qəbul edəcəkdi...

Sadə bir misal; Bugün tarixi torpaqlarımız olan İrəvana qarşı hərbi əməliyyatlara başlasaq hansısa bir ölkə bizə dəstək ola bilərmi? Heç vaxt.

Hacı Qasimin Azərbaycana ən böyük xidməti Qarabağın asfaltla barterinə mane olması idi... Təbii ki, burda İranın özünün geopolitik əsas marağı sərhəddində xırda, marionet, kukla dövlətlərin yaranmasının qarşısını almaq olmuşdur. Ümumiyyətlə İran bölgə ölkələrinin parçalanması və xırda dövlətlərə bölünməsini Amerika siyasəti hesab edir və Amerikanın belə cırtdan dövlətlər üzərində güclü nüfuza sahibi olacağı ehtimalını göz önünə alaraq qarşı çıxır. Suriyanın parçalanmasının qarşısını da bu səbəbdən aldı. Bugün Türkiyə ilə PKK'a qarşı mübarizə aparmasının əsas səbəbi də Türkiyənin bölünərək iki dövlətə ayrılmasını istəməməsidir. İran bölgədə separatçılıqla mübarizənin əsas təminatıdır!

Hacı Qasimin həyatı boyunca ermənilərlə heç bir əlaqəsinin olmadığını, şəhid olduqdan sonra belə dezinformasiyaların ortaya atıldığını əslində hər kəs görür və bilir. Bir qrup insan sadəcə olaraq içindəki nifrət səbəbindən özünü belə yalanlara inandırmağa çalışır. Yalanları ifşa etməyimiz aldanmış insanları ayıltsa da, həmin insanlar üzərində heç bir təsirə malik ola bilməz. Uca Allah Qurani-Kərimdə onlar barədə belə buyurur;

**Ya Rəsulum! Sən onların doğru yola gəlməsini həddindən artıq istəsən də, Allah yoldan çıxartdıqlarını əsla doğru yola salan deyildir. Onları İlahi əzabdan xilas edən də olmayacaq...**

**Nəhl 37**

## Yalan 22

**• İran həmişə bizə düşmən olub**




Gəlin əvvəlcə məsələyə geniş bucaq altından baxaq, ən azından baxmağa çalışaq.

İnqilabdan bugünə qədər keçmiş 40 il ərzində İran düşmən dediyi ölkələrə münasibətdə ən yüngül formada güzəştə gedibmi?!

Yəni nəsə dəyişibmi İranın ABŞ, sionist İsrail və bir qrup qərb ölkələrinə münasibətində?

Hər kəs İranın düşmənlərinə qarşı mövqeyində tutumunu görür və kimsə iddia edə bilməz ki, İran dünən Amerika səfirini əsir almışdı, bugün yenidən öz torpağında ABŞ üçün səfirlik açıb...

İndi isə gəlin dünyadakı digər dövlətlərin son 40 il ərzində bu şahmat oyununda etdiyi gedişlərə baxaq... Nələr dəyişməyib bu 40 il ərzində? Çox uzağa getmək lazım deyil. Təkcə Türkiyənin son 40 il ərzində Azərbaycana qarşı 40 dəfə dəyişən mövqeyini misal gətirsək kifayət edər...

Elə Azərbaycanın özünün 30 il əvvələ qədər ermənilərə qarşı 180 dərəcə dəyişən mövqeyi bu məsələ üçün ən gözəl misaldır.

İran öz xarici siyasətini düşmən dediyi ölkələrə düşmənçilik mövqeyindən qurur və dəyişməz, löngər vurmayan xətt ilə irəliləyir. İranda nə zaman islam inqilabı olub?-1979-cu ildə. Biz nə zaman müstəqil olmuşuq? 10 il sonra. Yəni biz, bizdən 10 il əvvəl 2500 illik Şahı devirmiş, üstündən 8 il 30 ölkə ilə müharibə apararaq 1 qarış torpaq itirməyən bir ölkə ilə qonşuyuq. Üstəgəl; Bu ölkə hər cəhətdən bizdən irəlidədir (əhali, ərazi, təbii resurslar, səhiyyə, hərb, iqtisadiyyat və s.)

İndi düşünə bilən ağıl sahiblərinə bir sual veririk. Kim kimə uyğun xarici siyasət qurmalıdır? Biz İrana, ya İran bizə? Sualımızı çox sadə bir misalla da izah edək; Biz atdığımız addımlarda Rusiyanı nəzərə almalıyıq, ya Rusiya xarici siyasətini bizə uyğun qurmalıdır?

Yəqin ki, cavaba ehtiyac yoxdur...

İndi gəlin öz ölkəmizə nəzər salaq;

Azərbaycan-Heç bir ölkə ilə problem yaşamamaq üçün heç bir təşkilatı terrorçu qruplar siyahısına salmayan və rəsmi olaraq ən hannibal terror təşkilatlarına belə terror təşkilatı deməyən ölkədir... Məsələnin sərhəddini bir misal ilə izah edək; Biz ölkəmizdə terror törətmiş ASALA quldur erməni təşkilatını belə terror təşkilatı kimi tanımayan bir ölkəyik...

Azərbaycan-Heç bir ölkə ilə problem yaşamamaq üçün tarixdə baş verən heç bir qətliamı rəsmi şəkildə soyqırım kimi tanımır...

Bunlar "balanslaşdırılmış siyasətin" meyvələridir.

Bəs bütün bu "balans siyasəti" fonunda Azərbaycanın İrana qarşı tutduğu mövqe nə qədər balanslıdır?

Məsələn Azərbaycan İranın 1 nömrəli düşməni olan İsrail ilə dünyada ən güclü iqtisadi əlaqələrə malik olan müsəlman ölkəsi olaraq nə qədər balanslı siyasət həyata keçirir İrana qarşı?

Bu suala da cavab yazmağa ehtiyac yoxdur. Artıq hər kəs beynində cavabı tapıb...

Növbəti sual; Azərbaycan bu tutumu qarşısında İrandan nə gözləyir?

Azərbaycan İrandan nə istəyir?

Biraz da dərinə gedək, ümumiyyətlə Azərbaycan nə istəyir?

"RUSİYA! Sən düşmənimizsən, bizi işğal etmisən, bizi qırmısan, tezliklə parçalanacaqsan" deyib, sonra "niyə erməniyə yardım göndərirsən Rusiya?" demək absurd olduğu kimi, "İRAN! Sən bizim düşmənimizsən, 40 milyon türkü əsir etmisən, Cənubi Azərbaycanı işğalda saxlayırsan... Sən məhv olacaqsan, parçalayacağıq səni, Qarabağı alaq, sonra Təbrizi alacağıq" deyib, sonra "niyə Qarabağda bizə yardım etmirsən İran?" demək də absurddur.

Azərbaycanın xarici siyasətində ən yüngül formada İranı vecə almaması və hətta zaman-zaman rəsmi olaraq düşmənçiliyini izhar etməsi fonunda İranın Azərbaycana qarşı mövqeyi nədir?!...

İran Qarabağ müharibəsində Azərbaycana ilk yardım edən ölkə olmuşdur...




İran Qarabağ müharibəsi bitdikdən 15 il sonra belə 50 min qaçqınımıza elə Azərbaycan ərazisində yiyə duran ölkədir...

# İranın 1993 - 1994-cü illərdə Azərbaycana humanitar yardımları




| | |
|---|---|
| **Çadır** | **10 000 ədəd** |
| **Ədyal** | **158 500 ədəd** |
| **Döşəmə örtüyü** | **10 800 ədəd** |
| **Qab-qacaq dəsti** | **9 900 ədəd** |
| **Rezin döşəmə örtüyü** | **26 600 ədəd** |
| **Ayaqqabı** | **118 - 307 dəst** |
| **Geyim** | **2700 dəst** |
| **Su tankerləri** | **12 ədəd** |
| **Ərzaq:** (un, düyü, çay-yağ, pendir kartof və s.) | **6104 ton** |
| **Yuyucu maddələri** | **500 000 ədəd** |

***İran Qızıl Aypara Cəmiyyətinin***
***Bakıdakı nümayəndəsi***
***Doktor Nəcəfzadə***

İran Əfqanıstandan mindən çox döyüşçünü Azərbaycana gətirən ölkədir...



İran generallarını təlim üçün Azərbaycana göndərən və bizə hərbi yardım edən yeganə ölkədir...



İran Qarabağı tək Azərbaycanın yox, islam dünyasının problemi kimi qəbul edən və işğalçı Artsax rejimi ilə heç bir iqtisadi əlaqələrə malik olmayan ölkədir...



İran Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini ilk tanımış ölkədir...




Еще до официального распада СССР, 12 марта 1991 г. Иран одним из первых признал Азербайджанскую Республику, а в середине августа 1991 г. президент Аяз Муталибов посетил Тегеран с первым официальным визитом. Три месяца спустя, в декабре 1991 г., состоялся визит иранского министра иностранных дел Али Акбара Велаяти в Баку. В результате стороны наладили первые дипломатические отношения, подписали ряд соглашений по политическому, экономическому и культурному сотрудничеству. Более того, по инициативе иранской стороны, был решен вопрос о приеме Азербайджана в Организацию экономического сотрудничества, в которую тогда входили Иран, Турция и Пакистан, а также в Организацию Исламская конференция.

Пытаясь еще больше сблизиться с Азербайджаном и закрепить свой успех, Иран решил сыграть более весомую роль в карабахском конфликте и взял на себя роль посредника. По его предложению лидеры Армении и Азербайджана встретились в мае 1992-го в Тегеране. Однако эта первая и единственная попытка посредничества закончилась для ирано-азербайджанских отношений катастрофой. Власти Азербайджана получили от Ирана заверения в том, что Армения не будет предпринимать

63



İranın İkinci Qarabağ müharibəsi zamanı Azərbaycana verdiyi dəstək isə bütün qonşu ölkələrin dəstəyindən daha təsirli və üstün idi.

Döyüşün ilk günündə Ali Dini Liderin nümayəndəsi Seyyid Əli Əkbər Ocaqnejad Azərbaycan hökümətinə müraciət edərək şəxsən özünün Qarabağda döyüşə hazır olduğunu bildirdi.

Amma media bunu yox, israilli nümayəndənin Gəncədə uçulmuş bir evə gül qoymasını göstərdi...

Halbuki Gəncədə ermənilərin terrorunu rəsmi bəyanat verərək ilk tənqid edən xarici ölkə nümayəndəsi də İranın səlahiyyətli səfiri Seyyid Abbas Musəvi idi...

Amma media bunu yox, Netanyahunun adından “Azərbaycanla müharibə edən heç bir dövlətə silah satmarıq” yalanını göstərdi...

Müharibə zamanı Ermənistana hava məkanını bağlayan tək ölkə də İran oldu...

Amma media Gürcüstanın öz hava məkanını ermənilərə silah daşınması üçün bağladığını göstərdi və sonra humanitar yardım adı ilə Gürcüstandan silah daşındığı ortaya çıxdı...

Ayətullah Xameneinin müşaviri Əli Əkbər Vilayəti dəfələrlə Qarabağ barədə lehimizə bəyənatlar verdi.

Amma media yalnız keçmiş israilli nazir Aviqdor Libermanın müsahibəsini və bizə “dəstək” verməsini tirajladı. Xalq isə heç bilmədi ki, bu adam bugün ümumiyyətlə İsraildə heç bir vəzifədə çalışmır...

İran prezidentinin nümayəndəsi Seyyid Abbas Əraqçi durdu Bakıya gəldi və “şəhidlərinizin önündə baş əyirəm” dedi.

Amma media heç bir əsası olmayan “İsrail Azərbaycanı dəstəkləyir” yalanını satdı... Millət isə heç bilmədi ki, Netanyahu ermənilərə humanitar yardım da təklif edib...

İranın ən böyük müctəhidlərindən hesab edilən Nasir Məkarim Şirazi bütün dünya müsəlmanlarını Qarabağ müharibəsində Azərbaycana dəstək verməyə çağırdı, İran Sepahının ən böyük generallarından Rəhim Noyi Əqdəm Azərbaycan tərəfinin icazəsi olarsa Qarabağdakı əməliyyatlarda iştrak etməyə hazır olduqlarını bildirdi.

Amma media Pakistanın Baş Naziri İmran Khanın adından “Ermənistanı yer üzündən silərik” yalanını tirajladı.

İranın prezidenti Həsən Ruhani Qarabağ münaqişəsi barədə danışarkən “Azərbaycan qardaşımız, Ermənistan isə sadəcə qonşumuzdur” dedi.

Amma bütün media qurumları xalqa Həsən Ruhaninin çıxışının bu hissəsini kəsərək təqdim etdi...

Bəziləri də İranın dəstəyini gördükdən sonra verəcək cavablarının qalmadıqlarını görüb “Ayətullah Xamenei niyə indi dəstək olur, 30 ildir harada idi?” deyir.

Onlar əvvəlcə gərək bu sualı özlərinə versinlər ki, 30 ildir harada idilər?!...

İran bizlər üçün Horadizi alanda görəsən bugün bu çərənləyənlər harada idilər?!...

Elə bugün guya haradadırlar ki?!..

Səsləri cəbhələrdən yox, sosial şəbəkələrdən gəlir..

30 il əvvəl də səsləri cəbhələrdən gəlmirdi...

**Əgər Biz onlara mələkləri nazil etsək, ölülər onlarla danışsa və istədikləri bütün şeylər qarşılarında dəstə-dəstə toplansa, onlar yenə də haqqı qəbul etməyəcəklər...**

**Ənam 111**

## Yalan 23

### • Hicab milli deyil




Azərbaycanda baş örtüsündən istifadə edən insanlara sinəsi, dizdən yuxarı ayaqları və bədəninin əksər hissəsi çöldə qalanların kənar təsirlərə məruz qalmış şəxslər kimi baxması nə qədər gülüncdür...

Kənar təsirə məruz qalan bədəninin əksər hissəsini açmış Azərbaycan qadınıdır ya örtmüş? Məgər biz dünyaya öz milli geyimimizi təqdim edərkən qadınları uzun ətək, uzunqol köynək və kalağayıda nümayiş etdirmirikmi? Xüsusilə Kalağayı Azərbaycanın dünya brendlərindən sayılır və milli tərzdə hazırlanan Kalağayılar sərgi-satış nöqtələrində çox baha qiymətə təqdim olunur. Kalağayı baş örtüsü deyilmi?!...

Ümumiyyətlə tarixdə hansı Azərbaycan qadını baş örtüsüz təsvir olunmuşdur?

Siz indi hicaba (baş örtüsünə) dil uzadarkən niyə vətənpərvər görünmək üçün “bu bizim milli geyim deyil, yad mədəniyyətlərin geyimidir” və s. deyirsiniz? Nədir milli geyim? Döşünüzü və yalnız ifrazat orqanlarınızı iki kiçik parça ilə örtdüyünüz o əyninizdəki əsgilər? Selolitli baldırlarınızı nümayiş etdirmək üçün geyindiyiniz və əyləşəndə aşağı dartışdırdığınız o qısa parça? Ya qat-qat piy bağlamış qarnınızı ac itlərin tamah salması üçün çöldə qoyduğunuz o göbəyi açıq köynəklər?

Baş örtüsü, geyinərkən əzaları örtmək bizim milli adət-ənənəmizdir. Biz məgər hanniballar kimi lüt gəzirdik, ərəblər və iranlılar bizə paltar geyinməyi öyrətdi?

Milli olan şeylər hansısa məmur və yaxud qanun tərəfindən xalqa əsla qadağan edilə bilməz. Xüsusən də məktəblərdə şagirdlərə kimsə baş örtüsündən istifadəni qadağan edə bilməz. Millət öz keçmişindən stimul alaraq irəliyə doğru addımlamalıdır. İrəliyə getmək, inkişaf etmək üçün də soyunmaq lazım deyil.

1998-ci ildən etibarən, ölkəmizdə hicablı fotoşəkilli sənəd almaqla bağlı problemlər yaşanmağa başlamışdır.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyası və ölkəmizin qoşulduğu beynəlxalq müqavilələr birmənalı olaraq hicablı foto ilə pasport almağı təmin edir.

O cümlədən:

Azərbaycan Konstitusiyasının müvafiq maddələri vicdan azadlığına zəmanət verir:

**Maddə 48. Vicdan azadlığı**

I. Hər kəsin vicdan azadlığı vardır.

II. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

**Maddə 71. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı**

II. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz.

IV. Heç bir halda heç kəs din, vicdan, fikir və əqidəsini açıqlamağa məcbur edilə bilməz və bunlara görə təqsirləndirilə bilməz.

V. Bu Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz.

Bundan əlavə, Azərbaycan hökumətinin qoşulduğu BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında Paktında (maddə 18), BMT-nin İnsan Haqları Ümumi Bəyannaməsində (maddə 18), İnsan Haqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasında (maddə 9) birmənalı olaraq, dini etiqad azadlığı, o cümlədən hicab azadlığı birmənalı surətdə təsdiqlənir.

Lakin, bununla bağlı tənzimləyici qanunvericilikdə papaqla şəkil çəkdirməyi yasaqlayan norma öz əksini tapmışdır. Təəssüf ki, praktikada bu norma təkcə papağa deyil, hicaba da şamil edilir.

Pasport və şəxsiyyət vəsiqəsinin verilməsinə məsul olan məmurlar, həmin normativ sənədlərə istinad edərək, sənəd qəbulu prosesində hicablı fotoları qəbul etməkdən imtina edirlər və təbii ki, bu hal, inanclı insanların haqlı narazılığına səbəb olur.

1999-cu ildə birinci və ikinci instansiya məhkəmələri pasportda hicablı fotoşəkilə malik olmaq hüququnu təsdiq etsə də, Ali Məhkəmə səviyyəsində buna xitam verildi.

Beləliklə, 20 ildən artıq bir müddətdir ki, sənədlərdə hicab məhdudiyyəti davam edir.

Yeni biometrik sənədlərin verilməsi mövzusu, məsələnin müsbət tərəfə dəyişməsinə böyük ümid yaratdı.

Eləcə də, əksər Avropa ölkələrində, habelə Rusiya, Ukrayna, Pribaltikada hicablı fotoşəkilli sənədlərin verilməsinə qanunvericilik səviyyəsində təminat, bu müsbət praktikanın Azərbaycana da sirayət etməsi ilə bağlı gözləntiləri ərsəyə gətirdi.

Yəni, biometrik sənədlərə keçid, hicablı fotoşəkilli sənədlərə icazə verilməsi məsələsini çox asanlaşdıraraq, texniki həll müstəvisinə keçirdi. İndi artıq normativ sənədlərə sırf texniki düzəliş etməklə, 20-illik problemin köklü həllini təmin etmək olar.

Təssüflər olsun ki, bu problemin həll olunmasını istəməyən qüvvələr var və onlar zaman-zaman məktəb direktorlarına da hicablı şagirdlərin təhsil müəssisələrinə buraxılmaması barədə göstərişlər verirlər. Yəni, 50 il əvvəl Türkiyədəki “hicab problemi” proseslərini Azərbaycanda təkrarlamağa çalışırlar. Onlar Türkiyədə istəklərinə nail olmadıqları kimi, bunlar da Azərbaycanda nail ola bilməyəcəklər.

**Kafirlər istəsə də, istəməsə də Allah öz nurunu tamamlayacaqdır...**

**Tövbə 32**

**Yalan 24**

**• Azad media**



Heç düşünmüsünüzmü ki, bir qəzet 20 qəpiyə satılırsa, bu qəzetin rəhbərliyi və işçiləri bu 20 qəpikdən nə xeyir əldə edirlər?!... Axı 20 qəpik heç o qəzetin səhifələrinin xərcini ödəmir... İşlətdiyi xammalın xərcini ödəyə bilməyən müəssisələr, görəsən işçilərinin maaşlarını necə ödəyirlər?!...

Bu eynilə 1 kiloqramı 14 manata satılan mal ətinin, kolbasasının 6 manata satılmasına bənzəyir.

Biz kolbasa ilə mal ətinin qiymətindəki uyğunsuzluğu görüb şübhələnirik deyilmi?!...

Bəs qəzetin 20 qəpiyə satılmasını niyə adi qəbul edirik?!...

Eyni məsələ bugün bütün dünyanın əsirinə çevrildiyi facebookdakı böyük auditoriyası olan səhifələrə də aiddir. Nəzərə alın ki, facebook 1 dollar ilə səhifəyə 30 yeni abunəçi gətirir. Sonra isə paylaşılan xəbəri həmin kütləyə çatdırmaq üçün yenidən pul tələb edir... 2 milyon üzvü olan Bizim Yol kimi səhifələrin həmin abunəçiləri hansı pul ilə yığdığı və xəbəri o abunəçilərə hansı pul ilə çatdırdığı barədə düşünmüsünüzmü?!...

Bunlar nə qədər qazanırlar ki, bu iş üçün sərmayə olaraq on minlər, hətta yüz minlər xərcləyirlər?!...

Bütün media, KİV (Kütləvi İnformasiya Vasitələri) iki qrupa bölünür:

**1-Dövlət mediası**

**2-Özəl media.**

Əlbəttə ki, maliyyə mərkəzi dövlət olan qəzet, sayt, kanal və səhifələrin, pulu dövlətdən alaraq, dövlətin lehinə propaqanda apardıqları məlumdur.

Bu media istənilən bir məsələdə dövlətin qərarını dəstəkləyir. Bu medianın xalqa heç bir aidiyyatı yoxdur. Bu media zəif kütlələri, əzilən sinifi heç vaxt təmsil edə bilməz. Ümumiyyətlə onlar heç bu iddiada da deyillər.

Özəl media isə əksərən vətənpərvər simada özünü göstərir, bəzən dövlətin məmurlarını tənqid edir, xalqın çətinliklərini qabardır və s. Bir sözlə dövlət mediasından fərqli olaraq onlar "xalqın mediası" olduqları iddiasındadırlar.

**Bunu sorğulayacağıq!**

Biz istər dövlət olsun, istər özəl, bütün medianın rəqabət içində olduğunu görməkdəyik. Məsələn qəzetlər kim daha çox satacaq yarışı içindədirlər. Əvvəldə qeyd etdik ki, qəzetin satışı mütləq şəkildə qəzet rəhbərliyinin zərərinədir. Bu satış artdıqca zərər də böyüyür. Lakin israrla qəzet rəhbərliyi satışı artırmağa çalışır. Publikanın narkotikası sayılan şəhvətli şəkilləri ön səhifələrə vurmaqla kapitalistlərin birbaşa faydalanıb ləzzətini daddıqları çılpaq qadınları bizlərə seyr etdirir və beləcə zəif kütlələrə içində üzdükləri yoxsulluq və sıxıntıları unutdururlar...

Bu dediklərimiz kanal, sayt və səhifələrə də aiddir...

Bütün media mənsubları baxış sayını artırmaq üçün çoxlu pullar xərcləyirlər. Yuxarıda artan kütlə və izləyiciyə uyğun tələb olunan pulun miqdarını da qeyd etmişik.

Bu məqamda qəzetlərin, səhifələrin, kanalların daim divarlarında gördüyümüz mərc (qumar) reklamları ağlımıza gəlir.

Bəli bu medianın birinci maliyyə mərkəzidir. Özəl media bu reklam vasitəsilə özünə dayaq qazanır, dövlət mediası isə puluna pul əlavə edir...

Yəni ki, həm özəl media, həm də dövlət mediası, ilk növbədə mallarını reklam etdikləri kapitalistlərin xidmətindədirlər, xalqın yox!

Medianın ikinci və əsas maliyyə dayağı isə əfsuslar olsun ki, aşkarda yox, gizlindədir. Siz bir qəzeti əlinizə aldıqda divarında hansı şirkətləri reklam etməsi ilə xidmət etdiyi kapitalistləri təyin edə bilərsiniz. Amma onların ikinci əsas maliyyə dayaqlarını təyin etməyiniz üçün güclü siyasi analitik qabiliyyətə sahib olmağınız tələb olunur.

Xalqın mediası olduğunu iddia edən özəl medianın ikinci və əsas maliyyə dayağı iki qrupa ayrılır:

**1-Daimi maliyyə dayağı**

**2-Müvəqqəti maliyyə dayağı.**

Özəl medianın daimi maliyyə dayağı sizə hiss etdirmədən, üstüörtülü şəkildə təriflədiyi bir partiya, məmur yaxud hansısa ölkənin 5-ci kolon nümayəndəsidir. Həmin media bu sekta barədə heç vaxt tənqid yazmaz və bütövlükdə məqsədi onların təbliğidir.

Hansısa qurum, sekta, ideologiya, quruluş, məmur və dövləti pisləmək də həmçinin bu qəbildəndir və daimi maliyyə dayağı təmin edir.

Bəzən bu missioner medianın "mərc" reklamları belə sadəcə müstəqil media qurumu olduqlarını göstərmək və gözdən pərdə asmaq üçündür.

Çünki şirkət reklamları olmasa xalq istər istəməz bu özəl medianın digər maliyyə dayaqları olduğunu düşünməyə başlayacaq...

Medianın müvəqqəti maliyyə dayağı isə, çılpaq qadın rəsimləri hesabına topladığı kütlə ilə korrupsioner məmurları qorxudaraq tənqid olunmamaları üçün həmin məmurların zaman-zaman bu hiyləgər özəl mediaya müəyyən məbləğlər ödəməsi ilə yaranır. Tənqidi, yaxud ifşaedici bir görüntünü pul hesabına sildirmək də bu qəbildəndir...

Gördüyünüz kimi heç bir media qurumu xalqı təmsil etmir. Dövlət mediası, adından göründüyü kimi dövlətə xidmət edir. Özəl media isə dolayısı yol ilə, vətənpərvər masqası taxaraq soyğunçu kapitalistlərə və yaxud hansısa batil ideoloji təbliğata "maşalıq" funksiyasını yerinə yetirir. Onların əsas silahı isə şəhvətamiz görüntülər və pafoslu kəlmələrdir-azadlıq, demokratiya, insan haqları və s...

Bu məqalədə məqsədimiz "xalqın səsi" olduğunu iddia edən bütün özəl mediaların yalançı olduğunu sizlərə göstərmək idi.

Bəli həqiqi inanclı insanlar tərəfindən işlədilən və həqiqətləri insanlara çatdıran media qurumları da var. Amma bu media qurumları heç vaxt xalqın səsi olduqları iddiasını etməyiblər və açıq şəkildə öz inanclarını təbliğ etdiklərini də bildiriblər.

Xalqın səsi iddiası yalnız soyğunçu kapitalistlərə nökərçilik edən özəl media qurumlarının kamuflyaj vasitəsidir. Məşhur ingilis yazıçısı Samuel Johnson öz yazılarında əclaf insanların daim vətənpərvər görkəm almağa çalışdığını vurğulayır... Həqiqətən bugün biz özəl medianın ən mundar təbliğatları vətənpərvər şüarlar altında apardığını görməkdəyik;

Həcc zamanı: Həccdənsə öz xalqımızın kasıblarına əl tutun!

Aşura günü: Ərəbdənsə öz şəhidlərimizə ağlayın!

Mənim Kərbəlam Xocalıdır!

Öləndə Kəlmeyi-Şəhadət yox Azərbaycan deyəcəm! və s...

Yetişkin birinin həddi-büluğa çatmamış uşaqlara qarşı cinsi meyli pedofiliya adlanır. İslamın erkən evliliyə təşviq etməsini əllərində bayraq edən bəzi qruplar da dinimizin pedofiliyanı dəstəklədiyini iddia edirlər. Təbii ki, bu iddialar ya qərəz ucbatından ya da islam fiqhindən xəbərsizlikdən səsləndirilir. Həddi-büluğa çatmamış insanla cinsi əlaqəyə girməyə İlahi əzab vəd edən din pedofiliyanı necə dəstəkləyə bilər? İslamda cinsi istəklər yalnız evlilik yolu ilə ödənə bilər və evlilikdə ilk şərt də hər iki tərəfin həddi-büluğ oluşudur. Burada əsas problem özünü yer üzünün sahibi zənn edən yekəbaş qərbin onlara kölə olmuş müxtəlif dövlət rəhbərləri vasitəsilə dünya ölkələrində evliliyə konkret yaş təyin etməsidir. Fikir verin, insanı yaradan və onun hər ehtiyacından xəbərdar olan Uca Allah evlilik üçün xüsusi bir yaş təyin etmir. Çünki əqli və cinsi yetkinlik fərd və toplumlara görə dəyişən bir şeydir. Qərb dövlətləri isə bütün dünya xalqları üçün evlilik yaşı təyin edir-18. Bu həmin qərbdir ki, pedofiliyanı rəsmi şəkildə dəstəkləyən qurum və təşkilatlara da ev sahibliyi edir və riyakarcasına "islam erkən evliliyə icazə verməklə pedofiliyanı dəstəkləyir" deyib özünü paralayır.

**Yalan**




**Doğru**

**Pedofiliyanı rəsmi şəkildə dəstəkləyən təşkilatlara ev sahibliyi edən ölkələr;**

| | |
|---|---|
| Amerika | 1971 |
| Avstraliya | 1980 |
| Belçika | 1970 |
| Kanada | 1990 |
| Danimarka | 1985 |
| Fransa | 1979 |
| Almaniya | 1970 |
| İtaliya | 1993 |
| Hollandiya | 1979 |
| Britaniya | 1974 |

Qısacası, sən qərblisənsə, istənilən körpə uşaqla cinsi əlaqəyə girə biləcəyin haqqına sahib olduğunu dilə gətirə və təbliğ edə bilərsən... Müsəlmansansa, 18 yaşının tamam olmasına 1 gün qalmış biri ilə evlənməyin qadağandır. Dinin sənə bu haqqı verdiyini dilə gətirməyin isə cinayət sayılır.




Erkən yaşda evlilik mövzusu, son əsrlərdə, daha doğrusu, son on illiklərdə məşhurlaşmış və yayılmış müzakirə obyektidir. Bəli, nə qədər qəribə səslənsə də qız uşaqlarının tez evləndirilməsi "problemi" heç də qədim tarixə malik deyildir. Fikrimizi aydın şəkildə izah etmək istəsək deməliyik ki, qız uşaqlarının erkən yaşlarda ailə həyatı qurmasına qarşı sərgilənən qəti mənfi mövqeyi 2 və ya 3 əsr öncə görmək mümkün deyildir. Görəsən, bu addım və qız uşağının tez evləndirilməsi çox pis bir işdirsə, həmçinin, insan fitrətinə zidd və bəşəri hüquqa zərbədirsə, niyə görə babalarımız və hətta Avropadakıların da babaları bu sadə bir problemi anlaya bilməmişdilər? Yaxud niyə görə öz əziz balalarını göz görə-görə "bədbəxt" etmişdilər? Həmçinin, o "bədbəxt" qız uşaqları da ana olduqdan sonra öz uşaqlarını erkən evləndirmiş və bu adəti tərk etməmişdilər? Yəni, dünyanın bir çox yerlərində olan insanlar, dinindən, millətindən və irqindən asılı olmayaraq öz övladları ilə qəddarcasına davranmışdılar? Yoxsa, məsələnin içində bilmədiyimiz başqa

məqamlar vardır? Bəlkə dünyadakı yeni istismarçı qüvvələr son illiklərdə insanların beynini və zehnini bu mövzu haqqında da zəhərləyiblər? Onlar tarixi gerçəklikləri olduğu kimi paylaşmırlar və beləcə əcdadımızı təşkil edən bir çox tarixi şəxsiyyətlərimizin bir "heçə" çevrilməsini istəyirlər?

Bəli, onlar əzəmətli İslam Peyğəmbərini (ə) və islam şəriətini gözdən salmaq üçün müxtəlif cür iftira, hiylə və yalanlara əl atıblar və indi də öz işlərinə davam edirlər, lakin, heç düşünmüsünüz ki, eyni irad və irəli sürülən ittihamlar bir çox tarixi şəxsiyyətlərə də şamil olmaqdadır? Şərqin və qərbin neçə-neçə yazıb yaratmış və özündən sonra misilsiz töhfələr qoyub getmiş dahi insanları da İslam Peyğəmbərinə (s.ə) edilən töhmətə tuş gəlməkdədirlər? Əgər Hz.Muhəmməd (ə) qız uşaqlarının tez yaşda evlənməsinə rəsmi icazə vermişdi deyə tənqid edilirsə, bəs son iki əsrə qədər yaşamış və daim mədhlərlə yad edilən tarixi şəxsiyyətlər niyə tənqid edilmir? Evlənmə üçün yaş həddi təyin edən ilk qurumlar və onların rəhbərlərindən öncəki prezident, deputat və sair məmurlar niyə tənqid olunmur? Axı onların da qız uşaqları var idi və son on illiklərdə qəbul edilmiş çox sadə qərarları onlar da düşünə bilərdilər. Bəs niyə Amerikadan tutmuş Avropaya, Avropadan tutmuş Yaponiyaya qədər bu ərazilərdə yaşamış və qızların erkən yaşda evlənmə məsələsi beynəlxalq "problemə" çevrilənə qədər susan, bu halla razılaşan və heç bir təklif verməyən, əksinə, rəsmi olaraq bir çox bu cür hallara göz yuman ( və ya təbii baxan) dünya böyükləri, istər siyasi səhnədə olsun, istər ədəbi şəxsiyyətlər olsun, istər ictimai və sosioloji sahənin seçilmişləri olsun, niyə bu məsələdə onlara irad edilmir? Niyə onlara qarşı da kompaniya başladılmır? Bu necə ədalətdir? Bu necə mühakimədir? Niyə düşmənçilik yalnız əziz və əzəmətli İslam Peyğəmbəri (ə) ilə aparılır?

Bu verdiyimiz suallar sadəcə düşünən və insaf ilə nəticə çıxaran oxucuların dünyadakı qərəzli təbliğat və islam düşmənçiliyi siyasətinə dair təfəkkür etmələri üçün idi. İndi isə qız uşaqlarının erkən yaşda evlənməsi məsələsinin 3 sual ətrafında müzakirə edilməsinə keçək və mühüm olan bu 3 suala diqqət edək:

1) Qız uşaqlarının erkən yaşda evlənməsi tarixi olaraq nə vaxtdan qeyri-təbii və problemli şəkildə qarşılanmağa başladı?

2) Məgər dünyanın hər yerində olan qız uşaqlarının fizioloji inkişafı eyni cürdürmü? İsti və soyuq təbiətli torpaqların bu məsələyə təsiri yoxdurmu?

3) İslam Peyğəmbəri (s.ə) Aişə xanımı 9 yaşında öz nikahına keçirdiyi zaman ona indiki əsrimizdəki kimi irad və ittihamlar edilmişdimi?

Birinci sualın cavabını geniş şəkildə araşdırma apararaq vermək mümkündür, amma, bizim bu kiçik yazımızda toxunmaq istədiyimiz əsas məqam erkən yaşda evliliyin tənqid atəşinə tutulmasının qədim tarixə malik olmadığı həqiqətidir. Ətraflı təhqiq üçün tarixin hər dövründə, kiçikli və böyüklü əksər cəmiyyətləri nümunə göstərmək lazım gələcəkdir, nəticədə isə bu məqalə elmi bir işə çevriləcəkdir. Biz isə əsas olaraq bu məsələnin "problemə" çevrilməsinin tarixi kökünə işarə etmək istəyir və geniş bəhsi oxucuların öz öhdəsinə buraxırıq.

Qız uşaqlarının tez yaşlarda evləndirilməsi bizim məmləkətdə, istər Qacar və Səfəvi dönəmlərində, istərsə də Çar Rusiyasının dövründə olsun, adi bir hal idi. Yayılmış və təbii qəbul edilən ictimai bir həqiqət idi. Ulu babaları bu torpaqlarda böyümüş və vəfat etmiş istənilən şəxsin əcdadının həyatında bu adət öz əksini tapmışdır. Bu adətə və ictimai qanuna əməl etmiş kifayət qədər böyük şəxsiyyət kimi qəbul edilən insanlar vardır. Tək-tək ad gətirmək istəmədiyimizə görə oxuculardan sadəcə bir şeyi rica edirik ki, on yeddinci və on səkkizinci, hətta on doqquzuncu əsrlərdə yaşamış və cəmiyyətimizdə dahi və uca şəxs kimi qəbul edilən insanların anaları və nənələrinin evlilik yaşlarını araşdırsınlar. Böyük ərazilərə sahib Çar Rusiyası İmperiyasında da qız uşaqları erkən yaşlarda evlənirdilər. Dahi rus mütəfəkkiri və dünya şöhrətli yazıçı Lev Tolstoyun məşhur "Hərb

və Sülh" əsərində qeyd olunana əsasən (birinci cild, birinci hissə, on ikinci bölümdə) rusların ana və nənələri də 12-13 yaşlarında evlənirdilər. Nəzərə alın ki, bu əsər on doqquzuncu əsrin altımışıncı illərində qələmə alınmışdır və 1805-1812-ci illər arasındakı hadisələri təsvir etmişdir. Yəni, cəmi iki əsr öncə və hətta bu əsərin şöhrət tapdığı yüz əlli il öncəki dönəmdə qız uşaqlarının erkən evliliyi çox təbii qarşılanmaqda idi. Avropa tarixini araşdırdıqda da eyni nümunə və misallar qarşınıza çıxacaqdır.

İndi isə bir məsələyə də işarə etmək istəyirik ki, insan həyatı 19-cu əsrdən başlayaraq sənayeləşməyə doğru irəlilədikcə və kəndlərdən şəhərə doğru insan axını çoxaldıqca, təbii olaraq kütləvi şəkildə insanın fiziki vəziyyəti də bundan öz mənfi təsirini almağa başlamışdır. Təmiz hava və torpaqla ünsiyyətdən məhrum olan əksəriyyət insanların övladları da fiziki inkişafda geriləməyə başladılar və hər 25 ildə yeni bir nəsil dünyaya gəldikcə bu fiziki geriləmə iyirminci əsrdə özünü bariz formada hiss etdirdi. Sənayeləşən, hər şeyin zavod və fabrikdə formalaşdığı bir cəmiyyətdə sağlam bədən göstəriciləri əməllicə azalırdı. Zatən o gündən bu günə sağlamlıq göstəriciləri azalmaqdadır və müasir insan hər problemi texniki yolla həll etməyə çalışan (sanki) hərəkətsiz bir varlığa çevrilmişdir. Hələ yüz il öncə Teodor Drayzer (Cenni Herhardt əsərində) xüsusi vurğu ilə qeyd edirdi ki, insanın beyni bu qədər məlumatı (o vaxt yalnız qəzet, şəhərdə telefon butkaları, poçt qutuları və teleqraflar var idi) əldə etməklə yüklənir və sonda bunun fəsadları aşkar olur. İndiki şəraitdə isə Drayzerin nəzərində artıq olan məlumat yükünün miqdarı yüz dəfələrlə çoxalmışdır. Şübhəsiz ki, bu vəziyyətdə insan sağlamlığı da zədə görmüşdür və yetkinlik yaşının gecikməsi də baş tutmuşdur. Bu tarixi həqiqəti və acı gerçəkliyi nəzərə aldığımız zaman başa düşülür ki, niyə görə 2 və 3 əsr əvvəl qız uşaqlarının, hətta oğlan uşaqlarının da erkən yaşda evləndirilməsi təbii qəbul edilirdi. Çünki, o zaman insan cəmiyyətində şəhərlərə axın prosesi zəif idi və həmçinin, şəhərlərdə sənayeləşmiş bir ab-hava yox idi. Təmiz hava və sağlam əmək sayəsində insanların səhhəti də indikindən qat-qat daha gözəl və salim idi. Uşaqlar da daha tez inkişaf edir və daha tez yaşda evlənməyə qabil durumda olurdular.

İkinci suala gəldikdə isə ona da qısa şəkildə cavab vermək istəyirik və uzun araşdırmanı oxucuların öz öhdəsinə buraxırıq. İl boyunca havaların isti olduğu torpaqlarda həm oğlan, həm də qız uşaqlarının inkişafı nisbətən soyuq torpaqlar ilə müqayisədə daha tez və daha sürətli şəkildə baş verir. Müasir təcrübələr də bunu rahatlıqla sübut edir ki, isti torpaqlardakı uşaqlar daha tez böyüyürlər. Oğlanların 12-13 yaşda ikən gözəçarpan bığa sahib olmaları, qızların da 11-12 yaşında menstruasiya olmaqları isti iqlimlərdə təbii prosesdir. Yaş məsələsinə daim irad edənlərin məhz həmin isti torpaqlarda böyümüş 10-15 yaş arası insanlara ilk baxışda düzgün qiymət verə bilməməsi və təxmini yaş ehtimallarının əksər vaxtı səhf çıxması, heç də təəccüblü deyildir.

İndi isə keçək sonuncu sualın cavabına. Əziz islam Peyğəmbəri (ə) aşkar təbliğə başladıqdan dərhal sonra öz qövmünün və Məkkə əhalisinin böyükləri ilə üzbəüz dayanası oldu. Bu acı qismət bütün ilahi peyğəmbərlərin nəsibidir. İstənilən cəmiyyətdə onları Allaha dəvət edən və pisliklərdən çəkindirib ilahi əzabla qorxudan hər bir şəxs, istər peyğəmbər olsun, istərsə də olmasın, öz qövmünün varlıları və rifah içində yaşayanları ilə rəqib olmuşdur və olmaqdadır. Çünki, axirətlə qorxudan və ilahi hökmləri bəyan edən hər bir insan müstəkbirlər üçün əngəl, maniə və düşməndir. Varlı, zalım və insanları öz əmri altında görmək istəyən quldar ruhlu cinayətkarlar cəmiyyətin həqiqi və ən böyük oğrularıdırlar. Onlar hər kəsdən oğurlayır, xoşlarına gəlməyən şəxsləri həbs edir və ya ortadan qaldırır, istənilən iqtisadi cinayəti gerçəkləşdirir və istənilən cəriməni tətbiq edirlər. Cəmiyyətdə sevilən və istədikləri cəzanı (onu sevənlərdən çəkindikləri üçün) tam verə bilmədikləri şəxsə isə şər, böhtan atmağa, onu yalan iddia və töhmətlərlə ləkələməyə çalışırlar.

Bəli, əzəmətli islam Peyğəmbəri də eyni hadisələrlə üzləşdi. 43 yaşına kimi ona inanan, əmanətlərini çox rahat qəlblə ona tapşıran, sözünü təsdiq edən və ona "əmin Muhəmməd" (ə) deyən insanlar və Məkkə əhalisinin böyükləri onu təkzib etdilər. Ona "dəli şair", "sehrbaz", "əbtər(sonsuz, nəsli kəsilmiş)" və sair bu kimi sözlərlə ləkə gətirmək istədilər. Ona iman gətirmiş və gücü olmayan əksər insanlara dəhşətli zülmlər etdilər, amma, bununla ürəkləri sakit olmadı. Onları Əbutalib dərəsində iqtisadi blokadaya saldılar, lakin, əzmlərini qıra bilmədilər. Digər məkkəlilərin Hz.Muhəmmədə (s) qoşulmaması üçün onun barəsində ən kiçik detalı belə qaçırmırdılar. Peyğəmbərin (s) oğlan övladları tez dünyasını dəyişdiyi üçün vicdansız və insafsız şəkildə ona "əbtər" deyəcək qədər alçaldılar. Dünənə kimi əmin dedikləri və etibar etdikləri insana bu gün dəli deyəcək qədər tənəzzül etdilər. Bir sözlə, hər bir böhtan və töhmətə baş vurdular, amma, icazənizlə gəlin bu "AMMA" -nı böyük hərflərlə yazaq və təkidlə soruşaq ki, bəs o cür alçalan və vicdansızlıq edən şəxslər niyə Hz. Muhəmmədin (s.ə) 9 yaşlı bir qızla evlənməsinə bir kəlmə belə olsun etiraz etmədilər? Niyə görə Zeydin boşadığı xanımı aldığı üçün islam Peyğəmbərinə (s) qarşı çıxanlar Aişə xanımla izdivac etdiyinə görə ona heçnə demədilər? Cəmiyyəti tərəfindən, hətta düşmənləri tərəfindən də bir kəlmə belə olsun etiraz və tənqid eşidilməməsi bizə nədən xəbər verir? O dövrdə müsəlmanlarla mübarizə aparan yəhudilər, nəsranilər, rumlular və digər millətlərdən olan kəslər belə bu məsələ barəsində niyə susmuşdular?

Təbii ki, cavab çox sadədir. Erkən yaşda evlilik məsələsi müzakirə mövzusu deyildi və o zaman isti ərəb torpaqları ilə yanaşı qonşu ərazilərdə də qızların 9 yaşına çatması kifayət edirdi ki, əksər hallarda fiziki inkişaf gerçəkləşmiş olsun. On dörd əsr öncəsinə getməmişdən qabaq yaxın iki-üç əsri araşdırmaq (ilk iki sualda bunu kiçik təhlil etdik) belə kifayətdir ki, məsələnin mahiyyətinə varmaq mümkün olsun və müasir islam düşmənlərinin hiyləsi başa düşülsün...

Evlilik insan həyatının ən mühüm və ən həssas mövzularındandır. Hətta o qədər zəruri bir məsələdir ki, müqəddəs kitabımız olan Qurani-Kərimdə Allah insanları evlənməyə təşviq edərək buyurur:

**(Ey gənclərin ixtiyar sahibləri) subay kişilərinizi və ərsiz qadınlarınızı, eləcə də qul və kənizlərinizdən evlənmək iqtidarında olanları evləndirin. Əgər yoxsul olsalar, Allah onları Öz lütfü ilə dövlətli edər. Allah sonsuz genişlik sahibi və biləndir. (Nur, 32)**

**Yaxud Həzrəti Peyğəmbər (s) buyurur:**

**"Evləmək mənim sünnəmdir (yolumdur) və evlənməyən şəxs mənim ümmətimdən deyil".**

Bəs, görəsən, bizi özümüzdən daha yaxşı tanıyan Allah evliliyə bu qədər təşviq etdiyi halda evlənmək üçün niyə xüsusi bir yaş təyin etmir?!...

Qurani-Kərimə nəzər saldıqda görürük ki,  evlilikdə Allah-təala həddi-büluğa çatmağı şərt bilir:

وَابْتَلُوا الْيَتَامَىٰ حَتَّىٰ إِذَا بَلَغُوا النِّكَاحَ

**(Nisa, ayə 6).**

Şeyx Tusi kimi böyük alimlər bu ayənin təfsirində buyururlar ki, ayədəki "büluğ" kəlməsinin məqsədi, insanın evlənərək nəsil artırmağa fiziki gücünün çatmasıdır.

Hədislərə müraciət etdikdə isə görürük ki, evlənmək barədə iki qrup hədis mövcuddur. Birinci qrup hədislərdə bəzən konkret yaş həddinə işarə edilir. Misal üçün İmam Baqir (ə) buyurur:

**"Qız uşağı 9 yaşa çatsa evlənə bilər".**

Başqa bir hədisdə də oxuyuruq ki, "Qız uşağı 9 yaşa çatarsa və evlənərsə, yetimlikdən xaric olur və malını özünə verə bilərsən"

(uşaq yetim qaldığı zaman onun malı əmanət olaraq qəyyumunda qalır. Hədisdən də bu anlaşılır ki, qız uşağı 9 yaşına çatsa və evlənsə, artıq ona irs yolu ilə çatan malını özünə qaytara bilərsən və ya qaytarılmalıdır).

Digər qrup hədislər isə xüsusi yaş qeyd etmədən insanları gənc yaşlarında evlənməyə təşviq edir. Məsələn:

**من سعادة المرء ان لا تطمث ابنة في بيته**

**"Kişinin səadətindəndir ki, qızı öz evində heyz görməsin"**

İslam düşmənləri bu qrup hədislər vasitəsilə insanları manipulyasiya edərək deyirlər ki, axı 9 yaş qız uşaqları üçün çox erkəndir və həmin yaşda olan qız uşaqlarının çoxu sözün əsl mənasında uşaqdırlar, yəni evliliyin nə olduğunu dərk etmirlər. Təəssüflər olsun ki, hədisləri və hökmü tam olaraq araşdırmayan insanlar da düşmənlərin bu tip sözləri vasitəsilə şəkkə düşürlər. Halbuki biraz araşdırsaq, hədislərə və fiqhi kitablarımıza nəzər salsaq, görərik ki, hədislərdə erkən yaşda evliliyə təşviq etmə halı nə qədər çox olsa belə Allah-Təala həddi-büluğdan əlavə başqa şərtlər də qoymuşdur. Belə ki, dinimiz buyurur; Həddi-büluğdan əlavə insan gərək rəşid (yaxşını pisdən ayırmağı bacaran) olsun. Yəni müstəqil şəkildə öz ixtiyarı ilə evlənsin və özü seçim etsin.

Şəhid Mütəhhəri "rəşid" olmağın evlilikdə şərt qoyulması barəsində buyurur ki, izdivac üçün yalnız həddi-büluğ və aqil olmaq (dəli olmamaq) kifayət etmir. Bunlardan əlavə gərək yuxarıda qeyd etdiyimiz rəşidlik də mövcud olsun. Rəşidliyi umumi mənada izah etmək istəsək bu cür deyə bilərik ki, insanın idarəçiliyə ləyaqəti olsun və buna mənəvi gücü çatsın. Boynunda olan maddi və mənəvi yükü həm dərk etsin, həm də layiqli şəkildə öhdəsindən gəlməyi bacarsın.

Şəhid Mütəhhərinin sözü ilə desək:

**"Evlilikdə rəşidlikdən məqsəd yalnız cismi deyil, həm də ruhi və fikri potensialdır”...**

Bir sözlə, həm qadın, həm də kişi bilməlidir ki, evlilik nə deməkdir. Cəmiyyət və mədəniyyətlərdən asılı olaraq bu dərrakə qabiliyyətinin yaşa nisbəti ayrı-ayrı dönəmlərdə və ictimalarda fərqli şəkildə özünü göstərmişdir.

İslamda erkən evliliyə təşviqin bir səbəbi insanın ömrü ötmədən yəni qocalmadan evliliyin xeyir və səmərəsindən faydalanması, digər səbəbi isə cavan yaşda evlənməklə cinsi tüğyanların qarşısının alınmasıdır. **Buna görə Həzrəti Peyğəmbər (s) buyurub:**

**"Hər kim evlənsə dininin yarısını tamamlamış olur"...**

Yəni, insanın dininin yarısı əksər vaxtlarda cinsi tüğyanlara görə məhv olmaqdadır. Bunun biz real həyatımızda da şahidi oluruq. Kor-koranə şəkildə qərbdən təqlid edilərək evlilik yaşı 18-ə kimi uzadılmışdır və məhz buna görə də cəmiyyətimizi fəsad bürüməkdədir. Nə qədər şahidi oluruq ki, məktəbdə oxuyan qız və ya oğlanlar cinsi istəyə görə Allahın haram buyurduğu yollara əl atırlar. Hər birimiz bilirik ki, cinsi istək fitri bir məsələdir və iradəsi zəif olan insan evlənəcəyi zamana kimi hər hansı bir yolla cinsi tələbatını ödəyəcəkdir. Nəticədə fəsad baş alıb gedəcək və cəmiyyətdə şəhvani haram ab-hava hökm sürəcəkdir. Peyğəmbərimiz (ə) və Məsum İmamlarımız (ə) bu fəsadın qarşısını almaqdan ötrü insanları cavan yaşda evlənməyə təşviq ediblər. Cavanlıq yaşı digər məsələlərdə olduğu kimi evlilikdə də çox münasibdir. Allah-Təala cavanlıqda bərəkət qoyubdur. Hər bir işi insan gənc yaşında görərsə daha çox uğur qazanacaq və daha çox fayda

aparacaqdır. İstər elm öyrənməkdə, istər idmanda, istər incəsənətdə və sair sahələrdə olduğu kimi evlilikdə də vəziyyət eyni cürdür. Dinimiz evliliyin erkən çağında olmasına israr edərək buyurur:

**"Ən pis cavanlar subaylardır"...**

Yəni, evliliyə ehtiyacı olduğu halda evlənməyən gənclər məzəmmət olunur.

Dinimiz erkən yaşlarda evlənməyə təşviq etdiyi zaman ataları öz oğlunu evləndirməyə və ya qızını ərə getməyə məcbur etməsi kimi mənfi halları heç zaman və heç bir formada təsdiq etmir. Əksinə, dini nikahın şərtlərindən biri də budur ki, qız və oğlan özləri öz ixtiyarı ilə evliliyə razılıq versinlər, əks halda isə kəbin və nikahları batil olur.

İndi deyin görək, kimdir pedofiliyanı dəstəkləyən? Evlilik yaşını 18 edib, 18 yaşdan əvvəlki evliliyi pedofiliya adlandıran və həmçinin 16 yaşdan sonra cinsi əlaqəyə girməyə qanunla icazə verən qərb, yoxsa əqli və cinsi yetişkənliyə çatdığı zaman insanlara evlənmələrini tövsiyə edən və cinsi istəklərin yalnız evlilik yolu ilə ödənməsini müdafiə edən islam?

**Həqiqətən, Allah yanında, tərpənən canlıların ən pisi düşünməyən insanlardır.**

**Ənfal 22**

## Yalan 36

## • İsrail silahları ancaq bizə satır

Sionist yəhudilər-yəni özlərini üstün irq, digər millətləri isə QOİ (heyvan) hesab edənlər tarix boyu bu axmaq düşüncələri ucbatından dünyanın hər yerindən qovulmuşlar. Onlara yaşamaq, dini ayinlərini icra etmək hüququ yalnız islam ölkələrində verilsə də, bu xain tayfa günümüzdə yalnız islam və müsəlmanlarla mübarizə aparmaqdadır. Dünyanın dörd bir tərəfində nifaq saldıqları üçün təzyiq və sıxıntılara məruz qalan sionistlər Fələstində ölkə qurmaq xülyasına qapılaraq yerli xalqa qarşı 70 ildir soyqırım törətməkdədirlər. Sionistlər hələ yüz il əvvəl hansı bölgədə toplu halda məskən salacaqları barədə müzakirələr apararkən versiyaları arasında Azərbaycan da var idi. Qondarma yaratdıqları İsraildən də qovulacaqlarını anlayan işğalçılar bugün yenidən Azərbaycan versiyasını dilə gətirir və yəhudi icmaları başçıları “Bizə Azərbaycan Amerikadan daha təhlükəsizdir” deyərək məqsədlərini bəlli edirlər. Onlar bu plana artıq 30 ildir ki, start veriblər və Azərbaycanda yeni tikilən binalardan evlər almağa başlayıblar. On ildən çoxdur ki, tikilən və heç bir mərtəbəsində işıqlar yanmayan binalar buna dəlildir.

Azərbaycan ad-soyadı ilə zəvvar avtobuslarında Məşhədə gedib, İran barədə İsrail səfirliyinə xəbərlər çatdıran bu sionistlər aldıqları ianələr hesabına sosial şəbəkələrdə böyük auditoriyalı səhifələr işlədir və xalqa uşaq qatili İsraili sevdirməyə çalışırlar. Bunların necə bir tayfa olduğunu tarixi oxuyanlar çox gözəl bilirlər. Bilməyənlər üçün isə sadəcə bu misal kifayətdir ki, xristian və müsəlmanlar arasında Qüdsdə baş verən döyüşdən sonra bağlanmış müqavilədə məğlub olmuş xristianların müsəlmanlardan yeganə istəyi bu olmuşdur ki, sizinlə yaşamağa razıyıq, amma yəhudilərlə yox...

Qüds fəth olunan zaman xristianların əlində idi, yəhudilərin yox. Qüdsdə, yaxud digər bir yerdə tarixin heç bir dönəmində hansısa yəhudi dövləti olmamışdır.

Tarix boyu qərb ölkələri və xristianlar tərəfindən nifaq saldıqları üçün hər cür diskriminasiyaya məruz qalan bu tayfa eynən Quranda yəhudilər barədə buyurulan ayələri təsdiq edərcəsinə yalnız iman gətirənlərə düşmən kəsilir və açıq-aşkar mübarizə aparırlar. Allah Quranda buyurur: Siz iman gətirənlərə düşmənçilik baxımından ən şiddətli yəhudiləri görəcəksiniz...

Bu ayələrə əsasən yəhudilərə dost deyənlər Allaha iman gətirdiklərini iddia etməməlidirlər. Çünki Allah yəhudiləri düşmən, düşmənlə dostluğu küfr, mübarizəni isə iman nişanəsi sayır. Bəs yəhudilər yəhudi olduqları üçünmü Quranda belə lənətlənir və ikiüzlü qövm adlandırılır? Xeyr. Allah kimsəni etnik kimliyinə görə lənətləməz. Ona görə lənətlənirlər ki, **“çox dönük tayfadırlar...” (Bəqərə 83)**. Daim nifaq, xainlik və ikiüzlülük edirlər. Yəni Allah bizə ayələrlə başa salmağa çalışır ki, ey müsəlmanlar! Bunlardan sizə dost olmaz! **Kim onlara dost desə, o da onlardandır, yəni ikiüzlü və dönükdür. (Maidə 51)**

İndi ey Azərbaycan xalqı! Allahın lənətlədiyi bir tayfanımı özünə dost bilirsən? Türkiyəli bir hoca demişkən; “İsrailə dost demək, Allah mənə lənət etsin deməkdir...”

Bütün bu mövzuya müqabil qarşı tərəfin verdiyi bir cavab var;

-İsrail Azərbaycana dəstək verib...

Necə dəstək? Hansı dəstək?

-Silah verib...

Bizim ölkədə hiyləgərlikdə sərhəd tanımayan media nümayəndələri insanları çaşdırmaq üçün hər yola əl atır. Onların əl atdığı əsas metodlardan biri bax bucür söz oyunu oynamaqdır. Məsələn insanlara xəbəri çatdırarkən "satmaq" əvəzinə "vermək" ibarəsini işlədirlər. Bunu xüsusilə İsrailin lehinə və İranın əleyhinə istifadə edirlər. İsrailin Azərbaycana qanı bahasına silah satmasını xalqa "İsrail bizə silah verir" şəklində, İranın Ermənistana adi bir saqqız satmasını isə "İran Qondarma Artsax rejiminə atom-nüvə başlıqlı saqqız verdi" şəklində təqdim edirlər. Bu xəbərlərə insanların inanması bir dərd, Ermənistan və Artsax arasındakı fərqi hələ bilməmələri isə başqa bir dərddir...

İran rəsmi şəkildə Artsax ilə heç bir əlaqəsinin olmadığını bildirsə də, insanlar Ermənistana satılan İran malını Artsaxa verilən tank kimi qəbul edirlər. Azərbaycanın bildiyiniz kimi ən böyük neft alıcısı İsraildir və İsrail aldığı neftin əvəzində trollarının dili ilə desək "Amerikaya belə satmadığı silahları" (!) bizə satır. Biri də demir ki, Amerikaya satmadığı silahları niyə bizə satır İsrail?!...

Amerikanın bizə satılan silahlara ehtiyacı varmı ümumiyyətlə?!...

Amerika özü İsrailin yaradıcısıdır və dünyaya silah satır. Amerika İsraildən silah alsa-bu, bir şirkətin öz filialından pul verib mal alması olar. Təbii ki, Amerika qondarma İsraili müstəqil bir dövlət kimi göstərmək və qara pulları İsrailə yedirdəndə xalqının gözündən pərdə asmaq üçün müəyyən silah aldığı yönündə xəbərlər dərc edə bilər. Amma Amerika İsraildən həqiqətən silah alsa belə, bu, İsrailin bizə tərifləyib milyon dollara satdığı və funksiyaları özümüzün istehsal etdiyimiz ucuz Zərbə PUA-larından elə də artıq olmayan Haroplar olmayacaq. Buna əmin olun... Bizə o silahlar bəlkə də pantürkçülərin və İsrail trollarının dediyi kimi "verilir", amma məcburi. Yəni neftini alıram əvəzində sənə pul verməyəcəm, bu silahları götür! Götürməsən...

Nəisə qayıdaq mətləbimizə. Azərbaycan İsrailə nefti "satarkən" (!) İrandan, erməni kilsələrinə qazı verərkən öz xalqından icazə almadığı kimi, İran da Ermənistana "atom-nüvə başlıqlı" saqqızlar satarkən nə Azərbaycan hakimiyyətindən, nə də Azərbaycan xalqından icazə almamalıdır. Necə ki, Türkiyə ermənilərə mal satarkən bizim hakimiyyətdən və xalqdan icazə almır.

Azərbaycan İran-Ermənistan əlaqələrinin sıfıra endirilməsini istəyirsə əvvəlcə İsrail-Azərbaycan əlaqələrini sıfıra endirməlidir. Zatən İran-Ermənistan əlaqələri İsrail-Azərbaycan əlaqələrinin paralelində inkişaf etmişdir. İranla qarşılıqlı güzəştlər olacaqsa, birinci addım atan tərəf də Azərbaycan olmalıdır. Çünki İran regionun super gücüdür və onların bizə ehtiyacı yoxdur... Necə ki, Azərbaycan super güc Amerikanın Ermənistana hərbi və maddi yardımlarını sorğulaya bilmir, İranın da ermənilərə saqqız satmasını sorğulaya bilməz. Zatən Azərbaycan hakimiyyətinin belə bir təmənnası da yoxdur. Bu yalnız Azərbaycan xalqı içində, İranı sevən və sevməyən qruplar arasında müzakirə olunur ki, sevməyib lənətləyən və İran düşməndir deyənlərin də belə bir gözləntisi ola bilməz. Olmamalıdır da...

Ümumiyyətlə islamda alqı-satqı mövzusunda alıb xeyir verməmək təkid olunub, satıb xeyir götürmək yox...

İran malını satır və hiyləgər media bunu bizə vermək kimi təqdim edir... Dünyada satışa vermək kimi baxan yalnız iki dəstə mövcuddur;

1-Bədənini satan fahişələr.

2-İsrailin ölkəmizdəki trolları.

Bildiyiniz kimi Azərbaycanın ən çox silah aldığı ölkə Rusiyadır. Bu trollar İsraili bizə silah satdığı üçün qardaş hesab etdiklərinə görə gərək Rusiyanı da böyük qardaş hesab etsinlər. Amma bu

hiyləgərlər ediləcək iradları əvvəlcədən nəzərə aldıqları üçün belə bir fırıldağa əl atıblar; İsrail bizimlə müharibə edən heç bir ölkəyə silah satmır...

Bunu daimi olaraq troll mediaları vasitəsilə Benyamin Netanyahunun müsahibəsi şəklində tirajlayır və milləti aldadırlar. Bu məsələni “google search” etsəniz görəcəksiniz ki, belə bir müsahibə ümumiyyətlə mövcud deyildir.




Həmçinin Azərbaycan ordusunun ələ keçirdiyi hərbi qənimətlər içində İsrailə məxsus tank əleyhinə “Spike” raketlərinin olması İsrailin Ermənistana da silah satdığını göstərir...

**Yalan** **Doğru**







Bu həqiqətlər və sionist yalanlarının ifşası yalnız Allahdan qorxan və vicdanlı insanlar üzərində təsirə malikdir. Yalnız haqq arayan insanlar həqiqətləri gördükdən sonra qəbul edə biləcək potensiyaya sahib olurlar.

Uca Allah Qurani-Kərimdə yalan və hiyləgərliklə insanları aldadanlar barədə buyurur;

**Kafirlərə uydurub düzəltdikləri yalanlar gözəl göstərildi və onlar haqq yoldan döndərildilər. Allahın zəlil etdiyi kimsəyə doğru yol göstərən olmaz...**

**Rə'd 33**

## Yalan 37

### • İranda türk dili qadağandır

İranda türkdilli əhalinin qazetləri, jurnalları, kitab nəşriyyatları, radioları, saytları və TV-kanalları var. Ümumiyyətlə İranda 200-ə yaxın mətbu orqan Azərbaycan dilində fəaliyyət göstərir...




Bəli İranda erməni məktəbləri də var, bunun səbəbi İranda yaşayan ermənilərin dini azlıq sayılmasıdır. Orada yaşayan müsəlman gürcülərin ayrıca məktəbləri yoxdur, çünki müsəlmandırlar. İranda yaşayan türklər də İranın yerli müsəlman əhalisi sayılır. İrandakı ermənilərin İrandakı türklər qədər hüquqları yoxdur. Məsələn parlamentdə neçə nəfər azərbaycanlı olar deyə bir məhdudiyyət yoxdur, amma erməni deputatlarda isə məhdudiyyət var. Erməni məktəbini misal göstərib ordakı azərbaycanlıların da belə bir məktəblərinin olmasını istəmək, əslində həmin azərbaycanlıların ermənilər kimi hüquqlarının məhdudlaşdırılmasını istəməkdir. Çünki ermənilərdə olduğu kimi məktəb açılması üçün gərək İranda yaşayan türklər də milli və dini

azlıq hesab edilsinlər. Bəzilərinin ağız dolusu bəhs etdiyi erməni məktəbləri İranda heç də erməni məktəbləri adlandırılmır. Bu məktəblərdə müəllimlər əsasən iranlılardır və erməni dili dərsləri isə həftədə bir dəfə olur. Həmin məktəblərdə yalnız tarix, ədəbiyyat və din dərsləri erməni dilində verilir. Ümumən erməni məktəbləri haqda onu deyə bilərik ki, nəinki İranda hətta Türkiyədə, Misirdə, Amerikada, Kanadada, Fransada, Argentinada, Avstraliyada və s. ölkələrdə erməni universitetləri və məktəbləri var. Bundan başqa türklər özləri məktəb açsa, türk dilinin tədrisini təşkil etsə, dövlət buna mane olmayacaq. Əksinə, İran İslam Respublikasının Konstitusiyası buna icazə verir və bu hüquqları təmin edir. Dövlətin özü də imkan dairəsində bu işi dəstəkləyir. Məsələn 2016-cı ildə təsis edilmiş Təbriz Universitetinin Türk Dili və Ədəbiyyatı bölümü 2020-ci ildə artıq ilk məzunlarını yola salıb...




Heç kimə sirr deyil ki, türklər yaşadığı ərazilərdə dərslər türkçə keçirilir, sadəcə kitablar farscadır, çünki dövlət proqramı bütün ölkədə eynidir... Biz sosial şəbəkələrə nəzər salsaq bu barədə minlərlə fotoşop, fake və yalan xəbərlərin dolaşdığını görə bilərik. Muzdur mətbuat orqanları bu məsələni

daim gündəmdə saxlamağa çalışır və İranda xalqın türkcə təhsil tələb etdiyi halda hökümətin buna maneəçilik yaratdığı təəssüratını yaradır. Əslində isə tam əksinədir. Xalq bu iş üçün səy göstərmir.




Diqqət etsəniz görərsiniz ki, İran İslam İnqilabından əvvəl nə ABŞ, nə də İsrail üçün çalışan muzdur mətbuat İranda türkcə təhsildən dəm vurmurdu. Səthi analiz qabiliyyəti olan hər kəs anlayar ki, burda türklər üçün türkcə təhsil tələbi imperialist qüvvələrin geopolitik maraqlarından doğmuş bir məsələdir. Yəni bugün millətçilər-türkçülər islam əleyhinə aparılan mübarizədə maşa kimi istifadə olunurlar. İranda yaşayan türklərim isə həqiqətən belə bir tələbi olsaydı əmin olun ki, onlar çoxdan buna nail olmuşdular. Çünki türkcə özəl təhsil müəssisəsi açmaq onların qanunla icazə verilən hüququdur. Türkcə danışan biri üçün başqa dildə təhsil almaq gələcək üçün həm də yüksək avantajdır. Belə olmasaydı, bugün Azərbaycanda Rusiya ilə düşmənçilikdən dəm vuranların hamısının övladları rus-sektor təhsil müəssisələrində oxumazdılar. Bu coğrafiyada yaşayan türkdilli bir insan üçün fars dilini bilməmək bütün tarix, ədəbiyyat və tarixi elmi əsərlərdən məhrum olmaq deməkdir. Bu qayda həm İran, həm Azərbaycan, həm də Türkiyə üçün keçərlidir. Bu 3 ölkənin bütün dahilərinin əsərləri fars dilində, minimum fars əlifbası ilədir.

Məsələn Şəhriyarın bütün əsərlərinin farsca, çox az sayda əsərinin isə azəricə olduğunu bilirdiniz? Tarixin istənilən tarixçi, ədib və şairinin sırf türkcə yazdığı əsərini belə oxumaq və xüsusən anlamaq üçün farsca bilməliyik. Bəli, hər dil o dildə danışan şəxs üçün əzizdir, amma biz necə ki, bugün udin dili ilə beynəlxalq dil olan ingilis dilini praktiki işləklikdə eyni tuta bilmərik, eləcə də fars dilini heç bir dil ilə müqayisəyə gətirə bilmərik. Bugün nə Türkiyə rəsmiləri, nə ABŞ, nə də vaxtilə panfars İran şahları ilə badə-badəyə vuran heç bir dövlət başçıları İranın daxili məsələsinə qarışaraq, türkcə yaxud hansısa başqa dildə nəsə tələb edə bilməzlər. Çünki şah zamanında da İranda türkcə təhsil yox idi və ümumiyyətlə tarixin heç bir dövründə İranda türkcə təhsil sistemi olmamışdır. Xalqları dil və irq faktorları ilə parçalamağa çalışanlar həqiqətdə şeytanın övladlarıdır. Uca Allah bu fitnələrə uymamağı Qurani-Kərimdə əmr edərək buyurur;

**Hamılıqla Allahın ipindən möhkəm yapışın və parçalanmayın. Allahın sizin barənizdə bir-birinizlə düşmən ikən qəlbləriniz arasında ülfət yaratdığı zamandakı nemətini xatırlayın ki, Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz.**

**Ali-İmran 103**

## Yalan 38

## • Atatürk türk dünyasının lideridir

Bir millətin lideri həmin millətin xüsusiyyətlərini özündə cəm etməli və xalqının sahib olduğu dəyərlərə hörmət bəsləməlidir.

Atatürk barədə türk millətlərinin lideri kəlməsini işlətmək nə qədər doğrudur? Türk xalqının sahib olduğu islam etiqadı ilə düşmən olan bir kəs türk xalqı lideri sayıla bilərmi? Əlbəttə ki, xeyr. Bugün biz Türkiyə cəmiyyətinə nəzər saldıqda da bir çox insanın onu lider kimi qəbul etmədiyini görürük və bu dəstə cəmiyyətin əksəriyyətini təşkil etməkdədir. Sadəcə Türkiyədə Atatürk əleyhinə danışmaq cinayət sayıldığı üçün hər kəs susur bu məsələdə. Həmçinin türk dünyasının tək Türkiyədən ibarət olmadığını nəzərə alsaq deyə bilərik ki, Atatürk nəinki türk dünyasının, heç Türkiyə xalqının belə lideri deyil.

O necə türk dünyası lideri ola bilər ki, Azərbaycan türklərini pul qarşılığında bolşeviklərə satıb.




hökumətinin RSFSR hökumətinə ilk rəsmi müraciətində – Mustafa Kamal Atatürkün V.İ.Leninə 1920-ci il 26 aprel tarixli məktubunda qeyd edilirdi ki, "...Sovet qüvvələri Gürcüstana qarşı hərbi əməliyyata başlamaq və ya diplomatik yolla, öz nüfuzu vasitəsilə Gürcüstanı ittifaqa daxil olmağa məcbur etsə, ingilisləri Zaqafqaziyadan qovmağa çalışsa, Türkiyə imperialist Ermənistana qarşı hərbi əməliyyatları öz üzərinə götürür və Azərbaycan Cümhuriyyətini Sovet dövləti dairəsinə girməyə məcbur etməyi öhdəsinə alır"[45]. Bunun müqabilində Türkiyə sovet Rusiyasından ilk yardım kimi qızılla 5 milyon türk lirəsi, həcmi və miqdarı danışıqlar zamanı müəyyən ediləcək silah və sursat, həmçinin bəzi hərbi-texniki vasitələr, tibb-sanitariya materialları və ərzaq xahiş edirdi[46]. Tərkibində keçmiş Türkiyə hərbi əsirlərindən təşkil olunmuş hərbi hissələr olan XI Ordunun Bakıdan yan keçməklə, Antanta qoşunlarına qarşı mübarizə aparmaq üçün Qarabağ və Ermənistandan keçərək Anadoluya gəlməsi nəzərdə tutulurdu[47]. Buna görə də Azərbaycanın sovetləşməsi xəbəri Ankarada böyük razılıq hissilə qarşılandı. Uzağa gedən geosiyasi məqsədlərini həyata keçirməyə çalışan sovet Rusiyası isə, öz növbəsində, hər vasitə ilə hərbi-strateji cəhətdən çox mühüm olan regionu, ilk növbədə, Bakı neft sənaye rayonunu ələ keçirməyə, Yaxın və Orta Şərqin qapısında möhkəmlənməyə çalışırdı.

1920-ci ilin aprelində Bakıda hərbi çevrilişin hazırlanması və keçirilməsində burada olan Türkiyə hərbi xidmətçiləri və kommunistləri fəal rol oynayırdılar. Məhz onların köməyi nəticəsində şəhərdə bir çox mühüm obyektlər, o cümlədən dəmiryol vağzalı tutuldu, şəhərin hərbi qubernatoru M.Q.Tlexas həbs edildi[53]. Məhz Türkiyə zabitləri və əsgərləri hökumətin Bakını tərk etmək cəhdinin qarşısını aldılar[54].

Daha sonra isə öz satqınlığını Rəsulzadə və ətrafına ingilis köləsi deməklə ört basdır eləməyə çalışıb...



ATATÜRK ve KOMÜNİZM

menilere, Gürcülere ve umumî heyete karşı maddi kuvvetleri azaldı ve zayıf bulundu. İşte tam bu sırada İngilizlerin sürekli gayretleri ve kışkırtmalarının eseri olarak, İngilizlere bendelik etmekten zevk alan Azerbaycan Müsavat hükümeti ve bu hükümetin hempalarının kışkırtmasıyla, şüphe yok Gürcülerin ve Ermenilerin de karışmasıyla, ordunun, Bolşevik ordusunun tamamen gerilerine düşen Gence bölgesinde Azerbaycan'ın karşı kuvvetleri tarafından bir irtica vücuda getirildi. Bu olay üzerine 11. Kolordu Kumandanı Ermeni ve Gürcü sınırlarında bulunan kuvvetlerin hepsini çekti ve bunlarla çatışmayı durdurdu ve topladığı kuvvetlerle 22 Mayıs'ta Gence'de isyan eden muhalif kuvvetler aleyhine hareket etti ve onları kâmilen yola getirdi ve bastırdı.

Atatürk həmçinin 1 May 1930-cu ildə bütün rəsmi və özəl qurumlarda ərəb hərflərindən istifadəni qadağan etmişdir. Bu islamla və müsəlman türk xalqı ilə düşmənçilik deyilmi?!... Millətçilər bunu müsbət addım kimi qiymətləndirə bilərlər. Amma onlar düşünməlidirlər ki, xalqı min illik əlifbasından ayıran Atatürk alternativ əlifba kimi Avropada istifadə olunan əlifbanı gətirmişdir. Yəni bu milliləşdirmə deyil, qərbləşdirmə və avropalaşdırma idi...

Başqa bir məsələ isə Türkiyədəki soyad qanunu idi. Atatürk İsveçrə qanunvericiliyi əsasında 1934-cü ildə bu qanunu hazırlatmışdır. Bu qanun "Atatürk Devrimlərindən Biri" hesab edilir. Qanuna əsasən dini kəlmələr (Ağa, Hafız, Efendi) və farscadan keçdiyi üçün "zadə" hissəciyi soyadlarda qadağan edilmişdi. Osmanlı Türkcəsindən Türkiyə türkcəsinə keçid prosesini erməni Agop Martayana tapşıran və Müasir Türkiyə türkcəsini hazırladığı üçün ona "Dilaçar" ləqəbini verən Atatürkün farscadan gələn bir "zad"-a "hayır!" deməsi çox qəribədir elə deyilmi?!...




Halbuki Türkiyəli professor Taşansu Türker bildirir ki, türkcənin şeiriyyatı fars şeiriyyatının davamıdır, din terminologiyası da ərəbcə yox farscadır və fars dili ilə o qədər iç-içədir ki, hansısa fars sizə “farsca danışırsınız” desə təəccüblənməyin.




Ümumiyyətlə Atatürkün ermənilərə xüsusi bir rəğbəti olmuşdur. Övladlığa götürdüyü Sabiha Gökçen də bir erməni balasıdır. İndi bu erməninin adına Türkiyədə hava limanı da fəaliyyət göstərir.



Atatürk o şəxsdir ki, peyğəmbər barədə danışarkən onu yalançı adlandırırdı. Öz millətinin inancını təhqir edən bir şəxs necə həmin millətin lideri sayıla bilər?

**Yalan**



google.com

Atatürk'ün hayatı incelendiğinde onun hayatının hiçbir döneminde hiçbir dine ve hiçbir din mensubuna kötü gözle bakmadığı, hangi dinden olursa olsunbütün dindarlara saygıyla yaklaştığı, hiçbir din mensubuna baskı yapmadığı görülecektir. Nitekim Atatürk, **"Her türlü düşünceye ve inanışa saygılıyız"** diyerek laiklik ilkesini hayata geçirmiştir. Atatürk'ün anladığı laiklik her şeyden önce dine ve dindara saygıdır. Aynı şekilde dinsizliğe ve dinsize de saygıdır.

**Doğru**






154 • KAZIM KARABEKİR

mişlerdir. İslâm dinine ve Arapça diline hakkıyla vakıf kimselerin bulunmayacağı herhangi bir heyet, tercümeyi mesela Fransızcasından da yapabilir.[12] Fakat bence, burada Maarif programımızı tespit için toplanmış bulunan bu yüksek heyetten, vicdani olan din bahsinden değil, müsbet ilim cephesinden istifade hayırlı olur. Kur'an'ın yapılmış tefsirleri var, lazımsa yenisini de yaparlar. Devlet otoritesini bu yolda yıpratmaktansa, Milli kalkınmaya hasretmek daha hayırlı olur, dedim.

Mustafa Kemal Paşa beyanâtıma karşı hiddetle bütün içini ortaya döktü:

- Evet Karabekir; Arapoğlu'nun yavelerini Türk oğullarına öğretmek için Kur'an'ı Türkçe'ye tercüme ettireceğim ve böylece de okutturacağım! Tâ ki budalalık edip de aldanmakta devam etmesinler!

Bir qrup insan da “Atatürk Türkiyəyə demokratiya gətirdi” kimi fikirlər səsləndirərək, Türkiyə xalqını bu dinsizə borclu çıxarmağa çalışır.

Atatürk 1923-cü ildə hakimiyyəti ələ almış və 1938-ci ildə ölmüşdü. Türkiyədə ilk seçimlər isə 1940-cı ildə keçirilib. Bu onu göstərir ki, Atatürkün Türkiyəyə demokratiya gətirməsi məsələsi böyük yalandan başqa bir şey deyildir...

Həmçinin dünyanın heç bir ölkəsində demokratik quruluşa seçki yolu ilə keçilməyib. Yəni seçim, azadlıq kimi sözlər dünyaya ağalıq etmək istəyənlərin ortaya atdığı pafoslu şüarlardan başqa bir şey deyildir...

Atatürkün islamla düşmənçiliyi və ermənilərlə bu qədər iç-içəliyi onu göstərir ki, bu adam əsla Türk xalqı lideri sayıla bilməz.


K. Atatürk

Vahram Çerçiyan'ın bütün bir gece çalıştıktan sonra meydana getirdiği beş imzadan biri Atatürk tarafından seçilmiş ve bundan böyle Ata yalnız bu imzayı kullanmıştır. Resimde bu imza görülmektedir.

“Atatürk'ün imzasını çizmek görevi bana verildi„

Atatürk, ünlü imzasını, yazı uzmanı Vahram Çerçiyan'ın çizdiği beş örnek arasından seçmiş...

Bugün, 83 yaşındaki Vahram Çerçiyan «Atanın bize yaptıkları karşısında benim yaptığım nedir ki?» diyor

İmzası belə erməniyə məxsus olan bu şəxsin əsl simasını sizlərə göstərdik.

**İstər inanın, istər inanmayın...**

**İsra 107**

## Yalan 39

### • İmam zühur edənə qədər İslam dövləti qurmaq haramdır

Bu tərz düşüncəyə malik olan qrup zidd-vilayətçi adlanır.




Onlar düşüncəsizlikdə və yanaşma çevrəsinin məhdudluğunda vəhhabilərdən daha da pisdirlər. Ən pisi isə budur ki, bəziləri sırf şəxsi maddi mənfəət naminə bu fikirləri yayırsa belə, bir qrup az bilikli insanlar isə birbaşa bunların təsirinə düşür.

Deməli, bu zidd-vilayətçilər hədis kitablarından birmənalı olmayan, mübhəm (qarışıq) və mütəşabeh əhadisə söykənərək bəzi nəticələr alır. Təfərrüata daxil olmadan onların gəldiyi və müxatəblərini (yəni, bizi) gətirmək istədikləri nəticəni yoxlayaq. Yəni, ərəblərin bəhs zamanı dediyi kimi "لو سلمنا (tutaq ki, qəbul etdik)" məntiqi ilə davranaq və bunların istinad etdiyi hədisləri tək-tək araşdırmadan gəlmək istədikləri nəticəni qəbul edək. Nəticə isə budur;

"İmam Zaman (ə) ağa zühur edənə kimi heç bir nizama, hakimiyyətə qarşı çıxa bilməzsən. Heç bir şiə aliminin hökümət qurmasına icazə yoxdur. Hökm Allaha məxsus olduğu kimi höküməti də yalnız İmam (ə) özü gəlib qura bilər. O Həzrət (ə) gələnə kimi palaz olmalıyıq, yəni, ayaqlar altında qalmalı və əzilməliyik ki, onun zühuru daha da tezləşsin. Yer üzündə ədalətsizlik və möminlərin əziyyəti çoxalsın ki, o da daha tez zühur etsin"...

İndi isə bu zidd-vilayətçilərin gəldikləri nəticəni kiçik şəkildə analiz edək. Görəsən, zülmə məruz qalıb susmaq, susmaqdan əlavə bunu xoş qəbul etmək və zühuru tezləşdirən səbəb kimi göstərmək bizim əqidədə mövcud ola bilərmi? Görəsən, zühurun tezləşməsi üçün bütün möminlər zillətə

düşməlidirmi? Ümumiyyətlə, belə şəkildə düşünmək nə dərəcədə Quran və Əhli-Beyt sirəsinə uyğundur?

Cavab üçün çox geniş və ətraflı bəhs açmaq lazım deyil. Sadə bir üsuli qaydanı qeyd edərək düşünmək kifayətdir. Məşhur qayda belədir ki, hədislər arasında zahiri ziddiyyət yarandığı və bunu həll etmək mümkün olmadığı zaman Qurani-Kərimə müraciət olunur. Hansı qrup hədis onunla uyğun olarsa, qəbul edilir və əks tərəfdəki əhadis ya rədd olunur, ya da mümkün olduğu halda fərqli və xüsusi mənada başa düşülür.

Bir qrup hədislər, hətta ayələr vardır ki, ilahi insanın (Peyğəmbər, İmam, Naib və ya fəqih) hakimiyyət qurmasını zəruri hesab edir. Fəqihin vilayətinə dair gətirilən hədislər, zidd-vilayətçilərin öz əqidəsi üçün göstərdikləri hədislərlə uzlaşmadığı zaman əlbəttə ki, Qurana müraciət etmək zəruri olur. Görəsən, hansı tərəf düz deyir? Vilayətçilər deyir ki, fəqih hakimiyyət qurmağa çalışmalı və möminlər izzətli olmalıdırlar. Zidd-vilayətçilər isə deyirlər ki, heçnə etməməliyik və palaz kimi olub zillətlə zühuru gözləməliyik. Bunlardan hansının sözü Qurani-Kərimə uyğundur?

Sözsüz və şübhəsiz ki, insanın vicdanı və sağlam əqli rahatlıqla hökm edir ki, zidd-vilayətçilər açıq-aşkar xəta içindədirlər. İzzətli olan və möminlərin də izzətli olmasını istəyən, “izzət və qüdrət Allaha, Onun Rəsuluna və möminlərə məxsusdur” deyən Allah (Münafiqun 8-ci ayə) onlara palaz olmağı necə əmr edə bilər? "Nə zülm edin, nə də zülmə məruz qalın"- deyə əmr edən (Bəqərə 278) və bəndələrinə zərrəcə zülm etməyən uca Allah necə əmr edə bilər ki, hər cür zülmün çoxalmasına razı olaq?! Bütün böyük Peyğəmbərlər zalım hakimə qarşı çıxdığı halda və onlar hər kəsə bir nümunə olduğu durumda necə ola bilər ki, İmam Zamanın (ə) zühuruna qədər zillətə və zülmə qarşı qaldırılan bütün bayraqlar batil olsun? Elə isə Quranın yarısı tətil edilməlidir və Peyğəmbərlərin qissələri yarımçıq oxunulmalıdır. İmam Əli, İmam Həsən ilk fürsətlərində müsəlmanları batil hakimlə (Müaviyə ilə) müharibəyə səslədilər. İmam Hüseyn ağa da kufəlilər söz verib onu çağırdığı zaman üzü İraqa yola çıxdı. Yəni, bu üç böyük və əzəmətli şəxsiyyət elə ilk fürsətdə ilahi hakimiyyətin bərpası üçün addım atmışdılarsa, onların balası İmam Zaman (ə) üçün bu şərait niyə yaradılmasın və bunun üçün niyə çalışılmasın? Möminlərin izzəti üçün niyə addım atılmasın? İmam Hüseyn ağa "zillət bizdən uzaqdır"- deyib özü və dostlarını şəhadətə hazırladısa və bu şüar ilə Hz.Zeynəb və Əhli-Beyt qadınları əsir düşdüsə, niyə görə biz zilləti qəbul etməliyik və palaz kimi olmalıyıq?! Bu fikir açıq-aşkar İmam Hüseyn yoluna və Quranın istəyinə (Münafiqun 8-ci ayə) zidd deyilmi?!... Daha doğrusu, zidd-vilayətçilərin qənaətləri həm Quranın göstərişlərinə, həm vilayət hədislərinə, həm şəriətin cəza qanunlarına (ictimai-şəri hüdudlara) və həm də sağlam ağıl ilə vicdana müxalif deyilmi?!... Elə buna görə də müvəqqətidir, təsirsizdir və sadəcə oyunbazlıqdır...

**Ey möminlər! Kafirlərə qarşı bacardığınız qədər qüvvə və döyüş atları tədarük edin...**

**Ənfal 60**

## Yalan 40

## • Seçki

Dünyadakı heç bir quruluşdan digər quruluşa keçid xalqın seçimi və səsverməsi ilə olmamışdır. Buna ən sadə misal budur ki, istənilən toplumda qadınların sayı kişilərin sayından çoxdur və qadınların seçki hüququnun təmin olunması cəmi bir neçə onilliyə təsadüf edir. Bugünün özündə də xalqlara quruluşu seçmək hüququ verilmir, əksinə pullu kapitalistlərin çirkli kapitalları hesabına qurduqları sistem içində özlərinin təyin etdiyi 5-10 namizəd arasında teatr qurulur. Yəni ki, bəşəriyyətə, yaxud öz xalqına rifah gətirəcəyini iddia edən fəlsəfi məktəblər, cərəyan, ideologiya və quruluşlar sizlərə təqdim olunduğu kimi bir qrup əzilmiş xalqın, yaxud bu ideologiyanın təbliğində ciddi səy göstərən bir qrup zəhmətkeşin əziyyətləri nəticəsində idarəçiliyi əllərinə almayıblar...

Dünyada böyük qırğın və faciələrə səbəb olmuş faşizm hər kəs düşünənin əksinə olaraq Almaniyada xalqın nasist partiyanı səsvermə yolu ilə hakimiyyətə gətirməsi ilə qurulmayıb. Adolf Hitlerin Almaniyada hakimiyyəti ələ almaq üçün dövrünün oliqarx və kapital sahibləri ilə keçirdiyi toplantı tarixdə qeyd olunmuşdur. Məhz onlara tutarlı vədlər verildikdən sonra Hitler üçün partiya təsis olundu və o seçkilərdə qələbə qazandı...

Nasizm öz varlığını kapital hesabına yaratdı...

Fəhlə hakimiyyəti adlandırılan Sovet İttifaqı da təqdim olunduğu kimi əzilən xalqın ittifaqı deyildi. Bəli şirin vədlərlə xalqlardan dəstək aldılar və həqiqətən də verdikləri vədlərin böyük qismini yerinə yetirdilər. Amma Stalin və Lenin hakimiyyət qurmaq üçün kapitalı necə əldə etdi?

1907-ci ilin 26 İyununda Vladimir Lenin, Joseph Stalin, Maksim Litvinov, Leonid Krasin, Alexander Bogdanov və başqaları Çar Rusiyası Dövlət Bankının Tiflis Filialına gedən konvoyuna hücum etdilər və 341 min rubl (3.4 milyon dollar) pulu bolşevik inqilabına zəmin hazırlamaq üçün qarət etdilər. Hücumda 40 nəfər öldürüldü, 50 nəfər isə yaralandı. (Öldürülənlərin az olduğunu iddia edənlər də var)

Kommunizm nəzəri ideologiya olmaqdan qurtulub, praktiki mərhələyə keçidi qeyri-leqal kapital hesabına təmin etdi...

Demokratiyanın beşiyi adlandırılan Amerika bəs necə quruldu? Kim qurdu bu dövləti?

-Yüz illər boyu monarx sistemlə Britaniyanı idarə edən ingilislər...

Necə qurdular?

-İşğal, qətl və qarətlə...

Ümumiyyətlə Amerikanın Britaniya koloniyası olduğu bütün araşdırmaçılara bəllidir. Amerika qurulmamışdan əvvəl Britaniyanın Latın Amerikası ölkələrindəki istismar maşını olan ən böyük şirkətinin bayrağı da bugünkü Amerikanın bayrağının eynisidir.

Yəni ki, soyğun maşını olan bir şirkət, dövlətə çevrilmişdir.

3 Dekabr 1775-ci ildə 7 ay sonra yaranacaq olan ABŞ-ın ilk milli bayrağı qəbul edildi. Bu Britaniya şirkəti olan East İndia Company-nin bayrağı idi...




1801-ci ildə East İndia şirkəti bu bayraqdan imtina etdi. ABŞ isə qısa müddət sonra bayraqdakı Britaniya xaçının yerinə hər ştata uyğun bir simvolik ulduz yerləşdirdi və bayraq demək olar ki, eyni olaraq da saxlanıldı...

İngilis şirkəti tamam yeni bir formatda hegemon dövlətə çevrilmiş və bu dövlət, şirkətin missiyasını daha modern və sağlam metodlarla həyata keçirməyə başlamışdı...

19-cu əsrin sonlarına yaxınlaşdıqca ABŞ artıq beynəlxalq gücə çevrildi. Daxildə vətəndaş müharibəsi bitdi, ABŞ tam birləşdirildi, digər fransız və ispan imperialistlər ölkədən qovuldu.

Nəticədə, 1874-cü ildə Britaniyanın 3 əsrlik bir beynəlxalq gücü olmuş East İndia şirkətinə ehtiyac qalmadı və şirkət rəsmi olaraq bağlandı...

20-ci əsrdən etibarən isə ingilis kapitalist-imperializmi ilan kimi dərisini dəyişdirərək demokratiya adı altında dünyaya ağalıq etməyə başladı...

Qısacası ‘Liberalizm’ imperialistlərin əllərindəki oğurluq kapitalın ictimai quruluş halını almış formasıdır...

Gördüyünüz kimi dünyanı ağuşuna almış bütün bu ictimai quruluşlar və cərəyanlar qeyri-leqal kapitalın hesabına ayağa qalxmışdır. Təbii ki, həmin quruluşların əsl sahibləri də zahirdə bizə təqdim edilən qurucu və rəhbərlər deyil, kapitalını dövriyyəyə buraxan kapitalistlərdir.

Qeyri-leqal, çirkli, qara pullarla yaranan və ayaqda qalmağa çalışan bütün quruluşlar isə əlbəttə ki, məhvə məhkumdur!

Bəs islami quruluş necə? Kapital olmadan qurula bilərmi? Yaxud neft və bank maqnatlarının dövriyyəyə buraxdığı kapital ilə qurulsa islami quruluş sayılarmı?!...

Təbii ki, xarici investorların çirkli kapitalı ilə qurulan islam dövləti həqiqətdə islam dövləti sayıla bilməz.

Dünya praktikasından göründüyü kimi maliyyə dayağı olmayan heç bir ideologiya ayaqda qala bilməz. Demək ki, ilk növbədə qurulacaq olan islam hökümətinin maliyyə dayağı olmalıdır. Həm də islam hökümət gərək maliyyə dayağını öz içindən təmin etsin. Yəni ipi başqalarının əlində olmasın...

İslami məzhəblər içində hakimiyyətə gəlib özü-özünü leqal kapital ilə təmin edə biləcək cəmi bir məzhəb var. O da bu məzhəb nümayəndələrinin öz məzhəb başçılarına illik qazanclarından artıq qalanının beşdə birini vacib vergi (xums) şəklində ödədiyi Cə’fəri məzhəbidir.

Digər heç bir məzhəbin maliyyə dayağı yoxdur. Məhz buna görə də digər məzhəb rəhbərləri tarix boyu mövcud hakimiyyətdən asılı olmuş və aylıq maaş almışdılar. Çünki 40 qoyundan 1 qoyun şəklində tutulan zəkat vergisi ilə nə məzhəb rəhbərləri hakimiyyəti ələ ala, nə də ümumiyyətlə öz zəruri ehtiyaclarını ödəyə bilərdilər...

Yalnız öz kapitalını leqal yollarla təmin edən haqq ideologiya zəfər çalacaqdır. Bu Allahın və’didir;

**Haqq gələcək, batil gedəcək. Şübhəsiz batil qalmayıb, gedəcək...**

**İsra 81**